**SEYİD ƏBÜLQASİM NƏBATİ**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"
BAKI–2004

*Bu kitab "**Seyid Əbülqasim Nəbati**. Əsərləri" (Bakı, Elm, 1968) və "**Seyid Əbülqasim Nəbati**. Seçilmiş əsərləri" (Bakı, Yazıçı, 1985) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Əbülfəzl Hüseyni**

Ön sözün müəllifi: **Zaman Əsgərli**

**894.3611 - dc 21**
**AZE**
**Nəbati Seyid Əbülqasim. Seçilmiş əsərləri.** "Şərq-Qərb", Bakı, 2004, 216 səh.

XIX əsr Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan Seyid Əbülqasim Nəbati zəngin ədəbi-bədii irs qoyub getmişdir. Əsərlərini həm klassik poeziya üslubunda, həm də aşıq şeri tərzində yazmış Nəbati milli ədəbiyyatımız tarixinə sufi-panteist fikirləri ictimai həyatla, maddi aləmlə əlaqələndirən, klassik üslubu şifahi xalq ədəbiyyatı ilə birləşdirən görkəmli sənətkar kimi daxil olmuşdur. Onun poetik irsi həm ideya məzmun, estetik mətləb, həm də forma-sənətkarlıq keyfiyyətləri baxımından seçilir.

Şairin bu kitabı klassik və xalq şeri şəkillərində yaratdığı həmin gözəl nümunələrdən tərtib edilmişdir. Musiqililik, sadəlik, səmimi hisslər və dilin zənginliklərindən məharətlə istifadə bacarığı Nəbati şeirlərinin səciyyəvi xüsusiyyətidir.

**ISBN 9952-418-02-4**

© "ŞƏRQ-QƏRB", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Türkdilli Azərbaycan şerində Nəsimi ilə başlanan ictimai-fəlsəfi, sufi-panteist lirikanı XIX əsrdə yeni ideya-məzmun və bədii sənətkarlıq keyfiyyətləri ilə zənginlənşdirən, klassik poeziyadakı ruhani, fəlsəfi-estetik axtarışları yeni dövr ədəbiyyatında uğurla davam etdirib ən uca zirvəyə yüksəldən, onu yekunlaşdıran sənətkar Seyid Əbülqasim Nəbatidir. Milli ədəbi tərəqqi tarixində o, Şəms Təbrizi, Cəlaləddin Rumi, Əhməd Yəsəvi, Yunus Əmrə, həmçinin Nəsimi, Xətayi, Füzuli kimi dahilərin adları ilə təmsil olunan mənəvi-əxlaqi dəyərlərin varisi, XIX əsrdə son nümayəndəsidir. Klassik yazılı və şifahi şeir ənənələrinin vəhdəti, təriqət lirikası ilə folklor – xalq poeziyasının möhkəm sintezi onun yaradıcılığı üçün səciyyəvi olan başlıca əlamətdir.

Seyid Əbülqasim Nəbati 1812-ci ildə Qaracadağ mahalının Üştibin qəsəbəsində ruhani ailəsində anadan olmuşdur. Onun əsli qədim dövrlərdən bəri Ərəbistanda, İranda və Azərbaycanda geniş yayılmış Nəbatilər tayfalarındandır. Atası Seyid Mir Yəhya Möhtərəm Üştibində və yaxın kəndlərdə dərvişlik edir, müxtəlif islami əqidələri yayırdı. Şair qoşmalarının birində öz əsil-nəcəbi haqqında məlumat verərək yazır:

*Meydani-eşq içrə səyirtdim atı,*
*Müsəxxər eylədim Rumu, Heratı,*
*Möhtərəm oğluyam, adım Nəbati,*
*Zatımız Haşimi, əslimiz ərəb.*

Mənşə e'tibarilə ərəblərə gedib çıxan bu tayfaların içərisində farslar və türklər də var idi. Türklər həm də xançobanlılar adı ilə tanınırdılar. Elə buna görə Nəbati "Gözlərim" rədifli şerində özünə dair məlumatı dəqiqləşdirib yazırdı:

*Bəççeyi-türkəm, dilim türki, kəlamım həcv-məcv*
*Xançobani can alan cancanı gözlər gözlərim.*

Nəbatinin uşaqlığı Üştibində və Qaracadağda keçmişdir. O, ilk təhsilini atasından almış, klassik poeziyanı, xüsusilə Hafiz yaradıcılığını və Şərq təsəvvüf ideyalarını dərindən öyrənmişdir. Yeniyetmə çağlarından atasına qoşulub qələndərlik edən Nəbati Azərbaycanın çox yerlərini piyada gəzib-

dolaşmışdır. Şeirlərindəki bioqrafik işarələrdən bilinir ki, o, Qaracadağdan başqa Qarabağda – Əsgəranda, Qırçında, Ağdamda, Hindarxda və Muğanda, – Salyanda, Lənkəranda, habelə Təbrizdə, Xorasanda olmuş, bu yerlərin ədəbi-mədəni həyatı ilə maraqlanmışdır.

Seyid Əbülqasim bir müddət dərvişlik edib, müridlər arasında nüfuz və hörmət qazanandan sonra Üştibində mürşid olmuş, kəramət sahibi kimi tanınmışdır. Gənclik illərində o, Əhərə gedib, dövrünün görkəmli, böyük təriqətçisi olmuş Şeyx Mahmud Şihabəddinin məqbərə və ziyarətgahında guşənişinlik etmiş, riyazətlə məşğul olmuşdur. Nəbatilik təriqətinin başçılarından olan şair dünya işlərindən kənarda qalıb, sufi həyat keçirmiş, hücrədə tənha yaşamaqla haqqa, həqiqət aləminə yetişib gizli sirlərdən xəbərdar olmaq istəmişdir. Şair şeirlərinin birində guşənişinliyi tərifləyərək yazmışdır:

*Guşeyi-vəhdət nə əcəb ca imiş,*
*Sirri-nihan onda hüveyda imiş.*

*Aşiqi-divanələrin mənzili –*
*Rütbəyə bax, ərşi-müəlla imiş.*
*Qafil idim bu dili-viranədə,*
*Dil demə, oğlan, bu ki dərya imiş.*

Müasirlərinin dediyinə görə Nəbati çox səxavətli, mərd və nəcib bir insan olmuşdur. İbadətdən ayrılıb camaat arasına çıxan zaman onun simasında xüsusi bir gözəllik, işıq, nur görünərmiş; özgə bir hala düşərmiş və bəzən şövqə gəlib eşqə, mey və məhəbbətə dair şeir oxuyarmış. Aydın və şirin danışdığı üçün dinləyənləri valeh edərmiş. Müasirlərinin çoxu onunla həmsöhbət olmağı özlərinə şərəf bilərmiş.

Nəbati orta əsrlərin böyük mütəfəkkiri Nemətullah Vəlinin şiə təriqətinin davamçılarından olmuş, əsərlərində onun sufi-təriqət ideyalarını təbliğ etmişdir. Nemətullahi təriqətinə görə Allaha çatmaq istəyən özünü (maddi aləmi) unutmalı, fənaya uğramalı, bu yolla haqqa qovuşmalıdır. Yalnız daxilən təmizlənib saflaşan insan "Ənəlhəqq" deyib özünü haqqa çatmış hesab edə bilər. Nəbati də bu yolu davam etdirmək, insanın mənəvi kamilləşmə yolu ilə Allah səviyyəsinə yüksələ biləcəyinə inanmışdır. O da böyük Azərbaycan şairi İmadəddin Nəsimi kimi "Ənəlhəqq" deyə Allahı insanın özündə görmüşdür. Nəbati şeirlərinin birində deyir: "Bütün yaradılmış bizdən başqa bir şey deyildir. Yerdə, göydə, dəniz və mədənlərdə bizdən başqa heç bir şey yoxdur".

Lakin Nəbati dünyagörüşü, həyata baxışları etibarilə ziddiyyətli şəxsiyyət olmuşdur. O, bir tərəfdən dini ehkamları, xurafatı pisləyir, xalqı ibadə-

tə, mövhumata səsləyən zahidi "kor gözlü uzunqulaq" adlandırır. "Mümkün olduqca eyşi işrət qıl, fürsəti salma ruzi-miadə" – deyə müasirlərini həyatdan zövq almağa, şən, deyə-gülə yaşamağa çağırır, ikinci tərəfdən isə xalis dindar kimi çıxış edir. Özü də bir dinə qail olmur: gah islamı, gah atəşpərəstliyi təqdir edir, gah da islamı atıb xristian olduğunu, xaça sitayiş etdiyini söyləyir. Hətta bəzən özünü qatı kafir adlandırır: "Əgər bu ruzigar əhli məndən xəbərdar olsalar, yəqinimdir ki, Sənanın küfrünə min yol şükr edərlər".

Şair farsca şeirlərinin birində özünün daxili ziddiyyətlərini, bir-birini kəsən yollar ayrıcında mütərəddid qaldığını, mövcud həyatı, varlığı axıra qədər dərk edə bilmədiyini etiraf edib yazır:

*Gah ağıllı, gah divanə oldum,*
*Gah abad, gah viranə oldum,*
*Gah xərabat içində sufi,*
*Gah da meyxanə süpürgəçisi oldum...*
*Gah abid oldum, gah brəhmən.*
*Gah məscid, gah bütxanə oldum,*
*Gah dərviş oldum, gah qələndər,*
*Gah məst, gah da məstanə oldum.*

Həyatını maddi yoxsulluq və mənəvi ziddiyyətlər içərisində keçirən, gah qələndərlik, gah da dərvişlik edən Nəbati ahıl yaşlarında "Künci-vəhdətdə təbah oldu əziz ömrüm, heyf" – deyə sufiyanə ömür sürməsinə təəssüflənir, peşimançılıq çəkir. Şair həyatın mənası, dünyanın əvvəl-axırı haqqında çox düşünüb-daşınsa da, yaradılışın gizli sirlərindən xəbərsiz qalır:

*Yetdi ömrüm axirə, sən bir Nəbati bilmədin,*
*Kimdi bu gözdən baxan, ya dildə bu guya nədir.*
*Od tutub canım sərasər yandı, amma bilmədim*
*Dil nədir, dilbər nədir, başımda bu sevda nədir.*
*Bilmədim ömrümdə heç bir küfrü iyman hansıdır,*
*Əhmədü Mahmud kimdir, Müsəvü İsa nədir.*

Nəbatinin həyatı ziddiyyətli və ağır keçmişdir. Şair rastlaşdığı çətinlikləri aradan qaldırmaq üçün müxtəlif vasitələrə əl atsa da, dövran, zəmanə onu həmişə məyus etmiş, kədərləndirmişdir. Şeirlərinin birində özünün qəmli, tutqun əhvali-ruhiyyəsini ifadə edən şair lirik qəhrəmanın dilindən bu sözləri vermişdir:

*Nə müddətdir məni-biçarə, yarəb, yarsız qaldım,*
*Pozuldu rövnəqim, dağıldı ev, pərkarsız qaldım.*

*Kimə izhar edim dərdim, hanı bir məhrəmi-əsrar?*
*Qəmim çox, qəmküsarım yox, əcəb qəmxarsız qaldım.*

Nəbati 1873-cü ildə Üştibində vəfat etmiş və orada kənd qəbristanlığında dəfn olunmuşdur. Müasirləri şairin divanını qoruyub saxlamış, əsərlərini çağdaşlarımıza çatdırmışlar.

XIX əsr Azərbaycan lirikasının ən görkəmli yaradıcılarından olan Nəbatinin poetik irsi, həm ideya-məzmun, estetik mətləb, həm də forma-sənətkarlıq keyfiyyətləri baxımından zəngindir. Lakin şairin yaradıcılığında iki istiqamət aydın seçilir: 1. saf, təmiz insan duyğularının, dünyəvi məhəbbət hisslərinin və real gözəlin tərənnümü; 2. sufi-fəlsəfi fikirlərin və panteist görüşlərin təbliği. Buna uyğun olaraq onun əsərləri forma baxımından da bir-birindən fərqlənir. Bu əsərlərin bir qismi heca vəznində, qoşma, gəraylı, çarpa və təcnis janrlarında, ikinci qismi isə əruz vəznində, qəzəl, qəsidə, müxəmməs, müstəzad, rübai, tərcibənd janrlarında yazılmışdır.

Şairin heca vəznində yazdığı şeirlərinin əsas ideya xəttini real məhəbbətin, gözəlin tərənnümü təşkil edir. Nəbati sevən gəncin daxili aləmini, hiss və duyğularını, sevinc və kədərini sənətkarlıqla açır. Onun lirik qəhrəmanı həyat aşiqi, gözəllik vurğunudur. Bir qədər romantik ruhda olmasına baxmayaraq, bu gənc real dünyanı, həyat nemətlərini yüksək qiymətləndirir, xoşbəxtliyi həqiqi sevgidə görür. Məhəbbət yolunda əzab-əziyyətə düşməyi, bəla çəkməyi təbii sayır və bütün cəfalara vəfa göstərəcəyini bildirir:

*Aşiq olan xof eləməz bəladan,*
*İncməz yar edən cövrü cəfadan,*
*Nəbati, əl çəkən kimdir vəfadan?*
*Qoymuşam başımı mən bu meydanə!*

Gözəlliyi incə bir zövqlə duyan və qiymətləndirən Nəbatinin qoşma və gəraylılarında həsrət motivləri, aşiqin keçirdiyi sıxıntı və iztirablar yüksək sənətkarlıqla canlandırılır. Şair sevgilisindən ayrı düşmüş gəncin əzablarını, daxili təlatümlərini təbii boyalarla verir. Hicrandan səbri tükənən, taqəti kəsilən, naləsi "dağı-daşı bürüyən" bu gənc bəzən çəkdiyi əziyyətlərdən bezib, özünə "bəxti qara" desə də, cəfakeşlikdən əl çəkmir:

*Demə Nəbatinin yoxdur dəvamı.*
*Cövrümə tab etməz, çəkməz cəfamı,*
*Şahid olsun aləm cümlə, təmamı,*
*Nə qədər istərsən çək sinəmə dağ.*

Nəbatinin qoşma və gəraylılarnda məşuqə surəti də təbii boyalarla göstərilir. Şairin təsvir etdiyi gözəl real həyat adamı, canlı insandır. Onun simasında cazibədar Azərbaycan qızını görmək çətin deyil: hətta gözəlin konkret məkanı da məlumdur:

*Gözəl çox ruyi-zəmində,*
*Xüsusən Çinü Maçində.*
*Səni də bu Üştibində*
*Bir mahi-taban yaradıb.*

Qoşma və gəraylılarında şair gözəlin zahiri görkəmini, simasını, geyimini, bədən quruluşunu, baxışını, duruşunu, yerişini böyük ustalıqla tərənnüm edir. Başına abı rəngli tirmədən şar örtən, al-əlvan geyinən, "camalı gündən göyçək" olan bu gözəllər mehriban Azərbaycan qızlarıdır. Nəbati onları çox təbii, öz yerli xüsusiyyətləri və milli geyimləri ilə təsvir edir. "Yaradıb" rədifli gəraylısında şair, hətta gözəlin canlı portretini çəkir. Bu portretdə onun bütün cazibədarlığı görünür:

*Maşallah, qadir Allah*
*Gör necə dilbər yaradıb!*
*Gül üzündə əfşan-əfşan*
*Zülfi-müənbər yaradıb*

*Ağzı qönçə, ləbi püstə*
*Beli incə, boyu bəstə,*
*Tökülübdür dəstə-dəstə,*
*Nə gözəl tellər yaradıb!*

*Qaşı fitnə, gözü çadu,*
*Üzü lalə, xalı hindu,*
*Mina gərdən, saçı qarqu,*
*Gül buxağın tər yaradıb.*

*Dili almas, dişi inci,*
*At sinəsi gövhər gənçi.*
*Vəsfə gəlməz nazu ğənci.*
*Bunu əfsunkar yaradıb.*

Şairin "Gözlərin", "Olur", "Döndü", "Ey sənəm", "Məndən", "Genə" rədifli qoşmalarında da məşuqənin gözəlliyi cazibədarlığı, zahiri və daxili

keyfiyyətləri odlu bir lirika ilə tərənnüm olunur. Lirik qəhrəmanın dilindən söylənən bu şeirlərdə həmçinin təmiz məhəbbətlə sevən gəncin mənəvi, dünyası, onun hiss, duyğu və həyəcanları həssaslıqla təsvir edilir.

Nəbatinin real, dünyəvi məhəbbətdən bəhs edən lirik şeirləri içərisində "Gəlsin, gəlməsin?" rədifli qoşması mühüm yer tutur. Sevgilisindən ayrı düşmüş aşiqin daxili aləmini təsvir edən bu şeir Səbaya (Səhər mehinə) müraciətlə başlanır. Özünü "hicran düşkünü", "İllər xəstəsi" adlandıran aşiq Səba vasitəsilə yarına xəbər göndərib onunla barışmaq istədiyini bildirir. Şerin bütün bəndlərində aşiqin səmimiyyəti, sevgidə vəfası və sədaqəti ifadə olunur. O, sevgilisindən ayrı düşsə də məhəbbəti soyumur. Əksinə, "yar kuyi"ndən kənarda keçirdiyi günlər onun eşqini daha da alovlandırır. Aşiq həsrətdən üzülür, amma yenə də vurulduğu gözəli düşünərək belə bir qəti qərara gəlir ki, sevgilisindən kənarda ona həyat yoxdur. Eşqsiz dünyanın heç bir neməti, heç bir şöhrət, ad-san onun qəlbini oxşayıb ruhuna sakitlik gətirə bilmir. Buna görə aşiq bütün varlığını, gümanı gələn hər neməti sevgilisi yolunda qurban verməyə hazır olur:

*Nəbati istəməz onsuz dünyanı,*
*İzzəti, hörməti, şövkəti, şanı,*
*Bir zada qalmayıb daha gümanı,*
*Bu baş o meydanə gəlsin, gəlməsin?*

"Gəlsin, gəlməsin?" qoşması poetika-sənətkarlıq baxımından gözəl sənət nümunəsidir. Beş bənddən ibarət olan bu şeirdə "səba", "bülbül", "gülüstan", "pərvanə" və s. ənənəvi obrazlara təsadüf olunmasına baxmayaraq, Nəbati tamamilə yeni, orijinal lirika nümunəsi yaratmışdır. Onun dili sadə və aydın, misraları axıcıdır. Bu xüsusiyyətlərinə görə "Gəlsin, gəlməsin?" qoşması tezliklə dildən-dilə düşüb yayılmış, xalq içərisində böyük qarşılanmışdır. Nəbatinin müasirlərindən olan Mirzə Mehdi Şükuhi "Gəlsin, gəlməsin?" qoşmasından təsirlənərək, ona eyni rədifli qoşma yazmışdır.

Dünyəvi sevgini, real insan gözəlliyini yüksək ilhamla tərənnüm edən Nəbatinin yaradıcılığında sufi-panteist görüşlərin, ilahi məhəbbət ideyalarının təbliği geniş yer tutur. Qoşma və gəraylılarından fərqli olaraq – qəsidə və qəzəllərində məcazi eşqin tərənnümü, Nuri-Həqqin təbliği aparıcı mövqedə dayanır. Bu şeirlərin lirik qəhrəmanı ziddiyyətli bir insandır. O, bir tərəfdən hüsni-mütləq aşiqidir: dünya gözəlliklərinin hamısını ilahi aləmlə bağlayır, gözəlləri sevmək iqtidarını ilahi məhəbbətin nuru ilə əlaqələndirir, öz xoşbəxtliyini Allaha qovuşmaqda görür. İkinci tərəfdən həyat nemətlərini tərifləyir, insanı maddi gözəlliklərdən zövq almağa çağırır.

Şairin qəzəllərindəki məşuqə surəti də ikili səciyyə daşıyır; o, bir tərəfdən həmişə gizlində qalan, gözə görünməyən, ilahi nurdur. Aşiq həmişə vəh-

dət küncündə oturub onun görünməsini arzulayır. Lakin istəyinə çata bilmir və buna görə daima iztirab çəkir, həyəcan keçirir. İkinci tərəfdən isə məşuqə real insandır, öz işvə-nazı ilə aşiqi haldan çıxaran gözəl bir qızdır. Şair onun həm daxili, həm də zahiri gözəlliklərini – boy-buxununu, yerişini, ətrini, hətta geyimini, üz bəzəyini təbii boyalarla təcəssüm etdirir:

*Görüm, ey şux, səni xürrəmi xəndan olasan,*
*Qönçə gül tək açılıb, zibi-gülüstan olasan.*

*Geyəsən əyninə hər həftədə bir dəst libas,*
*Bərq urub aləmə bir mehri-dirəxşan olasan.*

*Tirmə başında, ayağında firəngi başmaq,*
*Sona kəklik kimi hər yanə xuraman olasan.*

*Vəsmə qaşında, gözün surmədə, zülfün üzdə,*
*Hər tərəfdən tökülə sünbülü reyhan olasan.*

*Olmaya şəngü qəşənglikdə də bir tay sənə,*
*Hamı dilbərlərə sən sərvəri-xuban olasan.*

Nəbatinin yaradıcılığında sufiyanə fikirlərə, "vəhdəti-vücudçuluğa tez-tez təsadüf olunur. Onun bir sıra şeirlərində lirik qəhrəman özünü Həllac Mənsura oxşadaraq, gecə-gündüz "ənəlhəq" söylədiyini bildirir ("Mənsur sifət şamü səba zikri-ənəlhəq olmuş mənə adət"). O, həyatda çətinliklərlə qarşılaşdıqda Piri-Muğana müraciət edib, qəlbini eşq ilə nurlandırmaq istəyir.

Şairin lirik qəhrəmanı həqiqi xoşbəxtliyi, əsil zövqü maddi aləmdən kənarda, mənəvi ucalıqda, yaxud "vəhdət məqamında" görür. O, dünya nemətlərinin və həyat gözəlliklərinin mənbəyini "vücudi-mütləq"-in adı ilə, yəni Allahla bağlayır. Hətta eşqin də səbəbini Allahda görür. Əsərlərində tez-tez təsadüf olunan mey, aşiq, saqi, bənövşə, cam, xumar, arif, dildar və s. sözlərin rəmzi-fəlsəfi mənası vardır. Şairə görə yalnız eşqi-ilahi ilə məst olanlar əsrar və xilqət pərdəsini kəsib haqqa çata bilərlər. Onun fikrincə meyxana – müqəddəs yerdir, dərin mənalar evidir. Oraya girmək – mənəvi cəhətdən tamamilə təmizlənmək, saflaşmaq və beləliklə, ilahi aləmə – vəhdətə yaxınlaşmaq deməkdir. Elə buna görə şair bir sıra əsərlərində meyxanaya abadlıq diləyir:

*Meyxanələri həmişə abad istə,*
*Sən əhlini də sərv tək azad istə,*
*Məscidlərə getmə, vaizin tərkin qıl,*
*Nə ric'ətə ver qulaq, nə miad istə.*

Beləliklə, Nəbatinin yaradıcılığında dünyəvi hisslərlə ilahi duyğular, maddi həyatla mənəvi aləm, real məhəbbətlə sufiyanə eşq qovuşuq şəkildə təsvir olunur. Şair həyatda istədiklərinə nail ola bilməyəndə ümidini vəhdət aləminə bağlayır, gözəli tərənnüm etməklə ilahi eşqə – "vəhdəti-yekta"ya qovuşacağına səmimiyyətlə inanır və müasirlərini də daxili saflığa, mənəvi ucalığa, "püxtə və arif" olmağa çağırır.

Məzmunca zəngin olan Nəbati şeirləri bədii forma, sənətkarlıq keyfiyyətləri baxımından da zəngin və orijinaldır. O, əsərlərində fikrin incə və təsirli deyilişinə xüsusi diqqət yetirmiş, sözün müxtəlif məna çalarlarından istifadə etməklə onu daha da cilalayıb poetikləşdirmişdir. Şair həm əruz, həm də heca vəznində yazdığı əsərlərdə bədii məcazlardan istifadə etməklə həqiqi sənət nümunələri yaratmışdır.

Onun yüksək şairlik istedadını təsdiq edən əsas əlamət yığcamlıq, fikir aydınlığı, vəzn ahəngdarlığı, qafiyə sərrastlığı, nitqin axıcılığı, nəhayət, işlətdiyi bədii təsvir və ifadə vasitələridir. Şair fikri bitkin vermək, təsvir obyektini canlı göstərmək, ifadəni qüvvətləndirmək üçün tez-tez istiarə (metafora), təkrir, poetik sual və mübaliğələrdən istifadə edir. Xüsusilə təkrirlər onun əsərlərinə güclü bir axıcılıq və oynaqlıq gətirir:

*Bu necə nərgizdir, bu necə gözdür?*
*Bu necə lalədir, bu necə üzdür?*
*Bu necə şəkərdir, bu necə sözdür?*
*Nə belə lə'l olur, nə belə gövhər!*

Bədii sual tərzində qurulmuş bu bənddə eyni zamanda qüvvətli bir istiarə və təkrir yaradılmışdır. Məlumdur ki, klassik sənətkarlar çox zaman gözü nərgizə, üzü laləyə, sözü şəkərə, dodağı lələ, danışığı – nitqi gövhərə bənzətmişlər. Nəbati də həmin üsuldan istifadə edir. Lakin sələflərindən fərqli olaraq o, "nərgiz göz", yaxud "lalə üz" söyləmir; qarşılaşdırılan anlayışları (nərgiz – göz, lalə – üz, şəkər – söz, ləl – dodaq, gövhər – nitq) sinonim anlayışlar kimi verir və fikri sual formasında qurmaqla aşiqin gözəllik qarşısında heyrətini daha da qüvvətləndirir. İkinci tərəfdən o, misralarda "bu" və "necə" sözlərini tez-tez təkrar etməklə şerin axıcılığını, şirinliyini artırır.

Şairin qoşma və gəraylılarında müşahidə olunan sənətkarlıq məharəti əruz vəznində yazdığı qəzəl, qəsidə, rübai, müxəmməs və saqinamələrində də asanlıqla görünür. Belə şeirlərində o, klassik üslubun ənənələrini davam etdirməklə bərabər, həm də yeni təşbeh və istiarələrdən, seçmə qafiyə və rədiflərdən, əruz vəzninin xoş avaz yaradan ahəngdar bəhrələrindən istifadə edir.

Nəbati Azərbaycan türk dilinin zənginliklərindən məharətlə istifadə edən sənətkar olmuşdur. Onun həm heca, həm də əruz vəznində yazdığı şeir-

lərində klassik ədəbiyyatdan gələn ərəb-fars mənşəli söz və ifadələr bəzən Azərbaycan türk dilinin öz doğma sözlərinə qaynayıb qarışır. Ancaq həmin sözlər şairin ana dilinin poetik qanunlarına uyğunlaşdırılır. Xüsusilə qoşma, gəraylı və təcnislərində Nəbati xalq danışıq dilində çox işlənən söz və deyimlərdən geniş istifadə edir.

Beləliklə, Nəbati XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə həm əruz, həm də heca vəznində gözəl şeirlər yazan, bədii fikrimizi ideya-fəlsəfi məzmun və estetika – sənətkarlıq baxımından zənginləşdirən görkəmli bir söz ustadı kimi daxil olmuşdur. O, Mirzə Mehdi Şükuhi, Mirzəli xan Ləli kimi yazılı ədəbiyyat nümayəndələrinin yaradıcılığına, habelə xalq aşıq şeirinə qüvvətli təsir göstərmiş, onun haqqında müxtəlif rəvayət və dastançalar yaranmışdır.

Görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərli Nəbatinin Azərbaycan ədəbiyyatı tarixində mövqeyindən bəhs edərkən onu Şərqin Hafiz, Şəms Təbrizi və Cəlaləddin Rumi kimi böyük şairləri ilə müqayisə edib yazmışdır: "Seyid Əbülqasim Azərbaycan türklərinin Xacə Şəmsəddin Hafizi, Şəms Təbrizisi və bəzi məqamlarda Mövlana Cəlaləddin Rumisi mənziləsindədir. Necə ki, Hafiz fəsahət və bəlağətdə (yəni gözəl və incə danışmaqda – Z.Ə.) Fars şairlərinin başçısı olub, həmçinin Nəbati də Azərbaycan şairlərinin fəsihraqıdır".

Klassik ənənələrə uyğun olaraq, həm doğma Azərbaycan türkcəsində, həm də fars dilində yazıb-yaradan Seyid Əbülqasim Nəbatinin əsərləri pərakəndə olsa da, hələ öz sağlığında divan şəklinə salınmış, şairin ölümündən sonra bu divan Təbrizdə daşbasma üsulu ilə çap olunmuşdur. 1935-ci ildən başlayaraq Nəbati irsi "Seçilmiş əsərlər" adı ilə Bakıda bir neçə dəfə oxucuların ixtiyarına verilmişdir. XX əsrin 60-cı illərində Nəbatinin "Əsərləri" müxtəlif əlyazma nüsxələri və çap kitabları əsasında tərtib olunaraq Azərbaycan Elmlər Akademiyası Nəşriyyatında daha mükəmməl şəkildə nəşr edilmiş (1968), həmin kitab 1985-ci ildə "Yazıçı" nəşriyyatında cüzi dəyişikliklə təkrar buraxılmışdır. Şairin əsərləri XX əsrdə son dəfə 1993-cü ildə Təbrizdə nəşr olunmuşdur.

Oxuculara təqdim olunan bu kitab Nəbatinin 1968 və 1985-ci illərdə Bakıda çıxmış "Əsərləri" (tərtibçi: Əbülfəzl Hüseyni) əsasında hazırlanmış, həmin kitablarda yol verilmiş bəzi imla xətaları aradan qaldırılmış, klassik üslubun qorunmasını təmin etmək üçün isə şeirlərdə apostrof işarəsinin saxlanılması məqsədəuyğun bilinmişdir.

***Zaman Əsgərli***

# Qəzəllər

Səhər meyxanə ətrafın gəzirdim məstü bipərva
Ki, gördüm onda nagəh bir əcayib surəti-ziba.

Müsəlsəl zülf çiynində, mürəssə tövq boynunda,
Firəngi ətləs əynində, başında mə’cəri-həmra.

Mələkmənzər, pəripeykər, süxəngüstər, vəfapərvər,
Büti-məhrü, güli-xoşbu, sözü-şəkkər, gözü şəhla.

Səmənrüxsar, müşkinmu, şəlayin qaməti-dilcü,
Sərasər fitnəvü cadu, sərapa şurişü qovğa.

Görən saətdə zövqümdən yıxıldım məstü layə’qil,
Dağıldı əql başımdan, alışdı atəşi sevda.

Pərişan oldu əhvalım, tükəndi səbri aramım,
Giriban çak edib durdum yerimdən valehü şeyda.

Məni görcək bu halətdə o sərvi-bağí-dilbəndi,
Gəlib yanımda əyləşdi əlində sağəri-mina.

Kərəm qıldı mənə bir cam, alıb mərdanə nuş etdim,
Durub opdüm ayağından, dedim: ey saniyi-Leyla!

Əgər görmək dilərsən surəti-Məcnuni-şeydanı,
Uzaq gəzmə, tamaşa qıl, budur ol aşiqi-rüsva!

Şikəstə-xatirü məhzun, sözü aşüftə, digərgun.
Tutub nəqşi-rəhi-Məcnun, gəzər vəhşi kimi səhra.

Nəbati, həmd qıl Allahə, min şükrü səna eylə
Ki, Məcnunun məqamatın sənə ruzi edib mövla.

* * *

Nə olmuş, bilmirəm, yarəb, hanı bir bülbüli-şeyda
Ki, salsın bu gülüstanə genə bir şurişü qovğa.

Tutubdur qəm mətaım aləmi, amma nə hasil kim,
Tapılmaz bir nəfər adəm ki, çalsın bircə pul sövda.

Məni bir muy ilə zəncirə çəkmiş bir pəri təl’ət,
Dəhanı qönçeyi-xəndan, buxaqi lö’lövü lala.

Biyabani-cünunu ləşkəri-eşqim tutub hər yan,
Bu taci-səltənətdən əl götürrəm bir də mən haşa!

Fəna mülkün tutub, seyr eylərəm iqlimi-təcridi,
Dəlilim zikri-”əlhafiz”, rəfiqim hümməti-mövla.

Nə olsun, bundan artıq lütfi-həqq bir bəndəyə, şamil,
Ənisin şahidi-qüdsi, məqamın sayeyi-Tuba.

Nədən məst eyləməz, bilməm, məni bu badeyi-gülgun
Ki, mədhuş eyləyib çoxdan məni bir gözləri şəhla.

Libası-fəqrdən bəsdir mənə bu xirqeyi-pəşmin,
Təni-üryanimə uymaz mənim bu ətləsi diba.

Edib mülki-Qərədaği mənim bu təb’i-sərşarım,
Qərədağ əhlinə bir bağrı dağlı laleyi-həmra.

Götür bir baş məzarından, dur, ey Məcnuni-biçarə,
Gözün aç , bir tamaşa qıl, budur gör sən deyən Leyla?

Əcəb tutdun, Nəbati, barəkallah, eşq damanın,
Yeri , gözlə, itirmə bu yolu, çək hay-hu ilqa!

* * *

Düşdüm genə meyxanədə xoşhənglər içrə,
Gördüm genə bir rəng ilə gülrənglər içrə.

Səd şükr ki, imdad qılıb bəxti-hümayun,
Bir diz yeri tapdım özümə şənglər içrə.

Ey meydən edib tövbə, edən bənglə ülfət,
Divanə kimi düşmə əbəs dənglər içrə.

Nə nəql, hekayətdi, nə əfsanəvü əfsun,
Bu büxlü həsəddir ki, düşüb yengilər içrə.

Ey sahibi-şəmşiri-düdəm, şahi cahanbəxş,
Ey küştələri püştə qılan cənglər içrə.

Bu mülki-Qəradağdə bimunisü qəmxar,
Fəryadimə yet, qoyma məni nənglər içrə.

Məcnun kimi üryanü dil-azürdəvü məhzun,
Dağdan dağa Gəzgəz gəzərəm sənglər içrə.

Eşq əhli sanıb salik ilə həmsəfər oldum,
Gəzdim bir-iki şamü səhər lənglər içrə.

Bu kuçeyi-eşqin, bilirəm, qayəti yoxdur,
Biçarə Nəbati qalacaq tənglər içrə.

* * *

Olu yarəb ki, düşə daməni-canan əlimə,
Düşsə, billah ki, düşər çətri-Süleyman əlimə.

Çalaram daşə külüngü belə şirin-şirin,
Cami-eşqi verə gər Xosrovi-xuban əlimə.

Edərəm daireyi-Misri gühərdən ləbriz,
Düşsə gər lə’li-ləbi-Yusifi–Kən’an əlimə.

Tövsəni-təb’i–səbaseyri doyunca çaparam,
Tuta bəxtim, gələ bir sahəti-meydan əlimə.

Qoşaram atı ilən atımı dil kəsməkdən,
Əhd qıldım düşə gər rayici-dövran əlimə.

Saqi, dur, ver mənə bir gür’ə o qan olmuşdan,
Çarə qıl dərdimə, ver bir tikə dərman əlimə.

Təngə gəldim, dəxi bir pəncə yetirrərm çərxə,
Gələ gər qaimeyi-günbədi-dövran əlimə.

Ey Züleyxa, məni çox etmə cəfa tapdaği,
Belə qalmaz, gəli bir guşeyi-zindan əlimə.

Künci-ixfadə əgər rəxti-iqamət salsam,
Verməz əl onda dəxi Rüstəmi-dastan əlimə.

Odumu qurdalama, ey dili kəc əbrani,
Yaxşı rəng çəkdi mənim çaki-giriban əlimə.

Həq bilir kim, edərəm mövci-fəna ğərqabı,
Düşsə gər dideyi-tər ləcceyi – ümman əlimə.

Çəkərəm xəncəri-əlmas, özümü öldürrəm,
İgid ölmüş, yola gəl, yaxma mənim qan əlimə.

Gedərəm dadə əlindən sənin, ey düşməni-can,
Düşsə gər barigəhi-şahi-Xorasan əlimə.

Görüm, ey eşq, səni görməyəsən hiç məlal,
Tari bilsin ki, gəlib küfrdə iyman əlimə.

Dəm çəkib, guşədə xamuş oturmum, neylim?
Bixəbər, gör ki, düşüb gövhəri-Qur'an əlimə.

Rudi-Nilə necə qərq eyləmərəm Fir'onu
Ki, gəlib mö'cizeyi-Musiyi-İmran əlimə.

Hu çəkib, mərqədi-Məcnunə yetirrəm peyğam,
Gələ gər dəmdəmeyi-tərfi–biyaban əlimə.

Etmişəm canı nisar etməyə hazır yarə,
Nola birdən gələ bu müjdeyi-fərman əlimə.

Xançobani genə lal oldu, qələm açdı zəban,
Dur, Nəbati ki, gəlib mürği-süxəndan əlimə.

* * *

Billəm ki, edər axir ol nərgisi-məstanə
Bu aşiqi şeydanı Məcnun kimi divanə.

Yox hacəti gülgunə, ol arizi gülrəngə,
Bir şanə gərək naçar ol zülfi-pərişanə.

Sən görməmisən axir tərsa qızın, ey kafir,
İmanə gəl, ey zahid, tə'n eyləmə Sən'anə.

Hər nə deyəcəksən de, hər… yiyəcəksən, ye!
Bir gün sənə mən çallam bir zərbəti-xəsmanə.

Dur get, göz önündən it, çox başımı ağrıtma,
Hər yanə gedirsən get, gəlmə dəxi bu yanə!

Qurbanın olum, saqi, səndən nə təğafüldür,
Mən zahidə tuş gəldim, sən dövr elə məstanə!

Məst olmamışam, billah, bu nəş'əni xam etmə,
Tök ver mənə bu meydən bir sağəri-rindanə.

Sən görmə rəva məndən bu suzi-dil əskilsin,
İstərsən əgər qoy-qoy yansın oda pərvanə!

Dur ki, cigərim yandı, məcmər kimi odlandı,
Az qaldı gözüm yaşi versin məni tufanə.

Gər etsə tələb könlün vəsli-ləbi-canani,
Gəl sən də Nəbati tək qoy başını meydanə.

* * *

Gülğülə saldım genə nöhfələki-əxzərə,
Etdi mədəd taleim, yetdi əlim sağərə.

Div, bəfəzli-xuda oldu pəridən cüda,
Müjdə apar, ey səba, ol büti-siminbərə.

Şamü səhər, müttəsil, şüğlüm olub məşqi-eşq,
Gözlərimi dikmişəm lövhi-rüxi-dilbərə.

Bir yükə kim, dözmədi gavi-fələk, sirrə bax,
Götdü belindən onun, çatdı məni-kafarə.

Tari bilir, odlaram xirqəvü səccadəni,
Saqi , bu qan kasəsin qoyma əlindən yerə.

Qasidi-əhli-niyaz, hüdhüdi-aşiqn-əvaz,
Lütf ilə bu naməni bağla o xoş şəhpərə.

Durma, dönüm başına, mən sənə qurban olum,
Hümmət elə, ver səfa şövq ilə balü pərə.

Bircə tamaşa elə dideyi-xunbarimə,
Söyləginən halimi ol məhi-xoş-mənzərə.

* * *

Əgər qoysan baxam mən bir nəzər ol çeşmi-şəhlayə,
Gözüm çıxsın əgər mən bir də baxsam cami-minayə.

Bir özgə hacətim yoxdur, vəli mütaqi-didarəm,
Nolur bax bir nəzər bu aşiqi-Məcnuni-şeydayə.

Şəbi-yəlda deyib, həsrət çəkib, qan-yaş tökən zahid,
De, eşşək, kor deyilsən, baxsan ol zülfi-çəlipayə!

Əgər arifsən, anlarsan, nə lazım kəşfi-hal etmək,
Məni bir gözləri cadu salıb bu şurü qovğayə.

Sizə məndən əmanət, ey cavanlar, mən ki ta getdim,
Vəlakin siz heyifsiz, düşməyin bu qanlı sövdayə.

Nəbati, çox cəfa çəkdin, muradın olmadı hasil,
Yeri, pirindən al hümmət, yapış damani-mövlayə.

* * *

Gətir, saqi, meyi-gülgun, bu bəzmi bir bahar eylə!
O cami-lə'lfam ilə bu xamı bir xumar eylə!

İrəm bağın tamaşa eylədim deyri-müğan içrə,
O darül-eyşi sən, yarəb, həmişə laləzar eylə.

Vərə, vaxtı deyil, zahid, bu təsbihi qoy əldən bir,
Gətir səcaddəni, ver meyfüruşə bir qərar eylə!

Ləbi-meyguni-saqi, sağər ilə həlqeyi-rindan,
Bu cə'min içrə, yarəb, sən məni bir meygüsar eylə.

Qüruri-ruzə xüşk etmiş səni, zahid, nə qafilsən,
Bu təzvirü riyadən keç, xudadən bircə ar eylə.

Bəhəmdillah, gözün var, kor deyilsən, cənnət istərsən,
Qədəm qoy xərabatə səhərdən, bir nahar eylə.

Nəbati, aşiqəm mən rindlər bəzmindəki halə,
Bəli, billah, bu qövmün itlərinə can nisar eylə.

* * *

Sərməst yıxıldım genə meyxanələr içrə,
Oldum genə rüsva neçə fərzanələr içrə.

Yaxdım oda səccadəvü dəstarü ridanı,
Bir ad elədim mən dəxi pərvanələr içrə.

Ey şuxi-pəritəl'ətü,ey sərvi-güləndam,
Gəzmə, səni tari, belə biganələr içrə.

Ol nərgisi-məstin nə füsungərdı, xudaya,
Saldı məni Məcnun kimi divanələr içrə.

Gəl, ver mənə bir cam də, ey saqiyi-gülfam,
Ta məst yazım bu sözü əfsanələr içrə.

Billah, bu büti-lalərüxün yoxdu nəziri,
Baxdım neçə min surətə butxanələr içrə.

Ol gənci-xəfidən bir əsər bilmədim axir,
Canım çürüdü heç yerə viranələr içrə.

Ey kövsər üçün ah çəkən zahidi-əbləh,
Meyxanədə gəl gör onu peymanələr içrə.

Qəvvas kimi qutə vurub bəhrə Nəbati,
Ol gövhəri istər tapa dürdanələr içrə.

* * *

Düşə bir də nəzərim mehri-rüxi-canana,
Kafirəm, meyl eləsəm sərvü gülü reyhanə.

Bu nə sözdür ki, mənim eşqimi tərk eyləmisən,
Allah, Allah, sözə bax, seyr elə bir böhtanə!

Tövbə qıl, Tariyə bax, bir də çevirmə üzünü,
Baxma düşmən sözünə, lə'n elə bir şeytanə.

Hanı zahid ki, gələ bir görə tərsa qızını,
Özünü zəbt eliyə, tə'nə vura Sən'anə.

İstərəm, ətləsü diba geyəsən qamətinə,
Məst tavus kimi çətr urasan hər yanə.

Belinə tirmə sarıb, ucların əfşan edəsən,
Açılıb gül kimi, minnət qoyasan hər canə.

Nəzərində düzülə, səf çəkə xüddamü kəniz,
Sən özün təxtə çıxıb əyləşəsən xaqanə.

Eşq odun doğru imiş, gizləmək olmaz, billah,
Alışıb öz-özünə, düşdü sözüm dastanə.

Yazığım gəldi, Nəbati, sənə, yandı ürəyim,
Heyfsən, çox da dəxi gəzmə belə divanə.

* * *

Xədəngi-tiri-müjganın əsər qılmış dilü canə,
Şikənci-türreyi-zülfün salıbdır rəxnə imanə.

Dilim yansın, neçün aşiq dedim oldum sənə, ey gül,
Məni sən beylə yaxdın atəşi-ənduhü hirmanə.

Budur pərvərdigarə daimən ərz etdiyim hacət,
Görüm didarını, qurban edim bu canı cananə.

Xəbər tut, vermişəm məşşatəyə yüz rişvəti-batin,
Məbada əlləri dəysin o zülfi-əmbər-əfşanə.

Məni pamal edər muri-xəyalın mari-zəxmi tək,
Yəqin etdim ki, düşməndir məhəbbət növ'i-insanə.

Damağ-əfsürdəyəm, saqi, gətir bir sağəri-ləbriz,
Ki, inşad eyləsin təb'im bu şe'ri məstü məstanə.

Xumar-aludəyəm, vermə mənə dürdi-təhi-xümdən,
O meydən ver mənə kim, döndərir muri Süleymanə.

Yaman göz görməməkdən ötrü tök bir cürə torpağə,
Əgərçi verməərəm bir qətrəsin yüz lə'li-rümmanə.

Kərəm qıl, küfri-zülfündən məni bir dəm xilas eylə,
O zalim döndəribdir qəlbimi bir kafiristanə.

Xəta etdim, rəhi-eşqində kafər olmağım yeydir,
Təəhhüd eylədim kim, yandırım bir xirqə rəhbanə.

Gözün qurbanıyam, saqi müsəlsəl gəz bu dövrani
Ki, düşsün bu sədadən həlqeyi-zəncirə divanə.

Əgər bu ruzigar əhli xəbərdar olsa da məndən,
Yəqinimdir ki, min yol şükr edərlər küfri-Sən'anə.

Əgər aləm ümumən düşmən olsa, qılca bakim yox,
Mənəm bu xirqeyi-pəşmin, mənəm bu künci-viranə.

Xuda şahiddi, səndən dönmərəm ta canda canım var,
Nisari-xaki-rahındı, əgər baş getsə fərmanə.

Əgər məqdur ola vəslin mənə ruzi-qiyamətdə,
Gözüm çıxsın əgər baxsam behiştü hurü qılmanə!

Hücumi-ləşkəri-eşqin təvana qoymayıb məndə,
Vəli yüz zə'f ilə gətdim səməndi-fikri cövlanə.

Götür üzdən niqabın, ta görünsün şəm'i-rüxsarın,
Yolunda nəqdi-can versin Nəbati mərd-mərdanə.

* * *

Satiya, dur dolanım başına, gəl dövranə,
Cami-zərrini götür, bircə dolan məstanə.

Tari-zülfün kimi sən ki, məni bican elədin,
Gətir ol ruhi-rəvan ilə məni bir canə.

Görməsin özgə gözəllər məni Məcnuni məgər,
Salıb ol kafəri-birəhm məni zindanə.

Eşqdən gör nə əcəb nəf'ə yetişdim, vəh, vəh!
Aqili-əsr ikən etdi məni divanə.

Qorxma nirani-fəraqın şərərindən, ey gül,
Sidqilən tut üzünü bircə şahi-Mərdanə.

İsmi-ə'zəm deyilən ismi-Əlidir, billah,
Gəzmə bica yerə Nəsnas kimi hər yanə.

Etməz iqrar, Nəbati, bu sözə zahidi-dun,
Gəlməz imanə yəqin and içəsən qur'anə.

* * *

Baxma şümşada, gözüm, sərvi-xuraman gəz-gəz,
Dərmə hər qönçəni, bir qönçeyi-xəndan gəz-gəz.

Hardadır abi-bəqa, çeşmeyi-zəmzəm nəçidir,
Kövsərin adın eşit, badeyi-reyhan gəz-gəz.

Alma firuzəni, yaqutü zəbərcəddən keç,
Dürri-nasüftə nədir, lə'li-Bədəxşan gəz-gəz.

Almanam bir pula mən bir qutu mirvaridi,
Səni tari, təkə cum, gövhəri-rəxşan gəz-gəz.

Hər gözəl tiri-nəzər nəsb edə bilməz yayə,
Aşiq öldürməyə bir gözləri qan-qan gəz-gəz.

Nə bilir nazü nəzakət nədi hər göyçək olan,
Hüsnü xoş, xülqü gözəl, bir ləbi-xəndan gəz-gəz.

Getdi Şirinü Züleyxa, ələ gəlməz Leyli,
İndi bu əsrdə kim, afəti dövran gəz-gəz.

Mümkün olmaz bu vəcahətdə gözəl dünyadə,
Rüb'i-məskuni dolan, aləmi hər yan gəz-gəz.

Tapmasan dəxi Nəbati kimi əfsanə deyən,
Əlinə şəm' götür, gün kimi yan-yan, gəz-gəz.

* * *

Eşq camından içən kimsənə huşyar olmaz,
Nə bu dünyadə, qiyamətdə də bidar olmaz.

Qorxu bilməz, eləməz şahü gədadən pərva,
Məst-məstanə gəzər, kağəzü tumar olmaz.

Buteyi-hicrdə bülbül kimi əfğanə gəlir,
Qeysi-biçarə kimi vəslə xəridar olmaz.

Tərk edər ləzzəti-dünyanı, keçər canından,
Sikkəni dağ qılar, talibi-dinar olmaz.

Göstərər mehrü vəfa yarinə, gördükcə cəfa,
Zilləti fəxr bilər, zərrəcə bizar olmaz.

Alışı şəm, kimi, odlaşı pərvanə kimi,
Can verər yarə, Nəbati kimi biar olmaz.

* * *

Nədən ol büti-pərivəş bir bu yanə gəlməz,
Məgər ol xərabə evdən usanıb cəzanə gəlməz?

Nə qılım, edim nə çarə o nigari-nazəninə,
Boyanıb cahan sözündən, özü bir əyanə gəlməz.

Başına dönüm, dolanım, o boyun bəlasın alım,
Niyə türki-çeşmi-məstin oxu bu nişanə gəlməz?

Döşənib əbir zülfün nə xub al yanağın üzrə,
Niyə bəs o qarğı saçın uzanıb dabanə gəlməz?

Ləbi-lə'li-ruhbəxşin gələ gər tərəhhüm üstə,
Dirilir bu xəstə, billah, demə kim, bu canə gəlməz.

Demə çox gözəldi Leyla, nəçidir uzun Züleyxa,
Belə dilbəri füsunkar dəxi bu cahanə gəlməz.

Mən onun qadasın allam, mən onun fədası ollam,
O nədir ki, yoxdu sanı, o bu sözdü, sanə gəlməz.

Desə gündə əlli min yol bu sözü əgər zəbanım,
Genə der ki, bir də söylə, yorulub əmanə gəlməz.

Məni çox da mən' qılma bu fəğanü hay-hudən,
Od içində bəs üzərlik nə qılar, fəğanə gəlməz?

Çağırın Hüseyn Balanı, oxusun bir xoş kəlamı,
Ələ bir də dəxi, billah, belə xoş zəmanə gəlməz.

Sənə dərdi-hicri yeksər edərəm hekayət, amma,
Qələm əldə sız-sızıldar ki, bu söz bəyanə gəlməz.

Hanı bəs, görən nə oldu, məni dərdü qəm tükətdi,
Niyə gəlmədi, yubandı, nə edib bəhanə, gəlməz?

Basar it hayana getdi, hanı fışqırıq sədası,
Nə gəlibdi Xançobanə ki, bu qış Muğanə gəlməz?

Bu sözü bəyənməsin qoy o rəqibi-nəhsü məş'um,
Belə lə'lü dürri-məknun, elə çal qabanə gəlməz.

Gücinən deyil, əzizim, bu şəhabi-eşqdir, eşq
Ki, o bərqi-nəxli-iymən hər odun yığanə gəlməz.

Qələmi-şikəstə qədlə sözü rəşki-dürri-nab etmə,
Ələ dəxi bir də, billah, belə xoş fəsanə gəlməz.

Keçər ərşi-kibriyadən təfi-bərqi-ahi-aşiq,
Alışar, yanar və lakin gözə bir zəbanə gəlməz.

Səri-kuyi-yarə getmiş genə qan üçün Nəbati,
O bəlalı aşiq indi batıb al qanə, gəlməz

* * *

Olmadı mümkün edim halımı canana ərz,
Mur nə qism eyləsin şahi-Süleymanə ərz.

Tab ola gər aşiqə yar üzün görməyə,
Şəm'ə edər hər gecə dərdini pərvanə ərz.

Surəti-divar tək olmasa gər lalü məhv,
Dərdin edər yarına aşiqi-divanə ərz.

Badi-səba, fəsli-gül gülşənə etsən xuram,
Hali-pərişanım et sünbülü reyhanə ərz.

Şə'şəeyi-arizin aldı gözümdən şüa',
Qoymadı halım edim ol məhi-tabanə ərz.

Çahi-məzəllətdə bənd Bijən olub müstəmənd,
Halın onun kim edə Rüstəmi-dastanə ərz?

Gərdişi-çərxi-fələk olmasa kamımca gər,
Dərdi-dilim eylərəm şahi-Xorasanə ərz.

Mətləi-şəmsi-züha, məzhəri-nuri-hüda,
Fəxri-dili-Mürtəza, mənbəi-ürfanə ərz.

Səhmi-şəbi-tardən olma, Nəbati, məxuf,
Dadi-dilin etgilən sureyi-İmranə ərz.

* * *

Nisbət sənə’ ey şux, Züleyxa ola bilməz,
Bu işvədə, bu qəmzədə Leyla ola bilməz.

Ahuyi-Xütən səndən alıb tərzi-nigahı,
Gülbərgi-ləbin tək güli-həmra ola bilməz.

Etmən gözünü nərgisi-şəhlayə bərabər,
Zülfi-siyəhin tək şəbi-yəlda ola bilməz.

Can nəqdinə bir busa kərəm qıl, səni tari,
Dəxi demə “əl çək” ki, bu sevda ola bilməz.

Məndən sənə icz eyləmək olsun gecə-gündüz,
Səndən mənə hey naz ki, haşa ola bilməz.

Bəs ki, məni görcək mənə vəhşi kimi baxdın,
İndi dəxi Məcnun mənə həmta ola bilməz.

Çox eşqə düşən aşiqi-biçarəni gördüm,
Heç biri Nəbati kimi şeyda ola bilməz.

* * *

Səcdeyi-həqq oldu çün zümreyi-insanə fərz,
Səcdeyi insan olub cümleyi-imkanə fərz.

Münşiyi-əmri-qəza hər kimə yazmış bir iş,
Oldu məni-acizə xidməti-cananə fərz.

Yoxdu dəva aşiqə düxtəri-rəzdən suvay,
Olmuş əzəldən mənə sağərü peymanə fərz.

Sanma ola hər dili qabili-lə'lü gühər,
Kövhəri-şəhbar olub əfsəri-sultanə fərz.

Hər kimə düşməz edə mədhi-şahi-lafəta,
Vəsfi-gülüstan olub bülbüli-xoşxanə fərz.

Vamiqi-şeyda gərək ta bilə Əzra nədir,
Tövfi-büt etmək olub rahibü rəhbanə fərz.

Olsa Nəbati əgər həmdəmi-ənfasi-sübh,
Vəsfi olur bigüman mürği-Süleymanə fərz.

* * *

Ol zaman mən edərəm zövq ilə bu candan həzz
Ki, yetib vəslə, edəm söhbəti-canandan həzz.

Görcək o novgülü, könlüm güli-xəndanə dönər,
Necə kim, bülbül edər tərfi-gülüstandan həzz.

Mürği-dil məskəni ol zülfi-çəlipa olanı,
Qəm yeməz dəxi, edər hali-pərişandan həzz.

Qoyma xali qala könlüm qəmi-eşqindən kim,
Adətimdir, edərəm mən dili-suzandan həzz.

Lütf qıl, sinəmi qıl bir hədəfi-tiri-cəfa,
Könlüm istər edə bir navəki-müjgandan həzz.

Ver səfa könlümə, tök seyli-sirişkim gözdən,
Mən həmişə edərəm bu düri-qəltandan həzz.

Qəm yükün çəkməyə Məcnun kimi sərməst gərək
Ki, edər qönçə kimi çaki-giribandan həzz.

Təng olur ruyi-zəmin rəzm günü namərdə,
Mərd edər şir kimi ərseyi-meydandan həzz.

Ol güli-tazə niqabın, nolar, üzdən götürə,
Yetə pərvanəyə ta şəm'i-şəbistandan həzz.

Görsəm ol qaməti-mövzunu, itirrəm özümü,
Böylə kim, qumru edər sərvi-xuramandan həzz.

Dəxi bundan belə çox eyləmərəm meyli-visal,
Eylərəm mən də Nəbati kimi hicrandan həzz.

* * *

Dərdi-dilim eylərəm dərgəhi-sultanə ərz,
Gər düşə fürsət edim halimi cananə ərz.

Məclisi-Cəmşidə kim yol verə hər müflisi,
Zərrə nə qism eyləsin mehri-dirəxşanə ərz.

Çarə olur dərdimə ol büti-bimehrdən,
Eyliyə bilsin əgər mur Süleymanə ərz.

Mən də əyan eylərəm yarə nihan sirrimi,
Şəm'ə əgər eyləsə dərdimi pərvanə ərz.

Fəsli-bahar oldu, bəs bülbüli-şeyda hanı?
Dərdü qəmin eyləsin qönçeyi-xəndanə ərz.

Faş edə bilməm əgər dərdimi sultanimə,
Yoxdu qəmim kim edər saqiyü peymanə ərz.

Lə'li-ləbin həsrəti çıxmasa candan əgər,
Bil ki, Nəbati edər qadiri-mənnanə ərz.

* * *

Tutdum genə xoş həngilə meyxanəni, meyxanəni,
Saqi, amandır, durma, ver peymanəni, peymanəni!

Cami büluri al ələ, sal çərxi-dunə vəlvələ,
Təyyarü pərkar etginən divanəni, divanəni.

Gəldi bahari-canfəza, ey rindi-məstü mübtəla,
Məstanə dəsti qıl kərəm şükranəni, şükranəni.

Mütrib həzin avaz ilə, dəmsaz olub bu saz ilə,
Türkanə bidar eyləmə həmxanəni, həmxanəni.

Saqi, nədir bu mül belə, bu cəm'i-məstə bir belə
Çək, daşı, tök bu məclisə xümxanəni, xümxanəni.

Bu bəzmi-xasi-ünsdür, aramgahi-qüdsdür,
Aç qapını, sal yazıya biganəni, biganəni.

Ta aşiyani-mürği-dil olmuş o zülfi-ənbərin,
Bayqu kimi məskən tutub viranəni, viranəni.

Saqi, çirağı rövşən et, bu bəzmi rəşki-gülşən et,
Gərm eylə rəqsi-halətə pərvanəni, pərvanəni.

Ey hüdhüdi-xoşbalü pər, üşşaqə sənsən naməbər,
Yad eylədi könlüm genə cananəni, cananəni.

Ey bülbüli-şirinzəban, vey tutiyi-xoşdasitan,
Etdin müqabil şəkkərə əfsanəni, əfsanəni.

Mən dustü düşmən bilmənəm, şeyxü brəhmən bilmənəm,
Tərcih vermən Kə'bədən bütxanəni, bütxanəni.

Bilməm gülü xar hansıdır, ya məstü huşyar hansıdır,
Divanədən fərq etmənəm fərzanəni, fərzanəni.

Sərrafə ver car eyləsin, şahı xəbərdar eyləsin,
Alsın məgər bu gövhəri-yekdanəni, yekdanəni.

Məscidləri ver zahidə, qoy xanəgahı abidə,
Gəl, sən, Nəbati məskən et meyxanəni, meyxanəni.

* * *

Çox dolandım kim, görüm ol çeşmi-cadulər kimi,
Görmədim, seyr elədim dünyanı hindular kimi.

Bəxti-nasazım məni ta etdi kuyindən cüda, –
Dadü fəryad eylərəm çöllərdə bubbulər kimi.

Gənc məxfi olduğun ta bilmişəm zülfündədir,
Olmuşam viranələr sultanı bayqular kimi.

Sənsiz, ey məhtəl'ətü şəkkər-ləbü huri-liqa,
Təlx olub abi-nəbat ağzımda ağulər kimi.

Möhnəti-hicrində ömrüm başə gəldi, ey sənəm,
Heyf kim, qol salmadım boynuna keysulər kimi.

Baisi-icadi-aləm ta ki, bildim eşq imiş,
Zikri "hu-hu" eylərəm hər ləhzə yahulər kimi.

Ta məgər versin Nəbati buyi-zülfündən xəbər,
Hər tərəf cövlan edər səhradə ahulər kimi.

* * *

Ah ki, gördüm genə bir büti-məhpeykəri,
Mu-kəmərü qönçələb, gülrüxü şux-mənzəri.

Bir sənəmi şuxü şəng, sim-bərü laləranɡ,
Zülfi-siyahın görən narə yaxar ənbəri.

Nafeyi-ahuyi-Çin səndədir, ey nazənin,
Badi-səba tək əbəs etmə məni sərsəri.

Getdi əlimdən, inan, saqi, amandır, aman,
Bağrımı qan eyləmə, ver mənə ol sağəri!

Heykəli-candır bus öz hirzi-Yəmani kimi,
Sanma ki, əfsanədir, hifz elə bu gövhəri.

Könlümün ayinəsi jəngi-qəm almış genə,
Dur, səni tari, gətir nüsxeyi-İsgəndəri.

Pərdə üzündən əgər salsa mənim dilbərim,
Tərk qılar bütpərəst bütkədeyi-Azəri.

Cami-meyi-eşqdən daim olur binəsib,
Olmaya ta aşiqin məşqi rüxi-dilbəri.

Mat qalır müttəsil badiyeyi-tihdə,
Olmaya ta salikin Xizr kimi rəhbəri.

Kağəzi-zərkəş gətir, ver mənə zərrin qələm,
Ta ki, mən inşa qılım eşqdə bu məhzəri.

Çünki tamam eylədm mən bu tərəbxanəni,
Hazır edin siz o dəm Maniyi-sürətgəri.

Onda mənim şəklimi, surəti-dildarımı,
Nəqş edə bu səfhədə, şad edə bu kafəri.

Getdi Nəbati özü, qaldı sözü yadigar,
Aşiq olanlar gəzər, axtarı bu dəftəri.

* * *

Böylə cəllad olmaz ol məstanə cadulər kimi,
İçmək istər aşiqin qanın şirin sulər kimi.

Gəbrü tərsani deyirlər bimürüvvət xəlq əra,
Həq bilir insafsız olmaz bu məhrulər kimi.

Razi-pünhanım mənim bu əşki-qəmmaz etdi faş,
Ondan ötrü bəs gözümdən düşdü bədgulər kimi.

Sineyi-suzanımı ta tutdu eşqin aşiyan,
Yandı canım hər zaman məcmərdə xoşbulər kimi.

Ta olubdur xatirim, ey gül, xəyalın məskəni,
Düşmüşəm bir dərdə kim, incəlmişəm mulər kimi.

Gər soruşsan halimi, lütf ilə, ey namehriban,
Nalə çəkməkdir işim hicrində qarğulər kimi.

Sən ki, yandırdın məni, gördüm, Nəbati, aqibət
Başını meydan əra düşmüş qəzəlgulər kimi.

* * *

Oldu könlüm genə bir zülfi-çəlipa dəlisi,
Düşdü zəncirə nə xoş yerdə bu sevda dəlisi.

Urü üryan, başaçıq üz çevirib səhrayə,
Qoydu Məcnunu yarı yolda bu səhra dəlisi.

Aşiqi-suxtədir, bülbüli-şeyda ki, deyil
Ki, olubdur deyəsən bir güli-həmra dəlisi.

"Rəbbi-ərni" - deyənin zikri dönüb Musayə,
Dəşti İyməndə olub nuri-təcəlla dəlisi.

Çoxları məst qılıb saqiyi-meyxaneyi-eşq,
Görmədi kimsə mənim tək belə rüsva dəlisi.

Demə Fərhad ilə Məcnun dəlidir, bir bəri bax,
Biri Şirin dəlisidir, biri Leyla dəlisi.

Künci-vəhdətdə təbah əziz ömrüm, heyf!
Olmadı yar mənə bir büti-ziba dəlisi.

Xoşlayıbdır görəsən hansı məzaristanı,
Deyin ol zahidə, ey bir kökə həlva dəlisi.

Gül ayağında səhər vaxtı yıxılmışdım məst,
Biri səsləndi ki, ey bu güli-rə'na dəlisi!

Bir ayıl, gör ki, Nəbati necə övrad eylər,
Nə yatıbsan belə, ey bir gözü şəhla dəlisi?

* * *

Aman-aman məni bir zülfi-yar yandırdı!
Görün məni necə bu zəhrmar yandırdı!

Çəkib haray, qılıb növhə eylərəm fəryad,
Nə gözlüsüz, məni bir gül'üzar yandırdı!

Qılıb kəbab məni, çəkdi şişə hər saət,
Töküb gözüm yaşını, zar-zar yandırdı.

Necə deyim ki, məni yandırıb nə qayətdə,
Məcus alusu kimi tökdü xar yandırdı.

O cadu göz, sənə qurban, məni bu halə salıb,
Sənə güman ki, məni ruzigar yandırdı?

Xəzan olanda, deyirlər şəcər tökər bərgin,
Qəzanı gör ki, məni novbahar yandırdı.

Nə cami-vəsl içib, nə güli-murad dərib,
Əbəs-əbəs məni rənci-xumar yandırdı.

Nəbati, etmə şikayət ki, od tutub yandım,
O binəvanı da çox aşikar yandırdı.

* * *

Gəldi bir şux genə yanıma göyçək-göyçək,
Vurdu bir tiği-cəfa canıma göyçək-göyçək.

Lalə rüxsarın edib xuni-dilimdən gülgun,
Boyadı əllərini qanıma göyçək-göyçək.

Parə-parə ciyərim şişə çəkib etdi kəbab,
Dikdi göz dideyi-giryanıma göyçək-göyçək.

Heyf ki, olmadı bu aşiqə bir canı yanan,
Deyə bir dərdimi cananıma göyçək-göyçək.

Pənah Allaha – deyib, qəhrü qəzəbdən yuma göz,
Edə bir ərzimi sultanıma göyçək-göyçək.

Ta ki, pərvanə kimi şövq ilə bu canı fəda,
Edim ol şəm'i-şəbüstanıma göyçək-göyçək?

Olu, yarəb, görəsən bir gecə ol valiyi-Misr
Gələ bu külbeyi-əhzanıma göyçək-göyçək.

Var ümidim ki, qələm əhli cavan oğlanlar
Yazalar bu sözü divanıma göyçək-göyçək.

Qəm yeməz dəxi Nəbati kimi, ol şahi-cahan
Basa bir möhrünü fərmanıma göyçək-göyçək.

* * *

Ey gözüm, yatma dəxi, gəl dəxi bidar ol-ol,
Xabi-qəflətdən oyan, bir gecə bidar ol-ol.

Bu qədər qönçə kimi pərdədə qaldın bəsdir,
Bir zaman həm açılıb şahidi-bazar ol-ol.

Başla zülmət yolunu, abi-həyatı axtar,
Yola düş, baxma dalı, get, yeri, rəhvar ol-ol.

“Ləntərani” bir əcəb sözdü, əgər aşiqsən,
Mənə bax, Turə yügür, talibi-didar ol-ol.

Sal əsanı yerə, nə’leyni ayağından at,
Yetəsən ta ki, təcəllayə səbükbar ol-ol.

Tutasan ta ki, Məsiha kimi göylərdə məqam,
Həqqi tut, xəlqi unut, zibi-səri-dar ol-ol.

Əlli ildə bu qədər məscidə getdin gəldin,
Oğlun ölsün, nə yatıbsan, dəxi bizar ol-ol.

Şəkkü səhvi götür, vəsvasi çıxart könlündən,
Qabili-məğfirəti-qadiri qəffar ol-ol.

Qıl tamaşa, muğü muğzadəvü tərsalərə bax,
Məstü mədhuş qalıb, surəti-divar ol-ol.

Həqqi tapmaqdı əgər mətləbin, ey bir belə zad,
Daxili-həlqeyi-rindani-qədəhxar ol-ol.

Bu qədər guşeyi-mehrabə sığındın bəsdir,
Bir də meyxanəyə gəl, faizi-ənvar ol-ol.

Eşqi, aşiqliyi mən’ eyləmə, zahid, billah,
Əqlini başına yığ, aşiqi-bir yar ol-ol.

Dövrə gəldikcə qədəh, sən dəxi bir cam al iç,
“Püf” de imanə, bəli sən dəxi xummar ol-ol.

Mənzilim küp dibi, amma ki, verən yoxdu mənə,
Ey Nəbati, bu əcəb halə xəbərdar ol-ol.

* * *

Düşəli eşqə xarü zar oldum,
Şəm’ tək dudi-ahə yar oldum.

Yandırıb xirqəni, ridanı tamam,
Şeyx Sən’anə nəngü ar oldum.

Dedilər adımı Xərabati,
Xəlqə bir küfri-aşikar oldum.

Təngə gətdi məni məlamətlər,
Sakini-dəştü kuhsar oldum.

Dərdi-hicranə tapmadım çarə,
Künci-vəhdətdə bərqərar oldum.

Eylədim malü dövləti bir-pust,
Nə əcəb şahi-tacidar oldum!

Çün Nəbati unutdu dünyanı,
Mən də bu xəlqdən kənar oldum.

* * *

Görəsən mən niyə, yarəb, belə nalan oldum?
Qələt etdim ki, sənə valehü heyran oldum!

Oda yaxdın məni-biçarəni pərvanə kimi,
Acığın gəldi məgər aşiqi-insan oldum?

Sudü sərmayəmi məcmu' əlimdən aldın,
Niyə kim, zahid olub məscidə dərban oldum.

Şeyx Sən'an kimi boynuma saldım zünnar,
İndi gəl, gör ki, kəlisalərə rəhban oldum.

Etdim ol dilbəri-tərsayə bu gün bir səcdə,
İndi bildim ki, yəqin mən də müsəlman oldum.

Lilləhülhəmd ki, mən küfrdə bildim iyman,
Gəldim iymanə, nə hasil ki, pəşiman oldum.

Gəl, Nəbati, dolanım başına, bəh-bəh, nə gözəl!
Can verib yarə, vəfa rahinə qurban oldum.

* * *

Məstü sərxoş bir büti-hərrafı gözlər gözlərim,
Əbrə beldə, bir qəba zərbafı gözlər gözlərim.

Xatirim istər ola sirr-"ənəlhəq" məzhəri,
Kəlleyi-dar üzrə bir culafı gözlər gözlərim.

Dürdnuşəm, rindlərtək kasəsin içmək işim,
İndi amma şişədən bir safı gözlər gözlərim.

Küfri-zülfün şərhini yazmaqda aciz qalmışam,
Üqdeyi-müşküldü, bir kəşşafı gözlər gözlərim.

Rah müşkül, rəhnüma yox, Xızr qaib, mən qərib,
Rəhmi çox bir sahibi-əltafı gözlər gözlərim.

Bikəsü bimar düşmənlər kəsib ətrafımı,
Bir şəhi-xunxar, bir səyyafı gözlər gözlərim.

Ruzü şəb dəryayi-jərfi-fikrə qəvvas olmuşam,
Axtarıb bir gövhəri-şəffafı gözlər gözlərim.

Afitabi-arizin min yoldan artıq görmüşəm,
Mə'dəni-müşki-Xütən bir nafı gözlər gözlərim.

Tökmüşəm meydanə dürrü, gövhəri təll etmişəm,
Bir əcəb sahib-nəzər sərrafı gözlər gözlərim.

Lohəşəllah, mərdi-əbləh, aşiqi-şeydayə bax,
Müştəri yanımda mən, ətrafı gözlər gözlərim.

Vurmuşam anbarə arpa-buğdanı bihəddü həsr,
Bir sələmxor, bir də bir əllafı gözlər gözlərim.

Yüz yük əbrişəm çüvalı pənbə bardanı kimi,
Tökmüşəm bazarə, bir şərbafı gözlər gözlərim.

Qabili-zilli-hüma etməm səri-üryanımı,
Həmdəmi-viranə bir xəttafı gözlər gözlərim.

Bağı-cənnətdir yerin, zahid, xoşa əhvalına!
Mən ki, əhli-duzəxəm, ə'rafı gözlər gözlərim.

Bəndeyi-piri-muğanəm, mənzilim deyri-muğan,
Bir bərəhmən sufiyi-səvvafı gözlər gözlərim.

Gümrəhi-tihi zəlaləm, qərqi-bəhri-mə'siyət
Bir müsərrif arifi-ərrafı gözlər gözlərim.

Gəlmişəm mülki-ədəmdən şəhri-imkan seyrinə,
Zadi-rahim kəmdi, bir zəyyafı gözlər gözlərim.

Gah Nəbati adını, gah Xançobani söyləyən,
Bir Koroğlu və'z, bir gəzzafı gözlər gözlərim.

* * *

Yol busub, bir dilbəri-əyyarı gözlər gözlərim.
Şux kaman, bir gözləri xunxarı gözlər gözlərim.

Bir büti-simin bədən, bir dilbəri-şirinsüxən,
Bir füsunkar mahi-xoşgüftarı gözlər gözlərim.

Bir mələk-mənzər, vəfa-güstər, nigari-nazənin,
Bir müəttər zülf, bir əttarı gözlər gözlərim.

Xatiri-məhzunimi şad eyləsin qəmdən, məgər,
Bir şəkərləb, yari-gülrüxsarı gözlər gözlərim.

Haşəlillah, tövbəkarəm, mən hara, məscid hara?
Rindi-məstəm, xaneyi-xummarı gözlər gözlərim.

Ta məgər təsxir edəm şol şuxi bir cadu ilən,
Axtarıb bir nafeyi-tatarı gözlər gözlərim.

Çahi-Babil, məskəni-Harutü Marut hardadır?
Zülməti-hicranda bir səhharı gözlər gözlərim.

Vəslə çatmaz hiç aşiq, ta ki, candan keçməsin,
Tutmuşam can əldə, bir dildarı gözlər gözlərim.

Salmışam bəhri-fənadə ləngəri-səbrü səbat,
Müttəsil bir gövhəri-şəhvarı gözlər gözlərim.

Könlümün ayinəsi zəngi-küdurət bağlamış,
Guşeyi-vəhdətdə bir gülzarı gözlər gözlərim.

Hər gecə bidar oturmaq vəchi ondadır müdam,
Əşki-xunin, ahi-atəşbarı gözlər gözlərim.

Qarət eylər ömrü hər bidərdə dərdi söyləmək,
Qəm yükün açmağə bir qəmxarı gözlər gözlərim.

Hayi-huyi-xəlq bizar eylədi candan məni,
Aşiqi-divanə tək dağları gözlər gözlərim.

Dürdnuşi-Hafizəm, rindanə mə'na söylərəm,
Üştibində badeyi-Xulları gözlər gözlərim.

Bağrımı qan eylədi bu guşeyi-təngi-qəfəs,
Bülbüli-şeyda kimi bağları gözlər gözlərim.

Hər nə etdim mürği-bəxti ram edəm, ram olmadı,
"Hu" çəkib, bir şəhpəri-şunqarı gözlər gözlərim.

Məstü mədhuş eyləyib çoxdan məni bir xirqəpuş,
Göz dikib, bir sağəri-sərşarı gözlər gözlərim.

Bir şahənşahi-büləndəxtər, xidivi-bəhrü bər,
Bir qəzənfər-həmlə, bir sərdarı gözlər gözlərim.

Müxtəsər, yeydir, Nəbati, bir sözü çox çeynəmə,
Söylə bir yol Heydəri-kərrarı gözlər gözlərim.

* * *

Bir könül kim, ola daim rüxi-canan ilə cəm,
Olmaz ol bir də dəxi tərfi-gülüstan ilə cəm.

Məni meydən, sizi tari ki, əgər mən' edəsiz,
Ki, mənim könlüm olur Cəm kimi bu qan ilə cəm.

Dağıt, əfşan elə ol türreyi-ənbərşikəni,
Ta ki, olsun könül o zülfi-pərişan ilə cəm.

Bir könül kim, ola bir qönçə-ləbin məftunu,
Olumu bir də məgər badeyi-reyhan ilə cəm?

Künci-vəhdətdə könül şəm'inə oldum qane,
Şəm'i-dil olmaz imiş şəm'i-şəbistan ilə cəm.

Bülbüli-tabi-xəzan-didə kimi gülşəndə,
Könlümü eyləmişəm təb'i-qəzəlxan ilə cəm.

Kilki-neydən tökərəm kağəzə şəhdi-şəkəri,
Dürri-nəzmi edərəm gövhəri-qəltan ilə cəm.

Dağılan xəstə könül şişəsinin parələrin
Rizə-rizə elərəm səbheyi-sübhan ilə cəm.

Yusifi-Misr kimi tə'neyi-ixvani-həsud,
Etdilər xatirimi möhnəti-zindan ilə cəm.

Səbrnən həll olu hər üqdeyi-müşkül, billah,
Ləzzəti-vəsl olur zəhməti-hicran ilə cəm.

Yarı tut, qeyri unut sən də, gözum, Məcnun tək,
Mümkün olmaz ola bir can iki canan ilə cəm.

Tuşeyi-rahi-fəna etməyə hər xarü xəsin,
Edərəm badiyeyi-eşqdə müjkan ilə cəm.

Hardasan, harda qalıbsan genə, ey şuri-cünun,
Ah, oldum, genə bu əqli-giran can ilə cəm.

Çarə qıl dərdimə, saqi, mənə bir cam, aman!
Olsa, könlüm olacaq dideyi-giryan ilə cəm.

Mərhəba, dilbəri-tənnaz nə xub etdi, görün,
Köksümün yarəsini navəki-peykan ilə cəm.

Ey könül, eylə dəxi zöhdü riyadən pəhriz,
Gəl, Nəbati kimi ol, həlqeyi-rindan ilə cəm.

* * *

Nə müddətdir məni-biçarə, yarəb, yarsız qaldım,
Pozuldu rövnəqim, dağıldı ev, pərkarsız qaldım.

Kimə izhar edim dərdim, hanı bir məhrəmi-əsrar?
Qəmim çox, qəmküsarım yox, əcəb qəmxarsız qaldım!

Diriğa, bilmədim qədrin mən ol yari-vəfadarın!
Əcayib səxt-canəm, yarsız mən arsiz qaldım?!

Qəmi-hicranə yandırdın məni, ey çərxi-dun, bəsdir!
Rəhim isminə Allahın deyim iqrarsız qaldım.

Nəbati, tövbə qıl, imanə gəl, əfsanə danışma,
Nola bir yol desən kim, ya Əli, mən yarsız qaldım.

* * *

Bəs ki, bu üzdəniraqlar ilə yoldaş oldum,
Şərbəti-qənd ikən şireyi-xaşxaş oldum.

O mələk-mənzərə aşüftəvü heyran olanı,
Səgi-şəbgərd kimi dideyi-xəffaş oldum.

Əhrimən tək neçə yol eşq büsatın yığdım,
Genə fərmani-Süleyman ilə fərraş oldum.

İstədim ta ki, olam lə'li-ləbin sərrafı,
Eşq biçizi olub qızlara beşdaş oldum.

Canü dil verdi Nəbati sənə, dəxi nəyi var?
Demə, billah ki, əcəb aşiqi-qəllaş oldum.

* * *

Dikmişəm göz rahə, bir cəlladı gözlər gözlərim,
Damə düşmüş seyd tək səyyadı gözlər gözlərim.

Yoxsa dersiz zahidəm mən, olmuşam məscid-nişin,
Ol sənəmdən ötrü bu bərbadı gözlər gözlərim.

Bisütun dağın gedib gəzmək deyil mənzurumuz,
Nəqşi-Şirin tək haman Fərhadı gözlər gözlərim.

Ta edib əksi-cəmalın sinəmi lövhi-xəyal,
Şeşdəri-heyrətdə bir nərradı gözlər gözlərim.

Bərqi-eşqin atəşi-suzanə yaxmış bağrımı,
Yaş tökəndə Dəcleyi-Bəğdadı gözlər gözlərim.

Məktəbi-eşq içrə ta etsin məni kamil əyar,
Olmuşam pabəstə, bir ustadı gözlər gözlərim.

Qoymayım ta ondan özgə kimsə bu viranədə,
Ruzü şəb bir xatiri-naşadı gözlər gözlərim.

Pərtövi-mehri-rüxündən ta ki, bilsin bir nişan,
Hər tərəf seyran edib, hər zadı gözlər gözlərim.

Cümleyi-Qur’an-kitabı eyləməkdən əlvərəq,
Özgə mətləb yox, həmin bir adı gözlər gözlərim.

Yaxşı sözlər çox demişlər gərçi aşiqlər, vəli,
Hamıdan yey mən bu xoş əfradı gözlər gözlərim.

Məhmili-Leyli, Nəbati, oldu gözdən napədid,
Mən nə Məcnunəm ki, bu övtadı gözlər gözlərim.

* * *

O günəş-arizə heyran olanı, zar olubam,
Əqlü huşum dağılıb, surəti-divar olubam.

Eşqi-bibak elədi pərdeyi-namusumu çak,
Zikri bəd, adı yaman, xalq üzünə xar olubam.

Məni görcək, deyəsən, cin eşidib “bismillah”,
Zahidin pis gözünə bir çalıcı mar olubam.

Ta bilim bəlkə, məgər, ol sənəmin mə’vasın,
Gah meyxanəyə, gah məscidə səyyar olubam.

Sən get öz karına, ey zahidi-bədkiş ki, mən
Talibi-cami-Cəmü badeyi-gülnar olubam.

Bül’əcəb dərdə məni salmış o yaği gözlü,
Gah divanəvü, gəh məstü, gəh huşyar olubam.

Saqi, gəl canımı al, ver mənə bir cam, aman!
Yanmışam, təşneyi-bir sağəri-sərşar olubam,

Ta Nəbati olub ol növgülə aşiq, billah,
Mən də həmnaleyi-bir bülbüli-gülzar olubam.

* * *

Canə od vurdum özüm, pərvanələrdən küsmüşəm,
Ta ki, Məcnun olmuşam, divanələrdən küsmüşəm.

Bir qələt sözdür ki, derlər, gənc olur viranədə,
Gənc yox, viranə çox, viranələrdən küsmüşəm.

Hasilim oldu təhəzzübdən nədamət tuşəsi,
İndi ol baş ağrıdan əfsanələrdən küsmüşəm.

Mən eşitdim ol gülün meyxanələrdir mənzili,
Əsli gördüm yox, gəlib meyxanələrdən küsmüşəm.

Xanimanımdan məni saldı Nəbati dərbədər,
Əqlə bax, Məcnun kimi biganələrdən küsmüşəm!

* * *

Kimdir o silsileyi-eşqə giriftar olsun,
Ta ki, keyfiyyəti-Məcnuna xəbərdar olsun?

Cənnətin hurü qüsuru sənin olsun, zahid,
Vəsəqi söyləmə, qoy dust mənə yar olsun.

Pərü balinə dəyən aşiqi-biçarələrin,
Görüm evdən eşiyə çıxmaq ona ar olsun!

O pəri-çöhrə ki, daim məni bimar istər,
Tarıdan istəmişəm bir də o bimar olsun.

Nə duadır elədin yarə, Nəbati, bir utan,
Rəsmdir aşiq olan gözdə gərək xar olsun.

* * *

Sənsən genə bu Turi-dili nuri-nar edən,
Sənsən genə bu Xançobanı məsti-yar edən.

Sənsən genə bu qönçələrə rəngü bu verən,
Sənsən genə bu gülşəni rəşki-bahar edən.

Sənsən genə bu canimə müjgan oxun atan,
Sənsən genə bu könlüm evin tarü mar edən.

Sənsən genə bu acizi divanə eyləyən,
Sənsən genə məni el-ulusdan kənar edən.

Sənsən genə bu sineyi-suzanə od salan,
Sənsən genə məni güdazə qoyub dağidar edən.

Sənsən genə o nakəs ilə həmqərin olan,
Sənsən genə bu bikəsi giryanü zar edən.

Sənsən genə rəqib ilə həmduş olub duran,
Sənsən genə bu canimi məcruhü xar edən.

Sənsən genə niqab tutub, gizlənib keçən,
Sənsən mənə bu bir nəzəri zəhrimar edən.

Çoxlar sənə firib verib aşiqəm deyir,
Olmaz sənə Nəbati kimi can nisar edən.

* * *

Genə aşufteyi-bir nərgisi-şəhlayəm mən,
Ondan ötrü belə aludeyi-səhbayəm mən.

Olmuşam bir sənəmi-lalərüxün müştaqi,
Bu səbəbdən dəli tək badiyə peymayəm mən.

Etdiyim şamü səhər naləvü zarın səbəbi,
Budu kimi, bəsteyi-bir zülfü çəlipayəm mən.

Demə kim, neyçün olubsan belə bimarü zəif,
Aşiqi-qəmzeyi-bir şuxü dilarayəm mən.

Nə deyirsən genə, ey cahili-əfsürdəməzac,
Külli-aləm bili ki, talibi-minayəm mən.

Olmuşam Xızr sifət pərdeyi-ixfadə nihan,
Genə bu aləm ara gün kimi peydayəm mən.

Çox da göstərmə mənə böylə zərin kisəsini,
Bu toru özgəyə qur, bəççeyi-ənqayəm mən.

Məndə var bəhr kimi dürrü gühər ənbarı,
Yoxsa bimayə sanırsan məni, dəryayəm mən.

Etmişəm suzənimi rişteyi-Məryəmdən dur,
Minmişəm tövsəni-gərdunə, Məsihayəm mən.

Mö'cizati-həmə peyğəmbər olub məndə əyan,
Bilmək olmaz məni, bir sirri-hüveydayəm mən.

İstəsən kim, biləsən kimdi bu inşanı qılan,
Gəzgəzəm, qaniçici duxtəri-tərsayəm mən.

Hələ gör bəsdi, Nəbati, nə ənəlhəqdir bu?
Dəxi bir yol deginən vahidü yektayəm mən.

* * *

Ey qələndər, məni öldürdü bu əfyun, əfyun,
Səni tari, mənə ver bir belə mə’cun mə’cun.

Nəş’əsi yoxdu bu bəngin məni, Allah, Allah,
Bizi, məl’un elədi gör necə məğbun, məğbun!

Söylə Fərhadə ki, gəldi genə Şirin, Şirin,
Səm’imə yetdi genə seyheyi-Gülgun, Gülgun.

Qaldı köksümdə bütün bu acı alma, alma,
Dur gətir qaçla yeyək bir-iki qavun, qavun.

Təzədən gəldi genə başıma sevda-sevda,
Xaneyi-əqli genə eylədi varun, varun.

Şükrlillah ki, dolandı genə dövran-dövran,
Oldu kamımca genə gərdişi-gərdun, gərdun.

Məstü məstanə gəzər bəzmdə saqi, saqi,
Beytül-əhzanım olub məclisi-Harun, Harun.

Ev yıxan, ver mənə bir sağəri-ravəq, ravəq,
Eylə bir cam ilə bu müflisi Qarun, Qarun.

Allah, Allah, bu qədü qamətə əhsən, əhsən!
Güli-həmradı bu, ya çöhreyi-gülgun, gülgun.

Nə deyim, gözdü bu, ya nərgisi-şəhla, şəhla?
Qoy görüm qönçədi bu, ya ləbi-meykun, meykun?

Qaşların qövsi-qüzeh, navəki-müjgan, vəh, vəh!
Xali-səbzindir edən Adəmi əfsun, əfsun.

Həlqeyi-lə’ldi, ya sibi-zənəx, ya çəhi-çəh,
Dürri-dəndandı bu, ya lö’löi-məknun, məknun.

Türreyi-zülfünə əl vurma, xətadır, hey-hey,
Həlqeyi-damdır, ey aşiqi-Məcnun, Məcnun.

Bağrımı xari-sitəm eylədi rövzən, rövzən,
Sinəmi atəşi-ğəm eylədi kanun, kanun.

Rəhm qıl halıma, ey dilbəri-tərsa, tərsa,
Boşla zəncirimi bir, ey büti-mövzun, mövzun.

Müttəsil şamü səba yekkəvü tənha, tənha,
Künci-vəhdətdə qalıb xatiri-məhzun, məhzun.

Yoxdu bir kimsə ilə ülfətü rəbtim, rəbtim,
Söylərəm pərdədə cizlin belə məzmun, məzmun.

Çox da axtarma Nəbatini, keç ondan, keç, keç!
Dini yox, məzhəbi yox, gəbrdi məl’un, məl’un!

* * *

Cumdum genə qəvvas tək dəryayə mən, dəryayə mən,
Qıldım nəzər bir lö'lövü-lalayə mən, lalayə mən.

Sən sanma mən bu bəhrdə hər inci, mirvari gəzim,
Göz dikmişəm bir gövhəri-valayə mən, valayə mən.

Getdim biyaban gəştinə, vurdum təcəlla dəştinə,
Etdim tamaşa Turdə Musayə mən, Musayə mən.

Çıxdım bu ərşin üstünə, baxdım büləndü pəstinə,
Pəs onda nagəh uğradım İsayə mən, İsayə mən.

Saldım təmami-aləmi gözdən, unutdum Adəmi,
Verdim könül bir vahidi-yektayə mən, yektayə mən.

Gəzdim səmavati tamam, hər mənzilə etdim xuram,
Qıldım güzər həm cənnəti-ə'layə mən, ə'layə mən.

Etdim təmaşa güllərin, həm rəngbərəng bülbüllərin,
Saldım nəzər həm mənzəri-hurayə mən, hurayə mən.

Getdi sərimdən əqlü huş, bir guşədə otdum xəmuş,
Düşdüm əcayib məntəri-ixfayə mən, ixfayə mən.

Nə yatmış idim, nə oyaq, nə atlı idim, nə yayaq,
Bir vaxt gördüm gəlmişəm dünyayə mən, dünyayə mən.

Leyli deyib çəkdim aman, qan-yaş töküb etdim fəğan,
Düşdüm genə Məcnun kimi səhrayə mən, səhrayə mən.

Fani olubdur bu bədən, dur tap, Nəbati, bir kəfən,
Bu canı qurban eylədim Leylayə mənə, Leylayə mən.

* * *

Ta ki, oldum aşinə ol rindi-sufirəngə mən,
Badə verdim əqlimi, düşdüm xəyali-bəngə mən.

Tutmuyum vəhşi kimi səhradə məskən, neyləyim,
Aşiqəm bir dilbəri-əyyarü şuxü şəngə mən.

Bundan öncə hər cəfa qıldın – təhəmmül eylədim,
İndi rəhm et, gəlmişəm hicran əlindən təngə mən.

Rəhm qıl, insafə gəl, ahım şərarından saqın,
Tutiya tək nərm olur, salsam nəfəs, gər, səngə mən.

Satmışam mən baği-rizvani, Nəbati, bir cövə,
Bu cahan mülkün sərasər almanam bir dangə mən.

* * *

Görüm ey şux, səni xürrəmü xəndan olasan,
Qönçə gültək açılıb, zibi-gülüstan olasan.

Geyəsən əyninə hər həftədə bir dəst libas,
Bərq urub aləmə bir mehri-dirəxşan olasan.

Tirmə başında, ayağında firəngi başmaq,
Sona kəklik kimi hər yanə xuraman olasan.

Vəsmə qaşında, gözün sürmədə, zülfün üzdə,
Hər tərəfdən tökülə sünbülü reyhan olasan.

Olmaya şəngü qəşənglikdə də bir tay sənə,
Hamı dilbərlərə sən sərvəri-xuban olasan.

Nə qədər var isə ömrün gəzəsən məstanə,
Bu cahan bağına bir sərvi-xuraman olasan.

Həq-taala səni, ey gül, eləsin bir də cavan,
Genə ondördcə yaşında məhi-taban olasan.

Üz gətirsin sənə dövlət belə dərya-dərya!
Hər nə dövlətli ola, sən olara xan olasan.

Qonşuya getməyəsən hacət üçün bir zadə,
Sən oları gətirib qapına, sultan olasan.

Gənci-Qarun kimi sən cəm edəsən simü zəri,
Sahibi-məmləkətü xösrövü xaqan olasan.

Bir dua qıldı Nəbati, onu mövlayə burax,
Ta onun sineyi-suzanına dərman olasan.

* * *

Möhrüm əlimdə var şəhi-sahib-bəratdən,
Bax bir nəzər ki, had ola könlüm həyatdən.

Mövla yolunda tutiyə şəkkər əsirgəmə,
Allam əgər gətirməli olsan Heratdən.

Kəşkulümü nəbatilə doldur ki, ta deyim,
Boş olmasın məzaqü dəmağın nəbatdən.

Tanrı sənə nəsib eləsin abi-kövsəri,
O bir sudur ki, ölməz içən ol qənatdən.

Məcnuni-binəvanı ayaq üstə saxlama,
Bu şahi-eşqbazı xilas eylə matdən.

Ta ölməyincə, fikr edəsən, əl çəkim, gedim,
Tari bilir ki, yoxdu hərasım məmatdən.

Aləm bilir ki, mən yeyirəm müttəssil nəbat,
Əl çəkmişəm o sən yeyən abü nəbatdən.

İmanü küfrdən dəxi, mən olmuşam bəri,
Mən keçmişəm pərəstişi-Latü Mənatdən.

Məcnun deyillə adıma, amma Nəbatiyəm,
Daim işimdi, kam alıram mən nəbatdən.

* * *

Sinəmi çak qılan çaki-giribanındır,
Bağrımı parə qılan xəncəri-müjganındır.

Çeşmi-məstindi məni kuhi-biyabanə salan,
Dağ edən cismimi ol qəmzeyi-fəttanındır.

Dərdi-hicranə dəva yoxdu, məgər badeyi-nab
İç bu qan olmuşu kim, yaxşıca dərmanındır!

Çarə yox, aşiqi-zarın dönə bilməz səndən,
Kəsəsən başın əgər qoç kimi qurbanındır.

Saqiya, gəldi genə işrəti-əyyami-bahar,
Meyli-gülgunu gətir dövrə ki, dövranındır.

Dürdi-safi nə bilir lə'li-ləbin sərməsti,
Dur gətir kim, içərəm, meylim əgər qanındır.

İstəməz əyninə Məcnun geyə gülrəng qəba,
Qoy desinlər ki, sənin aşiqi-üryanındır.

Zahidin başına kül, talib olur rizvanə,
Gün bu gün, Tari bilir, deyrdə rəhbanındır.

Verdiyim ismi-əzimi məni-divanəyə ver,
Lə'nəti qoy adımı, fərz elə şeytanındır.

Bir üzük ki, ola hökmündə onun cümlə cahan,
Taxginən div əlinə, söylə Süleymanındır.

Gəl, Nəbati, bir utan, küfr deməkdən bir usan,
Bihəya, şərm elə, bu küfr məgər canındır?

* * *

Mənim bu natəvan könlüm genə fəsli-bahar istər,
Həmişə bülbüli-şeyda kimi bir mürğzar istər.

Gəhi bir gül ayağında düşüb məstanə xab etmək,
Gəhi saqi ayağında şərabi-xoşgüvar istər.

Edib sünbüllərin dəstə, tamaşa eyləyib sərvə,
Gəzib seyr etməyə hərdəm kənari-cuybar istər.

Əlində sağəri-badə, çəkib qümri kimi nalə,
Yanında bir büti-ziba, pərivəş, gülü'zar istər.

Özü gül, kakili sünbül, dəhanı qönçeyi-tazə,
Mələkmənzər, qəmərtəl'ət, siyəh çeşmin xumar istər.

Nə təqsir etmişəm, bilməm, neçün ol xösrövi-xuban,
Məni-biçarəni daim pərişan-ruzigar istər?

Xəcalətdən görüm qurtarmasın hərgiz bu aləmdə
Ki, hər kim aşiqi bir xəstə tək xəlq içrə zar istər!

Məlamətdən başı ayrılmasın, daim məlul olsun,
Məni əmsalü əqran içrə hər kim şərmsar istər!

Nəbati bilmərəm, yarəb, nə halət hasil etmiş kim,
Özün bu əhli-dünyadən həmişə bərkənar istər?!

* * *

Mənim bu təb'i-məcnunim genə bəzmi-şərab istər,
Əlimdə sağəri-zərrin, gözüm məxmuri-xab istər.

Rəfiqim bir büti-ziba, ənisim sağəri-səhba,
Əsasi-eyş pabərca, könül çəngü rübab istər.

Gəhi mütrib nəvasından fərəh bulsun dili-zarım,
Gəhi saqi əyağından ləbim şəhdi-müzab istər.

Bahar olcaq, müsəlmanlar, mənim bu gərdişi-könlüm
Özün meyxanə küncündə yıxıb məstü xərab istər.

Sənəmlər səcdəsi qılmaq Nəbati pişəsi olmuş,
Özün bütlər ayağında təkəllüfsüz türab istər.

* * *

Meydə nə lütf, ey pəri, nəş'ə odur ki, səndə var,
Abi-həyat ləzzəti ləblərini əməndə var.

Etmə nəzarə sünbülə, sal yerə müşkü ənbəri,
Tabü təravət istəsən, zülfi-şikən-şikəndə var!

Qönçə nədir ki, mən ona nisbət edim dəhanına,
Əhməri-gül-üzün kimi lalə nə, hər çəməndə var.

Qəddini sərvə oxşadan əhməqi gör, kəmalə bax,
Sərvdə böylə xoş yeriş, ya belə işvə, xəndə var?

Qəm yemə çox da, ey cünun, yoxdu nəziri dilbərin,
Bu deyilən nişanələr, hamısı Gəzgəzində var.

Qılma nəzər zümürrüdə, qədri nədir zəbərcədin,
İncə, sədəf dişin kimi lə'l nə hər dəhəndə var!

Hansı gülün şəbahətin etmək olur cəmalına?
Harda bu tövr ab-rəng, susənü nəstərəndə var?

Navəki-çeşmi-məstini etmə driğ bəndədən,
Şuri-şərabi-eşqə bax, naləni gör ki, məndə var!

Sən mənə ruhi-tazəsən, göydə Məsihi neylərəm?
Billah, onun kəraməti sən kimi gülbədəndə var!

Çox da uduzma əqlini, qənd deyil, şəkər deyil,
Mən deyirəm ki, ol gülün, halına bax, özündə var!

Aşiq olan dözər məgər mən bu sözü desəm ona,
Kim, nə əcəb nəzakəti ol sənəmin çəmində var.

Kim nə bilir ki, Azəri saldı nə halə eşq odu?
Olsa xəbər bu qissədən, eşq oduna düşəndə var!

Eşq sözün nə anlasın çöldə gəzən o lənglər,
Yüz min əcib güftüku bu özünü biləndə var.

Məndə hanı o eşq kim, bülbüli xarə yalvarım,
Təşneyi-zövqi-ətri-gül seyrə çıxıb dərəndə var!

Badi-şimal, saqiya, getdi bu dəm bəhardən,
Dur ki, səfa bu fəsldə məst oluban düşəndə var.

Alma qulağa vaizin pəndini, etmə ictinab,
Qüvvəti-ruhü cismü can mütribi-xoşsuxəndə var.

Çareyi-dərdü qəm bu dəm gərdişi-cami-meydədir,
Sən biləsən nə ləzzəti bir neçə cam içəndə var!

Çəkdi sözün nəhayəti bir yerə kim, yetişməz əl,
Hanı dilim deyim, bu mey cami-Əbulhəsəndə var.

Gövhəri-taci-"innəma", sərvi-riyazi-"Həl'əta",
Xətmi-Rəsul Əhmədin göydə yolun kəsəndə var.

Rəzm günündə düşmənin həddi nədir davam edə,
Heybəti-şəkli-əjdəha tiği-düsər dəmində var.

Sanma Nəbati hər kəsə üz tutub, iltica edə,
Tari bilir ki, gözləri bircə onun gözündə var.

* * *

Eylə məstəm bilməzəm kim, mey nədir, mina nədir!
Gül nədir, bülbül nədir, sünbül nədir, səhra nədir!

Od tutub canım sərasər yandı, amma bilmədim
Dil nədir, dilbər nədir, başımda bu sevda nədir?

Bilmədim ömrümdə heç bir küfrü iyman hansıdır,
Əhmədi-Məhmud kimdir, Musiyü İsa nədir?

Şahbazi-övci-vəhdət, vahidü həyyü qədim,
Xaliqi-ərzü səma ol fərdü bihəmta nədir?

Sədri-eyvani-cəlalət, şəm'i-bəzmi-kainat,
Afitabi-ərşi-izzət "lafəta illa" nədir!

Türrəhatı qoy kənarə, rəqsə gəl divanəvar,
Gəl, xərabat içrə gör bu şurişü qovğa nədir!

Dürdi-safi gözləmək vaxtı deyil, saqi, aman!
Şişə ver, peymanə ver, sağər nədir, səhba nədir!

Dur, gözün qurbanıyam, məstanə gəl, rindanə ver,
Çox demə Cəmşiddən, İsgəndərü Dara nədir!

Lövhəşəllah, kimdi bilməm, eşq divanın yazan,
Aşiqü mə'şuq kimdir, Vamiqü Əzra nədir!

Şahidi-xəlvətnişinim etdi rüxsarın əyan,
Aşiqi-divanə, gəl gör zahirü ixfa nədir!

Yetdi ömrün axirə, sən bir, Nəbati, bilmədin,
Kimdi bu gözdən baxan, ya dildə bu guya nədir?

* * *

Nə şahü nə gədayəm, nə yesir, başımda halət var,
Nə qəmlə aşinayəm, nə fəna bəzmimdə rahət var.

Könül, amma məhəbbət bəhrinə min gəz səfər vardı,
Bilir təb'i-vücudimdə səri-eşqə məhəbbət var.

Əgər Şirin üçün dağ dəldi derlərsə Fərhadə,
Vəli, hər gündə min dağdələr Fərhadə nisbət var.

Nəbati mey içər, məhbub sevər derlərsə, gerçəkdir,
Kəmal əhli gözəl sevməkdə bir başqa həlavət var.

* * *

Bilsəm əgər xoş gəlir ol güli-xəndanə rəqs,
Tari bilir, eylərəm mən necə məstanə rəqs.

Həddi nədir mütribin rast qıla qəddini,
Orda ki, istər edə aşiqi-divanə rəqs.

Pərdə üzündən əgər salsa mənim dilbərim,
Ariz olur ərşdə mehri-dirəxşanə rəqs.

Kimdi bu şirinsüxən bülbüli-xoşdastan,
Zümzüməsindən düşüb səhni-gülüstanə rəqs.

Ol büti-mövzun əgər, əzmi-gülüstan edə,
Nəxli-qədindən düşər, sərvi-xuramanə rəqs.

Nami-xuda, mərhəba, arizi-tabanə bax,
Şə'şəəsindən düşüb şəm'i-şəbistanə rəqs.

Harda qalıbdır genə saqiyi-gülpirəhən,
Ta sala bir cam ilə həlqeyi-rindanə rəqs.

Gərm elə həngaməni, gəl genə bir gərdişə,
Ta eləsin dəmbədəm sağərü peymanə rəqs.

Hümməti-piri-müğan hər kimə yar oldu, ol
Düşdü xərabat əra, eylədi mərdanə rəqs.

Saqi, bu əldən əgər versə şərab, et yəqin,
Məst olu, meydən edər aqilü fərzanə rəqs.

Sövti-neyü naydən, aləm olub pürsəda,
Naleyi-dəfdən gəlib mütribi-xoşxanə rəqs.

Təl'əti-Leyli əyan oldu genə dağdən,
Gülğüli-Məcnun verib şiri-biyabanə rəqs.

Dağyaran oğlan hanı, noldu o Fərhadi-div,
Tişə səsindən düşə günbədi-gərdanə rəqs.

Etsə Nəbati əgər şövq ilə bir cür'ə nuş,
Şurü nəvadən salar ərseyi-dövranə rəqs.

* * *

Ta ki, bünyad eylərəm rüxsari-canandan hədis,
Eylə bil kim, eylərəm gülzari-rizvandan hədis.

Tutduğu işdən pəşiman oldu, çəkdi ahi-sərd,
Eylədim çün Xizrə ta ol lə'li-xəndandan hədis.

Ey sirişki-laləgun, amadə ol, gəl kim, edər
Xameyi-müşkinrəqəm zülfi-pərişandan hədis.

Durma, ey peyki-səba, uşşaqı ehzar et tamam,
Ta edəm mən dərdi-eşqə zövqi-dərmandan hədis.

Qoy qədəm meydani-eşqə cəhd qıl, mərdanə var,
Başını ortaya sal, et kuyi-çovgandan hədis.

"Ürvətül-vüsqa" ki, derlər tari-zülfi-yar imiş,
Tut bu möhkəm riştəni, et gənci-pünhandan hədis.

Qafil olma naleyi-şəbgirü ahi-sübhdən,
Vasil ol dildarə, az et şami-hicrandan hədis.

Mən ki meydən küsmüşəm, əfv eyləsin saqi məni,
Küfrdir gər bir də etsəm rahi-reyhandan hədis.

Cummuşam dəryayi-eşqə qutəvər qəvvas tək,
Çəkmişəm dəm, eylərəm bir dürri-qəltandan hədis.

Pərtövi-ənvari-hüsnün görsə zahid, həqq bilir,
Tərk edər firdövsi, etməz hurü qılmandan hədis.

Nöqteyi-xalın xəyalı lal edibdir nitqimi,
Kim nə təqrir ilə qılsın cövhəri-candan hədis.

Eşq bazarında ancaq hüsni-güftar istərəm,
Təb'i-gövhərbarım eylər mahi-Kən'andan hədis.

Bəs ki, xugər olmuşam məhrulərin güftarinə,
Ləhzə-ləhzə eylərəm xurşidi-rəxşandan hədis.

Bir pəri-peykər nigarın vəsfini şərh eylərəm,
Etmənəm mən özgələr tək xanü sultanım hədis.

Ey dəbiri-nüktəpərvər, tutiyi-şirin zəban,
Dəmbədəm “hu-hu” çəkib, et Sədri-dövrandan hədis.

Hadiyi-rahi-həqiqət, mürşüdi-sahibnəzər,
Nöqteyi-pərgari-aləm, bəhri-ürfandan hədis.

Xosrovü Şirinü Fərhadi Nizamidən soruş,
Kim, Nəbati daim eylər, şahi-mərdandan hədis.

* * *

Mənə dilbər, o könül mülkünə sultanım bəs,
Dinü dil verməyə ol qarəti-imanım bəs.

Aşiqi-sadiq üçün məhzəri-şahid nə gərək?
Mənə isbati-cünun bu səri-üryanım bəs.

Nə işim vardı mənim seyri-gülüstanə gedim?
Seyri-gülşən mənə bu xəlvəti-viranım bəs.

Neylərəm sirrimi hər nakəsə izhar eləyim?
Mənə qəmi yar, rəfiqim dili-suzanım bəs.

Huri-cənnət ola, mən istəmərəm yar özümə,
Mənə yar olsa əgər ol güli-xəndanım bəs.

Çox da tə'rif eləmə bağı-behişti, zahid,
Ki, onun kuyi, mənim rövzeyi-rizvanım bəs.

Bülbülü tütiyü qümru sənə ərzani ola,
Ey Nəbati, mənə bu təb'i-süxəndanım bəs.

* * *

Vəh, nə göyçək yazılıb səfheyi-rüxsanə bu xət!
Görsə, billah, gətirər kafəri iqrarə bu xət.

İstəsən, hazır edər hər kimi ol saətdə,
Deyəsən nəqş olunub məntəri-əhzarə bu xət.

Elə bil qövsi-qüzehdir çəkilib çərx üzrə,
Gör nə rəngin yaraşır arizi-gülnarə bu xət!

Allah, Allah, yeri təhsin elə ol nəqqaşə,
Yoxdu imkanı gələ gərdişi-pərkarə bu xət.

Sehrdir bu görəsən, yoxsa ki, Mani işidir,
Çoxların eyləyəcək mən kimi avarə bu xət.

Nöqteyi-xali-siyahın məni girdabə salıb,
Nə olur dərdimə bir də edə bir çarə bu xət?

Dağ vurub lalə kimi bağrıma xoşdur, amma
Çox fəqirin gününü eyləyəcək qarə bu xət.

Ey Nəbati, nə qədər var isə ömrün, xət yaz,
Aqibət bir gün olur kim, gəli bir karə bu xət.

* * *

Şükr, xuda ki, etdi yar şad fikar könlümü,
Bir güli-tazə göndərib, etdi bahar könlümü.

Kövkəbi-bəxti-sə'ddən dəxi şikayət eyləmən,
Gün kimi rövşən eylədi tirəvü tar könlümü.

Şahnişin çeşmimi mənzili-xas edər sənə,
Gər edə nəqşi-surətin dari-qərar könlümü.

Tə'bin edərsə gər həvəs seyrü şikarə, çox gözəl,
Cəhd qıl, eylə bir əməl, al bu təvar könlümü.

Qəsdi-təvafi-Kə'bədən kimsəni mən' qılmanam,
Sən o məkanə getmə, gəl gəz bu nəzar könlümü.

Qoyma hücumi-xeyli-qəm mülki-dili xərab edə,
Canə yetirdi, saqi can, rənci-xumar könlümü!

Bir deməmiş ayağə dur, yoxsa kinayə bilmisən,
Sağəri-zərnigarı qap, gör bu yanar könlümü!

Tüngi-şəkər dəhanının yadına bir piyalə vur,
Yox demə kim, bu söz mənim eylədi dar könlümü.

Həlqeyi-zülfi xəmbəxəm sehrü füsunə müntəzəm,
Mən ki, əvami-sirfəm, ux, çaldı bu mar könlümü!

Daneyi-xalü dami-mu ta eləsin nə "hay-hu",
Bazi-sifid tək gözün etdi şikar könlümü.

Mən dəli olmadım əbəs, əhli-cahan, haray-haray!
Əqlim apardı sinəsi, aldı bu nar könlümü.

Tari bilir ki, mürdəni zində qılar Məsih tək,
Gər o rəqibə rubəru bir ala yar könlümü.

Fitnə qaşı təvəhhümü qəddimi yayə döndərib,
Məskəni cuğdü bum edib şe'r şüar könlümü.

Başım ağardı, nafə tək qanımı müşk qılmadı,
Gör, yeri var ki, danlayam mən bu tatar könlümü.

Bağrımı tiri-qəmzədən eylədi arı şan tək,
Gər deyəsən xilafıdır, gəl bicə yar könlümü!

Qönçə ləbin təfəkkürü qəlbimi gülsitan edib,
Gəl bu xəyaldan mənim etmə kənar könlümü.

Yarə nə göndərim – deyib qaldı Nəbati müztərib,
Tutiyi-can zəban açıb söylədi: zar könlümü.

* * *

Ey bivəfa, gətirmə çox əfğanə könlümü,
Yandırma bunca atəşi-hicranə könlümü!

Bir dəm götür o məh kimi rüxsardən niqab,
Ey səngdil, yetirmə belə canə könlümü!

Bir cür'ə meydən ötrü məni etmə dilkəbab,
Döndərmə, saqi can, bu qədər qanə könlümü!

Qıl lövhi-sinəmi hədəfi-navəki-bəla,
Bir şad qıl bəlalərə həmxanə könlümü!

Ver badə, məst qıl, sal özün xüm əyağına,
Dəşti-cününə salma bu divanə könlümü!

Ey dilbəri-sitəmgərü, vey yari-tündxu,
Saldın əcəb çahi-zənəxdanə könlümü!

Dövri-rüxündə həlqə vuran zülfi-xəmbəxəm,
Oldur çəkən kəmənd ilə zindanə könlümü.

Rəhm eylə bir bu gözdən axan qanlı yaşıma,
Bir et nişan o navəki-müjganə könlümü!

Bu mürği-dil ki, daneyi-xalın əsiridir,
Qalmış yuva o zülfi-pərişanə könlümü.

Cəllad gözlərin susayıb yaxşı qanıma,
İstər ki, qəmzədən edə viranə könlümü!

Bilməm mənə nə sehr oxudu məst gözlərin,
Məcnun kimi tutuşdu biyabanə, könlümü.

Sən'anə yar qıldı məni zülfi-pürxəmin,
Nəqşi-üzarın etdi sənəmxanə könlümü.

Heyran olan cəmalına güldən nə kam alır,
Bica aparma seyri-gülüstanə könlümü!

Bir gül'üzarə aşiq olub, salmışam əcəb
Pərvanə tək bir atəşi-suzanə könlümü.

Hicrin axıtdı bəs ki, gözümdən sirişgi-al,
Qorxum budur ki, qərq edə tufanə könlümü.

İş bitməz oldu zöhdü riyadən, Nəbatiya,
Cami-tərəbdən eyləmə biganə könlümü.

* * *

Sənsiz, ey gül, könlümün bir dəm qərarı yoxdu, yox!
Səndən özgə neyləsin, bir qəmküsarı yoxdu, yox!

Dərdi-hicrin çarəsin hərçənd bildim səbr imiş,
Neyləyim, billah, bu dəryanın kənarı yoxdu, yox!

Leyli! Leyli! – söyləyib çoxlar deyir kim, aşiqəm,
Leyk Məcnun tək onun bir dağdarı yoxdu, yox!

Hər xəzanın bir baharı onsuz olmaz, olmasın,
Bu çöl olmuş gülsitanın bir baharı yoxdu, yox!

Gülləri, bülbülləri, abü havası çox gözəl,
Heyf kim, bu gülşənin bir gül'üzarı yoxdu, yox!

Hiç eybin yox, gözəllik hamı səndə cəm'dir,
Neyləyim amma ki, əhdin e'tibarı yoxdu, yox!

Sən nə bəslərsən bu tərlanı, Nəbati, ruzü şəb?
Mən bu dağı çox dolandım, bir şikarı yoxdu, yox!

* * *

Məstəbeyi-eşqdə badeyi-minayə bax!
Saqiyi-gülrəngi gör, sağərü səhbayə bax!

Həlqeyi-rindanə gəl, deyri-müğan seyrin et,
Əhli-xərabat ərə, mö'minü tərsayə bax!

Zövqi-meyi-eşqdən cuşə gəlib şir tək,
Hey-heyi-məstanı gör, şurişü qovğayə bax!

Şə'şəeyi-badədən şəms olub münfəil,
Ləm'eyi-cami-bülur halə vurub ayə, bax!

Nəğmeyi-çəngü rübab, şahidü şəm'ü şərab,
Həmhəmeyi-sazı gör, zümzümeyi-nayə bax!

Bülbüli-təb'im genə özgə nəva başlayıb,
Der ki, gül olmuş xəzan bu xəbəri-vayə bax!

Qəm yemə, şad ol, könül, olma bu sözdən məlul,
Səbr elə, sən bir zaman qüdrəti-mövlayə bax!

Əmrinə müşkil deyil kim, edə piri cəvan,
Eylə, gözüm, e'tiqad bircə Züleyxayə bax!

Çəkdi sözün riştəsi, bir büti-Leyli-xüram,
Saldı məni çöllərə, ah, bu səhrayə bax!

Ey, səni Tari, genə etmə pərişan məni,
Bir də mənə söyləmə zülfi-çəlipayə bax!

Hiçü əbəs könlümü etdi bu sözlər təbah,
Axir olub hasilim qəm yükü, sevdayə bax!

İncimə, dur, çal qələm, mən sənə qurban olum!
Qoyma sözü natamam, tə'neyi-ə'dayə bax!

Yoxsa yoruldun məgər, hardasan, ey kahilə,
Məscidi-Əqsadı bu, ərşi-müəllayə bax.

Qorxma, deyil əjdaha, billah, əsadır, əsa,
Museyi-İmran kimi sən yədi-beyzayə bax!

Bərq-sifət qıl güzər, cümlə hicabatdən
Fövqi-Sürəyyayə çıx, mənzəri-ə’layə bax.

Şahi-ərəb Lafəta versə muradım əgər,
Nəzmi-dürərbarı gör, gövhəri-inşayə bax!

Külbeyi-əhzanımız oldu münəvvər genə.
Aç gözün, ey binəva, yari-məhasayə bax.

Zülfi-şikən dər-şikən, türreyi-pür piç-piç,
Navəki-müjganı bir gözlə, o şüx yayə bax.

Çox da sözü aşikar etmə, danış pərdədə,
Səndə həya yox məgər? Aşiqi-rüsvayə bax?!

Nöqteyi-xalın genə saldı məni heyrətə,
Məndə dəxi nitq yox, kilki-şəkərxayə bax.

Tairi-fikrim genə həmpəri-Simürğ olub,
Seyr qılır Qafdə bəççeyi-ənqayə bax.

Dağlara sal “hay-huy”, səslə, de Məcnun, haray!
Aşiqi-divanə, gəl, hövdəci-Leylayə bax.

Canı nisar etməyə yarə Nəbati fəqir,
İndi bu qəmxanədə ha şəbi-yəldayə bax.

* * *

Ey könül, etmə şurü qovğa hiç!
Çəkmə bihudə rənci-sevda hiç!

Bivəfa ömrə e'tibar etmə,
Olma aludə fikrə əsla, hiç!

Xak olur aqibət fəqirü qəni,
Hasili-malü mülki-dünya hiç!

Arif ol, arif, olma zahidi-xüşk,
İxtiyar etmə zöhdü təqva hiç!

Mübtəla olma nəş'eyi-bəngə,
Meyi-gülfam, cami-mina hiç!

Hümmət et, olginən yəqin əhli,
Küfrü din bəhsi etmə, qət'a, hiç!

Ey Nəbati, səninlə həqdir yar,
Qəm yemə, aləm olsa ə'da, hiç!

* * *

Ah, bilməm ki, neçün bizdən genə yar incimiş,
Boy ayaq altında qalmış, sanki şahmar incimiş.

Bənd edib tərfi-bənaguşunda müşkin zülflərin,
Yoxsa bad əsmiş, dağılmış lalə rüxsar incimiş.

Qoymadın bir dəm baxım ol çeşmi-məstin dövrünə,
Biz nə qıldıq ta ki, bizdən çeşmi-dildar incimiş?!

Hardasan, ey binəva Məcnun, eşit avazımı,
Gəl dəxi bəsdir ki, səndən dəştü kühsar incimiş.

Künci-xəlvətdən ayaq dışqarı basma bir də sən,
Qoy gülü əldən ki, səndən səhni-gülzar incimiş.

Tərki-ümmid et təmami-aşinavü dustdən,
Bil yəqin vazeh ki, səndən yarü əğyar incimiş.

Bu nə məzhəbdir, nə ayin, ey Nəbati, bir utan,
Sən nə kafərsən ki, səndən cümlə küffar incimiş?!

* * *

“Səqahüm rəbbühüm cami” məni sərməsti yar etmiş,
Bu viran könlümü gəl gör necə rəşki-bahar etmiş.

Süxən saz eylərəm gəh-gəh Nizami kimi Xosrovdan,
İrəm bağında bir laçın nə xoş Şirin şikar etmiş!

Məni aləmlərə faş eylədi o saniyi-Leyli,
Məni ol dilbəri-şirinsüxən Məcnuni-yar etmiş.

Mürüvvətdi, aman, yarəb, səbəb noldu ki, bu gərdun
Məni ol dilbəri-məstin gözündə böylə xar etmiş?!

Gətir, saqi, meyi-rəngin, məni azad qıl qəmdən,
Bu gün piri-müğan bu külbəni darül-qərar etmiş.

Edib tərhi-binayi-bəzmi-işrət bu xərab evdə,
Məni-biçarəni məsti-şərabi-xoşgüvar etmiş.

Mən indi eşqdən laf urmanam, ol xosrovi-xuban,
Məni ruzi-əzəldən aşiqi ol gül’üzar etmiş.

Əgər ki, aşiqə cövr eyləmək mə’şuqə adətdir,
Məni ol nazənin dilbər əcayib dağidar etmiş.

Dəvayi-dərdi-hicran səbr imiş, etdim yəqin, amma
Nəbatinin şikənci-tari-zülfi biqərar etmiş.

# Qəsidələr

Bircə bax gör açılıb o güli-həmra, həmra,
Ki, belə valeh olub bülbüli-şeyda, şeyda.

Mərhəba arizi-gülərəng, budur baği-behişt!
Nə əcəb sərvədi bu ya qədi-rə’na, rə’na.

Türki-xunrizdir, ol çeşmi-siyəhdən həzər et
Kim edər dinü dilü məzhəbi yəğma, yəğma.

Verdi can, aldı könül türreyi-zülfündə məqam,
Həmdülillah, birə min tutdu bu sövda, sövda.

Daneyi-xaldı bu, ya vətəni qümrüyi-dil,
Taqi-əbrudu bu, ya mənzəri-ə’la, ə’la?

Cəbheyi-mehri-müşə’şədi bu ya nuri-xuda,
Şəcəri-Turdu bu ya yədi-beyza, beyza?

Nisbəti yox pəriyə Gəzgəzin, Allah bilir,
Mələkin həddi nədi, huridi, hura, hura!

Müjə səf-səf çəkilib hər biri bir tir atır,
Cö’di-müşkindi bu ya ənbəri-sara, sara?

Mənə bu nəş’eyi-sərşardə saqi odur, o!
Ney kimi məndə nə var? Bir quru qovğa, qovğa.

Biri səhbadan olub məst, biri minadən,
Məni divanə qılıb bir gözü şəhla, şəhla.

Küfrdür qafiyədə bir sözü təkrar demək,
Mən mükərrər deyirəm: dur gəti mina, mina,

Saqi, adinə dolandı şəbi-məstan gəldi,
Dövrə gəlməzmi nədən sağəri-səhba, səhba.

Bilmərəm səc'i nədir, qafiyəni anlamanam,
Ey, qaradağlıyam, ver mənə xurma, xurma.

"Möhtərəm oğlu" deyirlər mənə, adım Məcnun,
Bir adım Xançobanı, bir bığı burma, burma.

Nə qələndərdi, nə dərviş, nə natiqdi, nə lal,
"Ma ərəfnak" ki deyirlər, budu həqqa, həqqa.

Bacı qardaşı deməz, ata-anasın bilməz,
Deginən bir ayı ya, bir dədi-səhra, səhra.

Tərk edib yarü rəfiqi, çəkilib pünhanə,
Gecə-gündüz oturub vahidü tənha, tənha!

Sənə qurban olum, ey Xızra verən abi-həyat,
Guşeyi-çeşmlə bir bax mənə, şaha, şaha!

Lütf qıl könlünü bir şad elə bu bərhəminin,
Gəl bu viranəyə bir ey bütü tərsa, tərsa.

Haqq bilir virdi-zəbanım gecə-gündüz sənsən,
Səndən özgə mənə mövla ola haşa, haşa!

Qənbərə çakər olan Qeysərə baş endirməz,
Nəçidir mehtər ola Düldülə Dara, Dara?

Tutiyi-nitqin edib ismi-əzimi əzbər,
Gah edər zikri cəli, gah edər ixfa, ixfa.

Zahid, əl çək, səni tari, yeri get, dəng etmə,
Sənə Allah gərəkdir, mənə mövla, mövla!

İçərəm qanını qəndab kimi, vallahi,
Tökərəm cəmdəyini itlərə şılta, şılta!

Bilmirəm harda idim, hansı çəmən seyrində,
Gəldilər xatirimə Vamiqü Əzra, Əzra.

Hədəfi-tiri-məlamətdi həqiqət Feyzi,
Heç salır gör məni bir yadına əsla, əsla!

Feyzi, tap yoldaşını hayla de molla Dadaşa,
Ey beli tirməli oğlan, donu xara, xara.

Nə təpirsən bu qədər çitü qədək dükkanə?
Ver dəyər-dəyməzə, al ətləsi-kimxa, kimxa.

Başını yırğala, bir silkələ balü pərini,
Həmlə qıl şir kimi, yuzi tək ovla, ovla.

Pırsıma kilkə toyuq tək, gözünü lap-lap aç,
Rəng çək, xalqı bütün hamını tovla, tovla.

Bəndi-rumi yerinə piçü xəmi zülf kimi,
Dörd tərəf yağı yatağı, şəbi-yəlda, yəlda.

Eşşəyi bizlə görək, sür yetişək yoldaşə,
Yatma, həmmam deyil, çöldü bu, molla, molla!

Qınama çox da onu əsli qaradağlıdır,
Gördü ənciri, dedi: hay budu alma, alma.

Məst qıldın məni, sərriştə əlimdən getdi,
Deyər idim qılaram indii nə inşa, inşa.

Həqdi Məcnuna qılam tə'nə, vəli, insafən,
Onu divanə qılan həqdi, nə Leyla, Leyla.

Ey minən Rəf-Rəfi, cövlan eləyən göylərdə,
Qabi-qövseynə yetən leyleyi-əsra, əsra.

Bisütun dağına get, ordadı Şirin, Şirin,
Üştibin bağına gəl burdadı Səlma, Səlma.

Orda bax qüdrəti-eşqi hünəri-Fərhadə,
Burda gör nəqşü nigari-güli-diba, diba.

İsmi-səlma deyilən yerdə gərək Tur olsun,
Bilmədim, əfv elə təqsirimi, yara, yara!

Düşmüşəm süd gölünə ey necə xamuş olanı,
Kəs dilin, yarə yet, ey aşiqi-risva, risva!

Sənə qurban demişəm ruzi-əzəl bu canı,
Gəl dönüm başına, ey dilbəri-ziba, ziba.

Nə bilərdim ki, pənir hansıdı, ya mast nədir,
Eylədin sən məni bir arifi-dana, dana.

Hafizin ruhuna ixlas ilə bir fatihə ver,
Çərx vur, dövrə gəl, ey bəççeyi-ənqa, ənqa.

Tutiyi-baği-cinan, bülbüli-şaxi-Şiraz,
Xaceyi-Şəms-ləğəb, şairi-ğərra, ğərra.

Etdi pamal məni möhnəti-əyyami-fəraq,
Qalmadı tabü təvanım dəxi ağa, ağa!

Qoyma bu qulzümi-qəmdə məni, ey dürri-yətim,
Sən də bir yol vecə gəl, ey şəhi-vala, vala.

Rövzeyi-sərvəri-din şahi-Xorasanə baxın,
Çərxi-ətləsdi bu ya günbədi-Xizra, Xizra.

Neçə qəndili-bülurü neçə şəm'i-pürnur,
Sanasan gündü çıxıb, ya məhi qumra, qumra.

Çil-çırağın nə deyim yoxsa təcəlla budu, bu
Nəxli-iməndi bu ya atəşi-Sina, Sina?

Gülşəni-səhni-gülüstani-İrəm ya rizvan,
Səqfi-eyvani-təla, aləmi-bala, bala.

Bir də ol rövzə təvafi mənə gər olsa nəsib,
Çeşmi-tərdən edərəm mən onu dərya, dərya.

Gövhəri-nəzmdi, ya silki-düri-lə'li-xoşab,
Şe'ri-rəngindi bu ya lö'lövü lala, lala.

Hər igid cür'ət edib bəhrdə qəvvas olmaz,
Ey Təhəmtən, gəl aman, Bijəni hovla, hovla!

Düşməsin başıma qoy zilli-hüma, istəmirəm,
Saqi olsun gülüm ol sərvi-dilara ara.

Şükr, səd şükr ki, səbz oldu muradım nəxli,
Eylədi pir məni gör necə bürna, bürna!

Hər tərəf cuşə gəlib sünbülü reyhan kimi xətt,
Deyəsən xürrəm olub tudeyi-ğərra, ğərra.

Güli-həmra, güli-rə'na, güli-suri, güli-nar,
Susənü nəstərənü zənbəqü lala, lala.

Böylə gül yasəmənü qönçeyi-tərdən nə çıxar?
Pirə bax, bir danışır gör necə bərra, bərra!

Cür'ətim yox ki, edim adını izharü bəyan,
Xaceyi-Xizr-nəzər, mürşüdi-bina, bina.

Sədri-afaq zəvilməsnədi-bəzmi-xaqan,
Bədri-xərqahı-şəhənşahi-Skəndər, Dara.

Piri-İsa-dəmü Musa-kəfü Davud-hünər,
Şahi-Cəmcahü qədər qüdrətü şana, şana.

Şahi-Key-təl'ətü Vüz-qamətü Bürzü bazu,
Piri-xoştinətü xoşfitrətü Asəf-asa.

Piri-gülrəngü giransənkü cəlilül-nəhmə,
Şahi-mehrəfsərü məhməğfərü Keyvancaca.

Piri-dəryadilü qüdsigilü Şibli-xislət,
Şahi-Tüğruldərü Fərruxfərü Kəsrarara.

Piri-xoşrə'yü nikuxülqü həmidüs-sirə,
Şahi-düşməngüşü xəsməfkənü Bəhmənzaza.

Piri-dilzindəvü şəbxizü ülüvvül-ərkan,
Şahi-Məhmudğəza miri-Süleyman nana.

Məzhəri-zilli-iləh, Xosrovi-xurşidküləh,
Qeysəri-nəcmi-süpəh, həmhuyü huhu haha.

Pakü napakə yetər çünki onun ehsanı,
Xançobani, göyə tut başını yaya-yaya.

Saqiya, dur ki, gəlir rayiheyi-nəfxeyi-sur,
Gör nə xoş dəmdi bu dəm, mən sənə qurban ka, ka!

Bir dua eylə şahənşahi-əzimüş-şə'nə,
Qibleyi-külli-üməm, səlli və va, va, va, va!

Vacib eylə özünə şahi duasın daim,
Müstəmirri yemək asan dəyi, baba, baba.

Ey o kəs kim, səni hər kimsənə bərhəqq bilir,
Çeşmi-bəddən sən özün bu şəhi saxla, saxla.

Yeddi iqlimə ola su kimi əhkamı rəvan,
Behəqi-sərvəri-Yasin, şəhi-Taha, Taha.

Həşmətü şövkəti olsun günü-gündən əfzun,
Cıqqası xəm yeməsin ta dura dünya-dünya.

Nəçidir hatəmi-Tey, hümməti-şahənşəhə bax,
Yayılıb xalqa, bütün aləmə ölka-ölka.

Dolanıb başına, billah, belə şirin zad yox,
Gənci-mövrusu təmam aləmə payla, payla.

Sahibül-əmr özüdür, ya da onun vəziri,
Gəlməyib aləmə, hərgiz, belə adil şa, şa.

Vəh, nə xoş zaddı ki, bir bəndəni Allah sevə!
Nil çək alnına oğlun, xanım ana, ana.

Bilmirəm adını, ey ləmyəlidü ləmyuləd,
Hərə bir ad deyirlər sənə mən "lala, lala".

Rəxti, pəxti yerə qoy, futəni bağla belinə,
Burdadır bəhri-mühiti-düri-yekta, yekta.

Saxla yadında, Nəbati, dedim üç yol lala,
Nə olur, küfr deyil, bir də de illa, illa.

Yoxsa, Şəbdizi-səməkxiz lücamın qoparıb.
Qoydu səhrayə üzün, çatladı heyvan fa, fa?

* * *

Müjdə, ey dil ki, səni görməyə canan gəldi,
Əlini çal ələ, “can-can” sölə ki, can gəldi.

Eşidin, vaqif olun, cümlə, əya xürdü kübar!
Çəkilin, kuçə verin, yanə durun, xan gəldi!

Mərhəba, nami-xuda, qüdrəti-yəzdanə baxın,
Deyəsən Misrə bu gün Yusifi-Kən’an gəldi!

Sındırıb başda küləh, şur salıb dünyayə,
Sünbülü susənə bax, telləri əfşan gəldi.

Verib ayinə kimi arizi-zibayə səfa,
Hüsnü gör, şövkətə bax, mehri-dirəxşan gəldi.

Yaxşı çal daşə külüngü, alagöz Fərhadım,
Geri dön, bir bəri bax, xosrovi-xuban gəldi.

Təxti-tavus kimi zib verib Gülgunə,
Bisütun dağına bir lə’li-Bədəxşan gəldi.

Özü göyçək, sözü şirin, dəhəni qönçeyi-tər,
Zülfü ənbər, boyu ər’ər gözü fəttan gəldi.

Qaşları qövsi-qüzeh, kipriyi ox, incəmiyan,
Xalı filfil, ləbi mül, arizi taban gəldi.

Üzü gül yarpağı tək, sinəsi mərmərdən saf,
Buxağı lö’löi-tər, gövhəri-rəxşan gəldi.

Dişi dürdanə kimi, sibi-zənəxdanına bax,
Ona əl dəymə ki, o aşiqə zindan gəldi.

Aşiq öldürmək üçün qəmzəsi yaği, cəllad,
Nazı çox, işvəsi xoş, püsteyi-xəndan gəldi.

Görəsən bülbüli-miskin niyə xamuş oturub,
Deyin ol qafilə kim, fəsli-gülüstan gəldi.

Dur, gəl, ey aşiqi-biçarə, çırağın yandı,
Qəm yemə, çox da dəxi, dərdinə dərman gəldi.

Açılıb laləvü gül, aləm olub bağı-İrəm,
Səhni-gülzarə əcəb sünbülü reyhan gəldi!

Deginən saqiyə, alsın əlinə cami-şərab,
Genə qan içməyə ol gözləri qan-qan gəldi.

Bilmirəm gündü, münəvvər eləyib dünyanı,
Ya bizim külbəyə ol sərvi-xuraman gəldi?

Harda qalmış, görəsən, ol dəli-divanə Fəzi,
Dur, yüyür, gəl, dediyin afəti-dövran gəldi.

Şulum oğlu nə xəbərdir, dur oyan, aç gözünü,
Bixəbər, bir nəzər et, gör necə insan gəldi!

Həvəsin vardır əgər lə’li-ləbindən öpəsən,
Qorxma, öp, söylə ki, həqdən belə fərman gəldi.

Belə gəldi, belə getdi – demə çoxdur, qaç, gəl,
Adam ol, bir söz eşit, gör odu, Qurban gəldi.

Uçurub qatırı məl’un, odunu çöldə salıb,
Balta çiynində köpək, arxada palan gəldi.

Çox əcəb vaqeədir, xeyrdir, inşaallah,
Budu tə’biri bunun kim, sizə mehman gəldi.

Dediyin pərdədəki gizli sözün tə’biri,
Budu kim, yer üzünə bir əcəb oğlan gəldi.

E’tibar eyləməyin çox da Nəbati sözünə
Ki, əzəldən ona qismət belə həzyan gəldi.

* * *

Aşiqi-divanə, bir zümzümə bünyad qıl,
Xatirimi qüssədən bir nəfəs azad qıl.

Həlqeyi-zənciri bir silkələ, səslən genə,
Eşq ilə bir "hay-hu", şur ilə bir dad qıl.

Müddəti axır bu ev bəzmgəhi-yar idi,
Heyfdi bu mənzili yıxma, gəl abad qıl!

Mahəsəli-məqsədin yar idi məqsud əgər,
Başini bu damdə daneyi-səyyad qıl.

Ruzi-əzəl aşiqə qismət olub xunui-dil,
Bax mənə bir sədrini kureyi-həddad qıl.

Yoxdu bizim sazımız, tari-xoş avazımız,
Tök üzə əşki-rəvan, naləvü fəryad qıl.

Mahi-bəni-həaşim ol həzrəti Abbasdən,
İstə mədəd xaməni tişeyi-Fərhad qıl.

Muğbəçeyi-mütrübün burda yeri yox hənuz,
Ah çəkib dəmdəbəm, növhəvü bidad qıl.

Yetdi nida səm'imə hatifi-lareybdən,
Mətləbin oldu rəva xatirini şad qıl.

Munşiyi-divani-həqq yazdı bu fərmanı kim,
Bu neçə əbyati də dəftərə irad qıl.

Laf vurub eşqdən, adinə aşiq demə,
Ya bu ki, bu rahdə canını fulad qıl.

Bu misi-qəlbi ərit buteyi-iflasdə,
Vur ona iksiri-eşq, qabili-nəqqad qıl.

Nisfi-şəb olduqca dur əl-üzünə ver səfa,
Yatma dəxi, sübhədək şövq ilə övrad qıl.

Ta ki, sənə ram ola hirsi-səgi-nəfsi-dun,
Qəmkədeyi-izlətə təb’ini mö’tad qıl.

Şərbəti-təcriddən başına bir cam çək,
Get özünü daxili-həlqeyi-övtad qıl.

Ta ki, sənə fəth ola qıfli-tilismati-eşq,
Xəlq üzünə qapını şeşdəri-nərrad qıl.

Tuşeyi-rahi-fəna bircə, təvəkküldü bəs,
Su yerinə gözlərin Dəcleyi-Bəğdad qıl.

Əşhəbi-sər-sər xuram gərçi inanın qırıb,
Getmə, dur, ey biədəb, hörməti-ustad qıl.

Şamü səhər müttəsil həm belə ixlas ilə,
Ta nəfəsin var isə ruhun onun şad qıl.

Yar ətəyindən əlin üzmə, budur rahi-eşq,
Gözlə onu, aləmi-tabei münqad qıl.

Vəsvəseyi-Əhriman gər səni gümrah edə,
Xatirini zikrdən cənnəti-Şəddad qıl.

Bir də Nəbati, əgər meyli-səyahət edə,
Başın onun tö’meyi-xəncəri-cəllad qıl.

* * *

Şəhrbəndi-dildə bir sultanı gözlər gözlərim,
Bir şəhi-zərrin kəmər xaqanı gözlər gözlərim.

Qurmuşam dami-həvəs, səyyadi-şahinbaz tək,
Başlayıb xoş nəğmə, bir tərlanı gözlər gözlərim.

Əşhəbi-sərsər-xurami hər tərəfdən səyridib,
Gəlmişəm cövlanə, bir ceyranı gözlər gözlərim.

Nalə bünyad eyləyib, gözdən töküb rüxsarə əşg,
Vamiqi-biçarə tək Əzranı gözlər gözlərim.

Cəzbəsiz aşiq həqiqətdə cəmadi-məhz imiş,
Dəm çəkib, bir cəzbeyi-sübhani gözlər gözlərim.

Bir sitəmgər dilbəri-Leyli-vəşin Məcnuniyəm,
Düşmüşəm səhrayə, bir üryanı gözlər gözlərim.

Afitabi-eşqimi salmış ziyadən qürbi-vəsl,
Mahi-növ tək zülməti-hicranı gözlər gözlərim.

Dürri-guşimdir mənim: “Xeyrül kəlami qəllə dəll”,
Məhv edib siparəni, Qur’anı gözlər gözlərim.

Gah təlavət eylərəm “Səb’ül məsan”, gah “Həl’əta”,
Gah “Yasin”, gah “Ərrəhman”ı gözlər gözlərim.

Qisməti-əhli-səfadir sureyi-”Tövhidi-pak”,
Mən ki, daim badeyi-reyhanı gözlər gözlərim.

Saqiya, bir cür’ə ver şahi-Xorasan eşqinə,
Ruzü şəb ol nayibi-mövlanı gözlər gözlərim.

Ya Əli, ya övliya, ya Bülhəsən, ya Butürab!
Şiri-həqq bir qüdrəti-yəzdanı gözlər gözlərim.

Lafəta, illa, Əli, laseyf, illa, Zülfüqar
Seyheyi-Düldül-fələkcövlanı gözlər gözlərim.

Pərtövi -xurşidi-dərya əks zərrin nə'l mix,
Bədri-növ, ya peykəri-Cövzanı gözlər gözlərim.

Təşneyi-cami-visaləm, arzuməndi-visal,
Bir Əlliyi-aliyi-ə'lanı gözlər gözlərim.

Xosrovi-gərdun-sərurü padişahi-binəzir,
Bəhri-şövkət, bir mələk dərbanı gözlər gözlərim.

Mə'dəni-fəzlü kəramət, mənbəyi-cudü kərəm,
Şahi-aləm, xaceyi-Səlmanı gözlər gözlərim.

Ey ərrənlər sərvəri, ya şahi-dəryadil Əli,
Mehri-rəxşan, bir məhi-tabanı gözlər gözlərim.

Qüvvəti-bazunu gör, şəmşiri-cövhərdarə bax,
Qan tökən bir gözləri qan-qanı gözlər gözlərim.

Bəççeyi-türkəm, dilim türki, kəlamım həcv, məcv,
Xançobani can alan, can-canı gözlər gözlərim.

Qoyunu yüz eylədim, bu çöldə qışlaq etmənəm,
Zinəti-mülki-Muğan Ultanı gözlər gözlərim.

Fışqırıq çalıb çəkib hey-hayi-hu-hu dəmbədəm,
Ağkəmər, Dərgəc, Telazmanı gözlər gözlərim.

Çalkərə, Saqqırkərə, Qumral, Qəmər qoç gəldi qaç,
Yüzbasar, Dartantutan, Qaplanı gözlər gözlərim.

Məst olub saqi yıxıldı, etdi qəltan şişəni,
Mən hənuz ol sağəri-səhbanı gözlər gözlərim.

Bəndeyi-piri-Muğanəm, həmdəmim cami-şərab,
Munisim Hafiz, o xoş əlhanı gözlər gözlərim.

Nöqli-məclis, şəm'i məhfil, hardasan, gəl, ey Hüseyn!
Bir qəzəlxan bülbüli-xoşxanı gözlər gözlərim.

İştiyaqın çox çəkər bu Şah Xətai bəhri, gəl,
Dərdiməndəm, neyləyim, dərmanı gözlər gözlərim.

Xizrə qismət oldu, olsun çeşmeyi-abi-bəqa,
Mən də zövqi-badeyi-həmranı gözlər gözlərim.

Gənci fəth etdim, tilismin eylədim zirü zəbər,
Onda amma bir qəvi Sə'banı gözlər gözlərim.

Yetmək olmaz gəncə, ta öldürməyincə əjdəri,
Acizəm, bir Museyi-İmranı gözlər gözlərim.

Əlhəzər bu əjdəhanın sətvətindən, əlhəzər!
Bir mühərriq atəşi-suzanı gözlər gözlərim.

Bilmişəm, axır bu köz dəryası qərq eylər məni,
Çarə yox, bir gövhəri-qəltanı gözlər gözlərim.

Bir qaranlıq evdə mənzil tutduğum bica deyil,
Xizr tək bir çeşmeyi-heyvanı gözlər gözlərim.

Başımın sevdası tüğyan eyləyib çox-çox genə,
Bir gözəl, göyçək, əcəb oğlanı gözlər gözlərim.

Mərhəba at oynadan oğlan, zəhi çapuksəvar!
Mehtəri-divanə bir Xanxanı gözlər gözlərim.

Səhl sandım eşqi əvvəl, bəs dedim baziçədir,
İndii gəl gör, mövceyi-tufanı gözlər gözlərim.

Vadiyi-fəqrü fənadə qalmışam heyranü mat,
Həlqeyi-zəncir tək zindanı gözlər gözlərim.

Fariğəm şahü gədadən, künci-vəhdət mənzilim,
Bir nəməd, bir pust, bir qəlyanı gözlər gözlərim.

Tərk edib islamı, tutdum məzhəbi-Ruhullahı,
Səcdə qıldım xaçə, bir rəhbanı gözlər gözlərim.

Din nədir, məzhəb nədir, mən aşiqi-divanəyəm,
Eylərəm məşqi-cünun, cananı gözlər gözlərim.

Məsti-cami-Sədr-afaqəm, qələndər məşrəbəm,
Zibi-İran xütteyi-Tehranı gözlər gözlərim.

Kaşifi-”elmi-lədünni”, alimi-”mafiz-zəmir”,
Vaqifi-sirri-əzəl Mirzanı gözlər gözlərim.

Rövnəqi-bəzmi-şahənşahi-Süleyman dəstgah,
Xizr-məqdəm, mürşidi-dananı gözlər gözlərim.

Çakəri-Qənbər, qulami-Heydəri-Düldülsəvar,
Bir, Nəbati, rindi-bipərvanı gözlər gözlərim.

* * *

Əyləşib bir xosrovi-afaqı gözlər gözlərim.
Büdpərəstəm, qibleyi-üşşaqı gözlər gözlərim.

Döndərib üz əhli-dünyadən, ümumən hər nə var,
Ne'məti-biminnəti-rəzzaqı gözlər gözlərim.

Bağrımı qan eylədi bu möhnəti-hicran, aman!
Saqican, bir sağəri-rəvvaqı gözlər gözlərim.

Ey xuda, sən bu Züleyxanın əzizin xar qıl,
Saldırıb zindanə bir dustağı gözlər gözlərim.

Tövbə, gər meyl eyləyim hər dilbəri-zibayə mən,
Yarə bir əhd etmişəm, misaqı gözlər gözlərim.

Baxmanam, hərgiz əgər, xurşidi-aləmtab ola,
Öz nigarım yari-siminsaqı gözlər gözlərim.

Ənbərin-geysu, kəman-əbrü, şəlayin-nazənin,
Məhcəbin bir duxtəri-Oymağı gözlər gözlərim.

Sinəsi qəndi-mükərrər, ləbləri şəhdü şəkər,
Nar püstan, bir çanaq qaymağı gözlər gözlərim.

Dövrə qalxmış mürği-dil çərxi-fələk dəvvar tək,
Hər budağə düşməz o, bir taqı gözlər gözlərim.

Güllər açıldı, bahar oldu, səfa sürmək gərək,
Bir bulaq başı sərin yaylağı gözlər gözlərim.

Xoş çəmən, bir səbzi-xürrəm, bir neçə həmdəm rəfiq,
Gülyetərdə bir kabab yarmağı gözlər gözlərim.

Çeşmeyi-Mövlaəlidən su içib seyran üçün,
Selbasar başında bir gəzmağı gözlər gözlərim.

İldə bir dəf'ə təvafi-qəbri-seyyid Cəbrəyil,
Çox mübarək, orda bir müştaqı gözlər gözlərim.

Astmal çayı səfası binəhayətdir, vəli,
Barı bağlarında bir ovlağı gözlər gözlərim.

Təkağac qaldı, Murad yurdun fəramuş eyləmə,
Orda bir də bir səfa sürmağı gözlər gözlərim.

Çaldı daşə dırnağın, ləng oldu Şəbdizi-xəyal,
Rəxşi-gülgun, bir dəmir-dırnağı gözlər gözlərim.

Təngə gəldim bu qəfəs küncündə, bağrım çatladı,
Aləmi-balayə bir uçmağı gözlər gözlərim.

Yazmayıb kilki-qəza, yarəb, şəbi-hicranə sübh
Üz tutub dərgahə, bir fəllaqı gözlər gözlərim.

Eyləsin bu dərdə çarə yoxdu bir haziq təbib,
Hakimi-hökmi-ələl-itlaqı gözlər gözlərim.

Məşqi eşqin məhv olub, sərməşqi yadımdan çıxıb,
Lövhi-məşqim əldə bir məşşaqı gözlər gözlərim.

Sərvəri-şəbzindədaran rindü əyyarü dilir,
Əmrü Mehtərbaşı bir sərraqı gözlər gözlərim.

Murşidi-sahibnəzərsən, mən də gözdən düşmüşəm,
Bu fəqirə bir nəzər baxmağı gözlər gözlərim.

Köhnəlib, əldən düşüb, bu cism nə'şi-gəbr tək
Atəşi-suzanə bir yaxmağı gözlər gözlərim.

Bir cavanmərd görmürəm bu əmrə iqdam eyləsin,
Göz salıb hər yanə bir qoççağı gözlər gözlərim.

Narü nurin mə'dənin get Xançobanından soruş,
Tut xəbər, gör, orda bir hərraqı gözlər gözlərim.

Doğrusun söylə, səni kim Xançobani eylədi?
Adı yoxdur, bir böyük xəllaqı gözlər gözlərim.

Çatladı Gülgun, Nəbati, böylə çapmazlar atı,
Çatlasın, bir kürreyi-toxmağı gözlər gözlərim.

* * *

Səfheyi-aləmdə bir dürri-nihandır Üştibin,
Vəznə gəlməz, çəkmək olmaz, çox girandır Üştibin.

Baş çəkib ərşi-bərinə dörd tərəfdən dağlər,
Filhəqiqət ləngəri-kövnü məkandır Üştibin.

Səddi-İsgəndər kimi hər bürcü bir hisni-həsin,
Dideyi-bədxahə bir tiri-kəmandır Üştibin.

Xoşsəliqə hər yeri, xəlqi sərasər mehriban,
Dilləri tati, vəli, şirinzəbandır Üştibin.

Allah abad eyləsin, abü havası canfəza,
Qalibi-insanə bir ruhi-rəvandır Üştibin.

Hakim olmuş onda ta Mirzə Səlimi-kamikar,
Ol səbəbdən xəlqə bir darül-əmandır Üştibin.

Maşaallah, gör nə yaxşı boy çəkmiş sərvlər,
Cənnəti-Şəddad ya baği-cinandır Üştibin.

Narının hər danəsi yaqut, ya lə'li-Yəmən,
Müxtəsər, bir gənc ya bir bəlli kandır Üştibin.

Suyunu hər kimsə içsə, istəməz abi-həyat,
Ondan ötrü Xizr tək gözdən nihandır Üştibin.

Görmüşəm həm Əskəranı, Qırçını, Ağdamları,
Onların yanında bir sultanü xandır Üştibin.

Gəzmişəm Hindarxını, həm Bərdəni seyr etmişəm,
Hər biri bir çöl, vəli, bir busitandır Üştibin.

Verməryəm külli-cahanə bir Hərasın seyrini,
Qıl təmaşa, gör nə göyçək, xoş məkandır Üştibin!

Doğrusu, yaylağının vəsfində aciz qalmışam,
Bilmərəm, baği-İrəm, ya gülsitandır Üştibin.

Bir-biri üstündə damlar, yaxşı ali köşklər,
Bəs deyərsən Lənkəran, ya Salyandır Üştibin.

Verginən dildarımı, et ahü zarımdan həzər,
Rəhmə gəl, insafə gəl, bəsdir, amandır, Üştibin!

Bir qonaq-nisbət Nəbati səndə beş gün əyləşib,
Hörmətin saxla ki, o bir Xançobandır, Üştibin.

* * *

Ey gözüm, gəl gözə bax, nərkisi-şəhla nəçidir!
Zülfə bax, sünbülə bax, ənbəri-sara nəçidir!

Daneyi-xalinə göz mərdüməkin qıl mənzil,
Gunə bax, arizə bax, laleyi-həmra nəçidir!

Düşdü Bijən quyuya görgəc o çahi-zəqəni,
Ləbə bax, şəkkərə bax, şəhdi-müsəffa nəçidir!

Dişləri gövhəri-nasüftə, dəhanı qönçə.
Dilə bax, ləhcəyə bax, tutiyü mina nəçidir!

Sədəfi-can elərəm navəki-müjganə hədəf,
Taqi-əbrusinə bax, mənzəri-ə'la nəçidir!

Nə deyim kim, nə bilir işvə nədir, qəmzə nədir,
Bir gülümsün, qıya bax, gör bu müədda nəçidir!

Cəbhəsin ay desəm, incini məndən Zöhrə,
Əksi-Nurullahı gör, mehri-mücəlla nəçidir!

Başinə sayə salıb bali-hüma tək kakil,
Çıxmışam bir yerə kim, günbədi-xəzra nəçidir!

Qoymuşam tərfi-bənaguşinə biganələri,
Qol-boyun burda duran zülfi-çəlipa nəçidir!

Oxşadan sinəsini qarə, get, ey gicü dəbəng!
Donduran adəmi bu mənşəi-sərma nəçidir!

Saqi, bir cam ilə dilşad elə bu qəmnaki,
Nəçiyəm mən ki, deyəm sağərü səhba nəçidir!

Nə çıxar ər'ərü şümşad uzun əhməqdən,
Qəddə bax, qamətə bax, sərvi-dilara nəçidir!

Camı aldı əlinə, vəh, genə saqi, saqi!
Məst-məstanə deyər: Xosrovü Dara nəçidir!

Məhrəmi-xəlvəti-ünsüm hanı Saib, Saib?
Ləhnə bax, nəğməyə bax, bülbüli-şeyda nəçidir!

Hafizin şəhpərinin seytidi ya nə'reyi-rə'd?
Dövrə bax, gərdişə bax bəççeyi-Ənqa nəçidir!

Bu necə nəğmədi, mütrüb məni mədhuş elədi,
Çək qələm Barbətə, sövti-Nikisa nəçidir!

Qoyma bu pərdəni əldən çıxa, heyhat, heyhat!
Saqidən bir xəbər al gör ki, bu mina nəçidir?

Neyləyək Xızra nəsib oldu əgər abi-bəqa,
Sən də sağəri tut gör qəmi-dünya nəçidir?

Gəl bu gülzar tamaşasına bir, ey qafil,
Qülleyi-kuh nədir, daməni-səhra nəçidir!

Qorxuram inciyə Məcnun, küsə məndən, yoxsa,
Deyərəm: Gəzgəzə həmta ola Leyla nəçidir!

Yoxdur aləmdə belə dilbəri-sərmayeyi-naz,
Şəkli-Şirini unut, nəqşi-Züleyxa nəçidir!

Onu mə'şuq, məni aşiqi-müştaq deyin,
Zikr edin adımızı, Vamiqü Əzra nəçidir?

Mərhəba, kilki-şəkərrizü bədiül-əlfaz!
Sözə bax, gövhərə bax, nitqi-Məsiha nəçidir?

Hansı dəryayi-əmiqin dürüdür bu əş'ar?
Lə'li sındırdı bu söz, lö'lövü lala nəçidir?

Rəhm qıl canına, bir bəsdi, bu xəlvətdən çıx,
Təngə gətdi məni, bu guşeyi-ixfa nəçidir?

Seyr qıl aləmi, bu şahü gədasın yoxla,
Nikü bəd hansıdı gör, zişt ilə ziba nəçidir!

Məscidü somiəvü bütkədəni bir-birə çal,
Görginən Kə'bə nədir, deyrü kilisa nəçidir?

"Qülhüvəllah əhəd"in kəsdi bu əğyarlərin,
Qülzümi-vəhdətə cum, kəsrəti-ə'da nəçidir!

Kafirü gəbrü nəsaravü müsəlmanə yetiş,
Dinü məzhəb nədi gör, mö'minü tərsa nəçidir?

Həqqinən batili çək bir məhəki-mizanə,
Mustafa gör nə deyir, İsəvü Musa nəçidir?

Gəz xərabatü münacatı, yetiş əhlindən,
Od vuran aləmə bu nuri-təcəlla nəçidir?

Gəl, Nəbati, dəxi üzdən bu niqabı götürək,
Bir görək bu danışan aşiqi-risva nəçidir?

* * *

Tərfi-gülşəndə genə bir güli-həmra görünür,
Türfə xoş-rəngü tərü tazəvü ziba görünür.

Bağİ-rizvandı bu ya səhni-gülüstani-İrəm,
Dövr ta dövr hamı sərvi-dilara görünür.

Laləvü gül qarışıb bir-birə, sübhanəllah!
Baxasan hər gülə bir bülbüli-şeyda görünür.

Lohəşəllah, görəsən cənnəti-Şəddadıdı bu
Ki, cəmii dərü divarı mütəlla görünür?!

Ən'əməllah ki, bu dərgahi-rəfiayə müdam,
Rizişi-ne'mətü ən'am bəraya görünür.

Qəsri-Firdövsə müqabildi bunun xərgahı,
Təxti-tavus əcəb aliyü ə'la görünür!

Həşmətü şövkətə bax üzmüdə xuddami-dəri,
Hər biri Xosrovü xaqan ilə həmta görünür.

Bu necə bəzmdi, yarəb, bu nə təmkinü vüqar
Ki, həmə şərti-ədəb bunda hüveyda görünür.

Həmd qıl iyzədə, torpağə düşüb üz yerə sürt,
Binəva, bax göyə gör əfsəri-Dara görünür.

Kimdi bu təxt-nişin səlli əla nami-xuda,
Taci-xurşidi Məhəmməd, şahi Dara görünür.

Başını sal aşağı, etmə təkəllüm əsla,
Gözünü dik yerə gör tudeyi-ğəbra görünür.

Baxma rüxsarına hərgiz ki, onun hər baxışı,
Aşiq öldürməyə bir xəncəri-bürra görünür.

Çeşmi-bəddən bu şəhi saxla, sən ey şahi cahan
Ki, bu şah aləmə bir lütfi-xudaya görünür.

Afərin, bəh-bəh əzin şahi-ədalət güstər!
Kainat üzrə genə rə'yəti-Kəsra görünür.

Nəqli şirindi bu, ya qisseyi-Yusifdir bu
Ki, tamam hərfləri lö'lövü lala görünür?

Bu necə şəkldi, yarəb, bu nə sün'i-qüdrət,
Sövləti-Heydəriyü heybəti-Musa görünür.

Surəti-şiri-xudanı necə çəkdi nəqqaş!
Ciqqeyi-əfsəri bir mehri-mücəlla görünür.

Saqiya, ruzi-əzəl camına möhtac olalı,
Xabə getdikcə, gözə sağəri-səhba görünür.

Səhvdən saxla, dilin, ey dəli kəctabi-zəman
Ki, sənin fər'i-ləbin əsl xətaya görünür.

Kimdi bu miri-kərəm, sahibi-şəmşiri-düdəm
Ki, minib Düldülə bir qatili-ə'da görünür?

Dövr edər daireyi-ərşdə pərgar-sifət,
Kimsə görməz ki, o bir bərqi-müşə'şa görünür.

Şahi-islami, ilahi, bu şəhənşahə müin
Eylə, sən kim, səbəbi-rahəti dünya görünür.

"Rəbbi-ərni" – deyərəm ta nə qədər canım var,
Mənbəi-cudü səxa bəhri-ətaya görünür.

Qoy desinlər, bəli, məxluq təmami ki, əyan,
Sayeyi, mərhəməti-qadiri, yekta görünür.

Üştibində genə iqbali-şəhi-dövranə
Bir duaguyi-kəmin bisərü bipa görünür.

Şah tə'rifi əcəb adəmi məğrur eylər,
Əlləməllah ki, bu bir şairi-ğərra görünür.

Bu əgər xəlq sözü həmpəri-simürğü deyil,
Niyə bəs Qafdə bir bəççeyi-ənqa görünür?!

Bu cünunun sözünə baxma get, ey əqli dayaz,
Ki, bunun sözlərinin əksəri lovda görünür.

Xidməti-piri-muğan qisməti-hər dun olmaz,
Dəli mehtər genə bir mayeyi-qovğa görünür.

Müddəti lal idi, indi kar olub, həmd olsun!
Özü bədxu, sözü bəd, bir şələ sövda görünür.

Dəli-divanə, nə qafil oturubsan hey-hey!
Nə'reyi-seyheyi-Şəbdizi səmasa görünür.

Bu, yəqin tərcümeyi-ayeyi-"mahaza"dır
Ki, həzin canim əra mehri-Züleyxa görünür.

Nə durubsan, dəxi pişvazə yügür, qıl tə'cil,
İlqa, kim təntəneyi mürşüdi-dana görünür.

Kimdi bu şahi fərü şiri-nərü kuh şükuh,
Dağü daş hamı bütün bangi-dəraya görünür.

Yadıma düşdü genə ayeyi-"qulənküntüm",
Cismi zarımda genə bəhri-təvəlla görünür.

Kimdi bu şəmsi-züha, bədri-düca, ərşi-sərir,
Allah, Allah, genə bir nuri-təcəlla görünür!

Barilaha, sən onun düşmənini eylə fəna,
Şəhri-qəlbimdə genə qəhri-təbərra görünür.

Zar könlümdə genə gərmdi həngameyi-eşq,
Dəşti-iməndə genə atəşi-Sina görünür.

Mehtəri-Sədri-cahan bir gözü qan, bir bədməst,
Bir çolax, bir gözü kor, bir dili lala görünür.

Kimdi, yarəb, genə bu şəm'i-hüda, mehri-ziya,
Mə'dəni-elmi-əla gənci-səraya görünür?

Qəddi-şümşadını gördükcə unutdum sərvi,
Çeşmi-cadu nigəhi-nərkisi-şəhla görünür.

Hoqqeyi-lə'li-ləbi məxzəni-yaqutü əqiq,
Dişinin hər biri bir dürri-müsəffa görünür.

Daneyi-xali-siyəh mayeyi-hər sehrü füsun,
Zülfi-mərğubi gözə əmbəri-Sara görünür.

Bu necə dami-bəladır ki, xilas olmaq yox,
Ey dil, əfsun oxu kim, zülfi-çəlipa görünür.

Yoxdu bu dərdə dava gər desə naçar biri,
Saqiyi-lalərüxü gərdəni mina görünür.

Cö'di-müşkini burax, get sözünü eylə tamam,
Ki, onun hər teli bir dami-bəlaya görünür.

Künci-ixfayə çəkil bərqeyi-Deyləmdən keç,
"Üqtülu-Yusifə" bu nəş'ədə inşa görünür.

Qəm yemə çox da dəxi kəsrəti-ə'dadən hiç,
Ələmi "nəsri minəllah fətəhna" görünür.

Mənzilim oldu genə qəl'əçeyi-səmtü sükut,
Genə bu qəl'ədə bir səxreyi-səmma görünür.

"Əntə minni" dedi Səlmanə nəbi, eyb olmaz,
Məndə "Allahü məək" gün kimi peyda görünür.

Bəzmi-vəhdətdə məqam eyləyəni Tari bilir,
Könlümün ayinəsi məzhəri əsma görünür.

Cami-Cəmşidi əcəb müft gətirdim əlimə,
Lövhi-dil ayineyi-məzhəri-əsma görünür.

Gəl bir az da vuralım Qaf kimi lafi-kəzaf,
Hüsni-xəttimdə səfayi-yədi-beyza görünür.

Aç fəsahət qapısın, ey “ənə əfsəh” nəsli,
Səndə mirasi-şahənşahi-tədəlla görünür.

Şəms Təbrizi kimi möhyiyi-əmvat oldun,
Vəh, onun cilvəgəhi aləmi-bala görünür.

Təb’i mətbuun edən Maniyü Ərjəngi xəcil,
Rəşheyi-kilki-tərin sehri-həlala görünür.

Bu nə pərvazdı, ey tairi-Simürğ-şikar,
Təhti-balında genə fövqi-Sürəyya görünür.

Sözü qıl şəhdü şəkər, ey “ənə əmləh” balası,
Məhəki-dürri-süxən surəti-Sədra görünür.

Canımı yaxdı bu od, oldüm, aman, ey saqi!
Bircə bax, gör nə əcəb daməni-səhra görünür.

“Ləntərani” demə çox, sağəri-zərrini götür,
Nə əcəb səndə genə bu “ləmü ləmma” görünür.

Bircə göstər üzünü, şad elə bu məhcuri,
Ki, sənin mehri-ruxun dəf’i-bəlaya görünür.

Şəddi-Bəğdad nədir, hicr günü çeşmi-tərim,
Yaş tökəndə deyəsən mövceyi-dərya görünür.

Şahi-mürğani-cahan hüdhüdi-xoşnəqşü nigar,
Mərhəba söylə görüm, hovdəci-Leyla görünür.

Eşq imiş kamil edən cümleyi-insani, bəli,
Səbəbi-cəzbi-bəni hissi-həmira görünür.

Dəm çəkib dinmə dəxi, tut üzünə bərqeyi-naz,
Dərdinə çarə sənin pərdeyi-ixfa görünür.

Basma dişqarı qədəm künci-xəfadən, zinhar
Ki, cahan içrə əcəb mə'rəkə bərpa görünür.

Piri-gülrəng əgər etsə camalın zahir,
Həq bilir kim, deyərəm Xizri-müəlla görünür.

Hümməti-piri-müğan şamili-əhval oldu,
Qasidi-şəhri-Səba zahirü peyda görünür.

Həmdülillah ki, qəbul oldu düayi-səhərim,
Əsəri-kəşməkeşi-Qənbəri mövla görünür.

Həyy edər əzmi-rəmimi, nəfəsi-müşkini,
Nitqi-şirini əra mö'cüzi-İsa görünür.

Bu necə ləhcədi, ey tutiyi-suti-xətü xal,
Çətri-əlvani-Süleymani-səmaya görünür.

Afərin fal ki, tövfiq mübarək gəldi,
Leylətül-qədr yanınca şəbi-yəlda görünür.

Sözü şirin, özü çirkin Nəbati deyilən,
Tari döysün ki, o, bir nəngi-əbaya görünür.

* * *

Mənim aləmdə sultanım Əlidir,
Mənim miri-cahanbanım Əlidir.
Nə Dara tanıram mən, nə Skəndər,
Mənim Fəğfurü xaqanım Əlidir.
Behişti zahidə verdim sərasər,
Mənim gülzari-rizvanım Əlidir.
Əgər hər kimsənin bir şahi olsa,
Mənim də şahi-şahanım Əlidir.
Tutub hər mürğ bir gülşəndə məskən,
Mənim də bağı-bostanım Əlidir.
Məni bu ismi-ə’zəm etdi natiq,
Mənim məcmui-divanım Əlidir.
Əgər xəncər çəkər düşmən, qəm etmə,
Mənim də tiği-üryanım Əlidir.
Mənim sərmayeyi-ömrümdü mövla,
Mənim cismimdə bu canım Əlidir.
Mənim yox ondan özgə zikr-fikrim,
Mənim bu canda cananım Əlidir.
Mənim kəştiyi-Nuhum Mürtəzadır,
Mənim Musəyyi-İmranım Əlidir.
Mənə zülmət yolun göstərmə, ey Xizr,
Mənim yənbubi-heyvanım Əlidir.
Mənim Ruhullahım oldu Yədullah.
Mənim şahi-Süleymanım Əlidir.
Nədir bağı-cinunü nəxli-Tüba,
Mənim sərvi-xuramanım Əlidir.
Məni seyri-gülüstanə aparma,
Mənim seyri-gulustanım Əlidir.
Mənim piri-müğanım şahi-Mərdan,
Mənim saqiyyi-məstanım Əlidir.
Mənim ömrüm, mənim ruhi-rəvanım,
Mənim mürği-süxəndanım Əlidir.
Mənim ərşim, mənim fərşim odur, o!
Mənim mehri-füruzanım Əlidir.
Mənim lövhü qələm, kürsi, səririm,
Mənim övrəngi-keyvanım Əlidir.

Mənim udum, mənim rudü sürudim,
Mənim həm rahi-reyhanım Əlidir.
Mənim bəzmi-nişatü eyşü nuşum,
Mənim şəm'i-şəbistanım Əlidir.
Mənim cami-meyü nöqlü kəbabım,
Mənim salari-eyvanım Əlidir.
Mənim mulküm, mənim malü mənalım,
Mənim həm hökmü fərmanım Əlidir.
Mənim təxtim, mənim tacü rəvaqım,
Mənim baniyi-bünyanım Əlidir.
Mənim əbrim, mənim bərqi-cəhəndim,
Mənim rə'di-xüruşanım Əlidir.
Mənim lə'lim, mənim dürri-xoşabım,
Mənim barani-neysanım Əlidir.
O şəhbazin əsiri mürği-canım,
Mənim şahinü tərlanım Əlidir.
Deyər daim dilində Xançobani:
Mənim hər dərdə dərmanım Əlidir.

* * *

Genə şuridə könlüm aşiqi-bir gül'üzar olmuş,
Edər məşqi-cünun, divanələr tək dağdar olmuş.

Olub Məcnun kimi sərməsti-cami-badeyi-vəhdət,
Düşüb səhralərə, vəhşilər ilə həmqətar olmuş.

Düşüb əşgim kimi mərdüm gözündən cismi-üryanım,
Əzizi-Misir ikən gözlərdə, indi gör nə xar olmuş.

Tutub ta mürği-dil məskən o çin-çin zülfi-müşkində,
İşim bayqu kimi daim fəqanü ahü zar olmuş.

Şücaət mülkünün saları kimdir? Həzrəti-Əbbas,
Mənim şahim də bu meydan əra ol şəhsəvar olmuş.

Kəsər, doğrar həsudin bağrını əş'ari-rənginim,
Mənim tiği-zəbanım guiya bir Zülfiqar olmuş.

Məni ol xali-hindudur edən müstəğrəqi-heyrət,
Edən qan qönçə tək bağrım, o lə'li-abidar olmuş.

Edib min aşiqi bican, töküb qanın güzərlərdə,
Bu gün ol çeşmi-sərməstin əcəb gərmi-şikar olmuş.

Tökən gözdən sirişgim dəmbədəm ol çeşmi-cadudur,
Pərişan eyləyən halim o zülfi müşkbar olmuş.

Səpib jalə güli-sürxə ərəq lö'lövü dürdür,
Bu gün ol lalə rüxsarın əcayib nurbar olmuş.

Xərabatü minacatı gəzib seyr eylədim hər yan,
Bu küfrü din arasında o ənqa pərdədar olmuş.

Məni bir məst qıl, saqi, aman, ey gözləri yaği,
Şərabın yox, gətir aği, qulağın niyə kar olmuş?

Məhəbbət şəhrinin sudü mətaın istə sən cana,
Fənadır ya şəhadət izzü cahı çahsar olmuş.

Gətir, saqi, meyi-baqi, bu bəzmi eylə bir rövşən,
İşıq dünya gözümə badəsiz, billah ki, tar olmuş.

Məni bir cür'ə meydən ötrü böylə bağrı qan etmə,
Dur, ey kafər, gətir sağər ki, başım çox xumar olmuş.

Məni öldürdü qəm, ahım şərarı yetdi əflakə,
Yatıbdır hansı küpdə bilmirəm, ol zəhrimar olmuş.

Həmişə badeyi-gülgun həyati-tazədir ruhə,
Xüsusən indi kim, vəqti-gülü fəsli-bahar olmuş.

O çeşmi-pürxumarın həsrətindən, ey kəman əbrü,
Ənisim bəççeyi-ahu, məqamım kuhsar olmuş.

Gəhi şirü pələngü həm kəvəznü gurə yoldaşəm,
Yatağım gah cəbəl, gah dəşt, gah bir künci-ğar olmuş.

Görüb bir qəmzeyi-yaği olub heyranü müştaqi,
Deyir hər dəm gəl, ey saqi ki, halım çox nəzar olmuş.

Gətir ol rahi-reyhanı, tök ol cami-zərəfşanə
Ki, suzi-atəşi-eşqim yenə çox şö'ləbar olmuş.

Həras etməz cəhənnəmdən, yanan nirani-hicranə
Ki, İbrahim tək Azər ona bir laləzar olmuş.

Dəxi əfsunə gəlməz hər kimi çalsa qara zülfün,
Bu əf'inin ə'lacı tərki-xabü vəsli-yar olmuş.

Düşübdür başına bir nazəninin şurü sevdası,
Gedib əldən qərarı, məhv olub biixtiyar olmuş.

Məhəmmədi-Qarabaği nə bəllər bu Qaradaği,
Məgər o bülbül ovlaqi bu xoş gül-gül diyar olmuş.

Əgər Məcnuna mailsən, niyə bəs böylə qafilsən,
Buyur kim, xaki-əqdamın bizə bəs iftixar olmuş.

Bizim xübzi-şəirin ləzzətindən bir təməttö’ tap
Ki, hər bir löqməsi bir şairi-şair şüar olmuş…

Nə hasil şe’rbazlıqdan, edər məğzi-səri nabud,
Xəyalü fikrü sevdadən dimağə bir qübar olmuş.

Özün bəhri-xəyalə salma, bica qəsdi-can etmə,
Rəfiq olma məcaninə, yeri, hey kamikar olmuş!

Həzər qıl malxülyadən, bu sevdadən peşiman ol
Ki, ərbabi-cününə şe’rü şairlik qərar olmuş.

Əgər görsən məni, ibrət tutarsan hali-zarımdan,
Vücudum zə’fdən guya ki, bir şəm’i-məzar olmuş.

Müridi-əhli-təcridəm, qulami-xeyli-təfridəm,
Kişi vəh-vəh, Məsihadı ki, həyyü payidar olmuş!

Məni-aciz ki, dərvişəm, qələndərvar bikişəm,
Nə oldum xeyrdə qaim, nə dinim ixtiyar olmuş.

Nə tapdım əmri-mabeyni, nə oldum vaqifi-məzhəb,
Belə biçarə molla tək, nə adəm, nə himar olmuş.

Bu sözdən ötrü sən gəl, gör ki, gündən aşikaradır,
Vəli, iblis tək külli-vilayətlərdə car olmuş.

Yəqin bil kim, Nəbati çəkməz əl damani-minadən,
Bu tərz ilə ki, o meyxanələrdə meyküsar olmuş.

Zunestaş çömmə tut şe’ri-Nəvai cəmmi cuqunda
İzan zon vil bəru huşmahru paludəvar olmuş.

Xoşa ol aşiqi-sadiq ki, olmuş vəhdətə layiq,
Tutub künci-xəfa bu xəlqi-aləmdən kənar olmuş.

Bihəmdullah, rəqibin kövkəbi-bəxti olub varun,
Əlində curə tərlanı dönüb bir sarı sar olmuş.

Tutub nikbət giribanın, çəkib zindani-idbarə,
Səmumi-rəhri iyzəddən əsası tarümar olmuş.

* * *

Guşeyi-vəhdət nə əcəb ca imiş,
Sirri-nihan onda hüveyda imiş.

Aşiqi divanələrin mənzili,
Rütbəyə bax, ərşi-müəlla imiş.

Qafil idim bu dili-viranədən,
Dil deme, oğlan, bu ki dərya imiş!

Günbədi-əflakı deyirlər vəsi',
Şöhrəti-bicadı bu, böhtan imiş.

Qabili-feyzü düri-şəhvari-eşq,
Məzhəri-ənvari-təcəlla imiş.

Məxzəni-əsrari-xudavəndigar,
Mə'dəni-feyzi-şəhi-vala imiş.

Mətləi-dibaçeyi-sultani-can
Məqtəi-divani-şahənşa imiş.

Nöqteyi-pərkari-münəqqəş əsas,
Daireyi-mərkəzi-mina imiş.

Məğfəri-gərdani-Təhəvtənmisal,
Əfsəri-sərdari-sərara imiş.

Məhbəti-əş'ari-cəvahir-nizam,
Mənbəyi-ənhari-müsəffa imiş.

Vəh, nə deyim mən ki, o müşkin nəfəs
Mübtili-ə'cazi-Məsiha imiş.

Ləfzdə bir tutiyi-xoşdasitan,
Nəğmədə bir bülbüli-şeyda imiş.

Hüsndə bir Yusifi-gül-pirəhən,
İşvədə bir türfə Züleyxa imiş.

Tur-sifət atəşi-eşq içrə ğərq,
Aşiq evin yıxmağa Səlma imiş.

Gah olur Vamiqi-şirinsüxən,
Gah deyərsən ki, bu Əzra imiş.

Faidə verməz ki, qaradağlısan,
Narə deyər kim, əcəb heyva imiş.

Xatiri-üşşaqı pərişan edən
Şanəkeşi-türreyi-Leyla imiş.

Kimdi bu "mən, mən" deyən oğlan genə,
Bizdən o daim niyə ixfa imiş?

Kar deyilsən ki, o şirinzəban,
Bu güləşən Baqiri-bürna imiş.

Şübhəsi yoxdur ki, çobandır, çoban,
Bəstə o bir naleyi-surna imiş.

Danışa bilməz, dili yox, laldır,
Ru dediyin bir belə lala imiş.

Afərin, ey qülhüvələh, mərhəba!
Xeyr, o bir bəççeyi-ənqa imiş.

Sən de, görüm bəs nədi, hay tapmışam,
Püsteyi-gül, ya güli-rə'na imiş.

Anladın indi ki, "ənəlhəq" deyən,
Şeyxdəki rəbbiyəl-ə'la imiş?

Əqli dayaz, dağ çapan oğlanə bax!
Durdu yerindən ki, nə heyha imiş.

Seyheyi-Şəbdizi-səmək cəstxiz,
Nə'reyi-Gülguni-səmasa imiş.

Başını çox çalxama Şapur tək,
Mən nə bilim, uf ki, bu bənna imiş!

Xosrovun əhvalını Şirin bilir
Kim, ona həmkasəvü xərga imiş.

Yetsə əlim, qisseyi-Şirini mən
Nəql edərəm Xosrovə həmra imiş.

Dəng eləmə, qoy, sözü əldən çıxar,
Tanrı bilir ki, bu nə qovğa imiş.

Xosrovə Şirini edirlər ərus,
Bangi-döhül, sövti-neyü na imiş.

Dəxi inandım, bəli Fərhadsən,
Əlləri var, yaxşıca usta imiş.

Saqi, deməkdən nə gərək, türküsü,
Mətləbimiz badeyi-həmra imiş.

Sən bicə bir o dəli Məcnuna bax,
Adı nə üçün belə rüsva imiş?!

Aşiq olan kimsə məgər ur olur,
Çatmadı zehnim, bu müəmma imiş?

Mən niyə, yarəb, belə bədfitrətəm,
Anlamadım mən bu nə əmma imiş?

Dəşti-cünun seyrinə getmişdi o,
Yoxsa məgər, adəti-səhra imiş?

Ta ki, desinlər ki, özündən çıxıb,
Ya ki, bu izhari-təbərra imiş.

Qaideyi-şəhr fənadır, fəna,
Bu sifət ol mülkdə bərpa imiş.

Səhv danışdım, nə bilim, bilmədim,
Bu necə müşgülcə müəmma imiş?!

Şəhri-fəna, məhri-məna bilmənəm,
Mən deyirəm təşneyi-mövla imiş.

Öz sözünü söylə sən axir, gözüm!
Xeyr, o bir gövhəri-yekta imiş.

Cür'əkeşi-meykədeyi-Hafizəm,
Vəh, nə əcəb gövhəri-ğərra imiş!

Bağrı qəra, qanlı könül xanəsi,
Ah ki, bir külxəni-sevda imiş!

Nami-xuda, təb'i-əcibül-xəyal,
Sözdü bu ya lö'lövü-lala imiş?

İzzü əla, kilki-müsəlsəlrəqəm,
Xətdi bu ya ənbəri-Sara imiş?

Lö'bəti-surətgəri-Ərjəngi-Çin,
Ya nəməti-xətti-çəlipa imiş.

Kağəzi diba kimi gülgun edib,
Cümlə hünər bunda mühəyya imiş.

Guş verib nəğmeyi-tavusi-ərş,
Şəhpər açıb ki, bu nə tüğra imiş!

Kilki-süxənsəncü şəkərrizə bax,
Gündü bu ya gövhəri-inşa imiş?

Nöqtələri hər biri bir qit'ədir,
Hərfləri hər biri pira imiş.

Bu həbəşizadə midadi-siyah,
Aləmə bir ne’məti-üzma imiş.

Söz bəzəməkdə yədi-beyzası var,
Sehrdi bu ya yədi-beyza imiş?

Göyçək olur xameyi-sürxü sifid,
Sevdiciyim bu büti-ziba imiş.

Haşimiyəm, varisi-fəxrül-kəlam,
Bizlərə bu şiyveyi-aba imiş.

Onda imiş vəsli-cəmii-şüun,
Baniyi-bünyani-bu dünya imiş.

Padişahi-ərzü səmadır qələm,
Taci-səri-Xosrovü Dara imiş.

Bu qələmi-silsilə mudur ki, bu
Həmdəmi-bir arifü dana imiş.

Zöhdü səlahi çölə sal, Gəzgəza,
Mövsimi-eyşü meyü mina imiş.

Xançobani adı, Nəbati özü,
Bir üzü qırxıq, bığı burma imiş.

# Çarpalar

Get dolanginən, xamsən hənuz,
Püxtə olmağa çox səfər gərək.
Mürği-Qaf ilə həmzəban olub,
Dövrə qalxmağa balü pər gərək.

Kuhi-eşqə gəl getmə bidəlil,
Quli-dəng tək düşmə çöllərə.
Ta ki, salikə rəhnümun ola,
Xizri-rəh kimi rahbər gərək.

Yox, yalan dedim, hərzə söylədim,
Vazehin deyim, doğru söyləyim,
Həqqə arifi vasil etməyə
Bir dodaqları gülşəkər gərək.

Zülfü ənbərin, xalı nazənin,
Qönçə tək dəhan, qaşı cansitan,
Şahi-gülrüxan, mahi-biqərin,
Nəstərən kimi simbər gərək.

Lalə tək üzü al yanaq ola,
Tazə gül kimi tər-buxaq ola,
Ağ-ayaz üzü aydan ağ ola,
Qaşları ona həm süpər gərək.

Həminan ola mehrü mah ilən,
Həmzəban ola nuri nar ilən,
Zülfi bəhs edə şahmar ilən,
Gənci-sinəsi pürgühər gərək.

Həqqə aşina, xəlqdən cüda,
Eyləmiş ola nəfyi-masəva,

Tərk edə bütün yardən əda,
Ol Məsih tək bipədər gərək.

Qoyginən qədəm deyrə lacərəm,
Nəqşi-bütdə gör sirri-vəhdəti.
Bu çigunədən vaqif olmağa
Bir cünuni-həq mərdi-ər gərək.

Az danışginən, olginən xəmuş,
Etmə aləmə sirri-eşqi faş,
Burda durma çox, keç bu vərtədən,
Bu məqulə söz müxtəsər gərək.

Mən, qılmayın çox da zahidi,
Üzrü var onun, aşiq olmayıb,
O əbəs yerə xəlq olunmayıb,
Bağbanə bir kəlləxər gərək.

Ciddü cəhd qıl, arif ol, gözüm,
Elmi-eşqdən olma binəsib,
Cum bu bəhrə bir, tap o gövhəri,
Aşiqəm deyən tərki-sər gərək.

Rah pürxətər, bəxt vajgun,
Zülfi-yar tək şəb siyahgun,
İndi qeybdən Xançobanına
Nəxli-Turdən bir şərər gərək.

Hər xəsisə, gəl etmə iltica,
Olmaz özgədən hacətin rəva,
Müşkül açmağa şahi-lafəta,
Əntər öldürən şiri-nər gərək.

Bu cavahirin yoxdu qiyməti,
Açginən gözün, yaxşı seyr qıl,
Hər biri dəyər Çin xəracına,
Müftə vermərəm, simü zər gərək.

Bir gözəl cavan istərəm haman
Kim, bu sözləri eyləsin rəvan,
Hardadır desin bir şəkərzəban
Kim, bu söz mənə hamı tər gərək.

Saqi, gəl məni cami-eşqdən
Bir kərəm qılıb öylə məst qıl,
Ta desinlə xəlq lal oturmağa,
Bu Nəbati tək bəxtəvər gərək.

* * *

Ey firiştəxu, dur əyağə gəl,
Xalq içində yox, bir qırağə gəl.
Çox da ucaya çıxma, ey qoçum,
Balaxanadan bir aşağə gəl.

Qönçə ağzını bircə açginən,
Sən də bir danış, bir damağə gəl.
Şad könlümü qılmısan məlul,
İndi sözümü sal qulağə gəl.

* * *

Dərdi-hicrdən hali-zarımı,
İstəsən əgər, kəhrəbayə bax.
Yoxlasan əgər zə'fi-cismimi,
Məndə nitq yox, yengi ayə bax.

Min kərə dedim, səgrəqib ilən
İxtilat edib olma aşina.
Əyləşib genə, ol ləin ilə,
Süst əhdi gör, bivəfayə bax.

Olma gül kimi xarə həmqərin,
Salma aşiqi suzi-eşqdən,
Heç görüm üzün gülməsin sənin,
Odladın məni, bir xudayə bax.

Zahid, az danış, get gözümdən it!
Eşqdən məni çox da danlama,
Mən məgər əbəs olmuşam dəli,
Bir o mimü dal, bavü rayə bax.

Məndən əl götür, ey uzunqulaq!
Zöhd satma çox ey himari-məhz!
Dur ayağa bir, aç o kor gözün,
Bir bu gözləri sürməsayə bax.

Mən öləndə bir nə'şim üstə gəl,
Bir nəzarə qıl daği-sinəmə,
Dalə çək qələm, eyni caizə,
Bir əlifdə min macərayə bax.

Qıl mənə kərəm feyzi-lütfünü,
Kərbəla tərəf çək inanımı.
Xərc əzhəlal, çarpayi-yol,
Həm rəfiqim ol, bu sədayə bax.

Dövri-çərxdən olmuşam əlil,
Dizdə taqətim, gözdə nur yox.
Bir nəzər əya şahi-lafəta,
Bu Nəbatiyi-binəvayə bax.

* * *

Gəlmə, gəlmə, get yaxşı-yaxşı sən,
Mən sənin kimi yarı istəməm.
Öldü aşiqin, bircə gəlmədin,
İndi sən edən zarı istəməm.

Munca kim dedim: öldüm, öldüm ay!
Sən gavur qızı bir inanmadın.
İndii gəlmisən nə'şim üstünə,
Dur ki, sən edən zarı istəməm!

Hər nə ağladım, hər nə dağladım,
Qoymadın görüm gül camalını.
Tab vermə çox tari-zülfünə,
Mən xəzinəsiz marı istəməm.

Huri-cənnətin neylərəm sabah,
Mən bugünkü gün yarı istərəm.
Verməsən əgər doğru söz ki, mən
Böylə rəhmsiz Tarı istəməm.

Saqiya, gətir cami-xoşgüvar,
Qış tükənmədi, gəlmədi bahar,
Mən gül istərəm, bülbül istərəm,
Bu soyuq qışı, qarı istəməm.

Çarə əqldən olmaz aşiqə,
Çox gözətlədim, etdim imtahan,
Dur soyun genə rəxtü pəxtini,
Mən bu qeyrətü arı istəməm.

Dur ləbaləb et cami-zərkeşi,
Bircə qətrəsi dammasın yerə,
And verib mənə piri-meykədə,
Mən piyaləsiz yarı istəməm.

Əl çək, ey rəqib, həq rizasinə,
Bir hovurluğa yıxma ömrümü,
Bir də gəlmərəm mən bu gülşənə,
Dərmərəm gülün, xarı istəməm.

Mən Nəbatiyəm, zarü binəva,
Eşq müflisi, rindü mübtəla,
Əl götürmüşəm malü mülkdən,
Ol himar tək barı istəməm!

* * *

Böylə bivəfa olma, ey pəri,
Etmə çox cəfa, ey sənəm, sənəm!
Gərdi-rahını çeşmi tarimə
Eylə tutiya, ey sənəm, sənəm!

Bəs ki çəkmişəm dərdi-firqətin,
Tellərin kimi incələnmişəm.
Rəngi alimi əşgi-laləgun
Etdi kəhrəba, ey sənəm, sənəm!

Sənsiz olmuşam zarü binəva,
Hicr düşkünü, rindü mübtəla.
Gəl bu dərdə sən lütf qıl özün,
Eylə bir dəva, ey sənəm, sənəm!

Ey fəriştəxu, yari-nazənin,
Ey mələkliqa, mehri biqərin.
Bircə busə ver bu qələndərə,
Öldü binəva, ey sənəm, sənəm!

Gərçi aşiqəm, rindü müflisəm,
Boşdu kisəmiz ağça-mağçadan.
Nəqdi-canımı xaki-payinə
Eylərəm fəda, ey sənəm, sənəm!

Lövhi-sinəmi nəxli-Tur edib,
Afərin sənin şəm'i-ruyinə!
Yengidən genə düşdü başıma
Bir əcəb həva, ey sənəm, sənəm!

İstərəm düşəm bəhri-heyrətə,
Nitq çəkməyəm, əyləşəm xəmuş,
Məşqi-eşqimi eyləyəm tamam,
Bir sürəm səfa, ey sənəm, sənəm!

Gəl Nəbatinin sidqü kizbini
Sən bu babdə eylə imtahan,
Gər danışmadı otdu bizəban,
Söylə mərhəba, ey sənəm, sənəm!

* * *

Heyf, bilmədim kim, bu bülbülü
Şahi-gülrüxan istər, istəməz?
Bu cəfakeşi, xəstə aşiqi
Yari-cansitan istər, istəməz?

Ey səba, bu dəm can fəda sənə,
Ərzi-halımı yarə sən sölə.
Bu səməndəri, bu qələndəri
O şəkərdəhan istər, istəməz?

Tez gətir xəbər, qoyma intizar,
Etmə çox məni zarü biqərar.
Kim, desin görüm, odda yanmağa
Böylə Xançoban istər, istəməz?

Yoxdu qasidim, göndərim pəyam,
Yarə dərdimi eylədim əyan.
Doğrusun desin, etməsin nəhan,
Böylə xan çoban istər, istəməz?

Dikmişəm yola çeşmi-əşkbar,
Kuhi-Turə gəl, eylə bir güzar,
Bir yetiş, məni ol vəfaşüar
Böylə bizəban istər, istəməz?

Üzdü canımı möhnəti-fəraq,
Yaxdı cismimi nari-iştiyaq,
İcz qıl, sölə ahü zar ilə
Böylə canfəşan istər, istəməz?

Söylə rahətim yoxdu bir zaman,
Sübhü şam işim ahdır, aman.
Tut xəbər, belə könlü pürfəğan,
Çeşmi-xunfəşan istər, istəməz?

Payimal edib adü sanımı,
Eylədim xərab xanimanımı.
Bilmirəm dəxi bundan artıcaq
Halımı yaman istər, istəməz?

Çün bu ərsədə çoxlar atını,
Quyruğun düyüb, oynadıb, çapıb.
Bu Nəbati də əsbi-laşəsin
Çapdı bir inan, istər, istəməz?

# *Gəraylılar*

Maşaallah, qadir Allah
Gör necə dilbər yaradıb!
Gül üzündə əfşan-əfşan
Zülfi-müənbər yaradıb.

Ağzı qönçə, ləbi püstə,
Beli incə, boyu bəstə,
Tökülübdür dəstə-dəstə
Nə gözəl tellər yaradıb!

Qaşı fitnə, gözü cadu,
Üzü lalə, xalı hindu,
Mina gərdən, saçı qarqu,
Gül buxağın tər yaradıb.

Gündən göyçəkdir camalı,
Sərvi bənzər qəddi-dalı,
Ləbin əmən neynər balı?
Sözünü şəkkər yaradıb.

Dili almas, dişi inci,
Ağ sinəsi gövhər gənci,
Vəsfə gəlməz nazü ğənci,
Bunu əfsungər yaradıb.

Müsəlmanlar, bir pərizad
Məni etdi yaxşı Fərhad,
Qəmzəsi bir yağı cəllad,
Kipriyin xəncər yaradıb.

Hər kimi xaliqi-davər
Bir əmrə edib müqərrər,
Onu bir şuxi-gülpeykər,
Məni səməndər yaradıb.

O gün ki, yarandı insan,
Qələm yazdı belə fərman:
Səni bir şahi-gülruxan,
Məni qələndər yaradıb.

Edibdir saneyi-davər
Hər kimi bir şahə çakər,
Məni bir divaneyi-mehtər,
Səni bir sərvər yaradıb.

Əzəldən qadiri-biçun
Özü qoymuş belə qanun.
Səni bir dövlətli Qarun.
Məni bi müztər yaradıb.

Nə qılım, neyləyim, yarəb,
Dolmuşam qəmdən ləbaləb,
Səni bir şahi-müəddəb,
Məni bir məsxər yaradıb.

O dəm ki, rəbbiyəl-ə’la
Aləmi etdi hüveyda,
Səni bir şahi-lafəta,
Məni bir Qənbər yaradıb.

Bir tərzinən edib peyda,
Səni bir mehri-mücəlla,
Məni bir əxkər yaradıb.

Gülrüxsarı neynər ğazə,
Gəl bircə seyr eylə nazə,
Bulbul, çox göz dikmə yazə,
Gör nə gül peykər yaradıb.

Nəbati, çək Əli, Əli,
Könlün olsun cəli, cəli,
Onu Allah, bəli, bəli,
Bu dildə əzbər yaradıb.

* * *

Genə fələklər ünüşdü
Qurban-qurban sədasından.
Məəttəl qalmışam, billah,
Aşiqlərin ədasından.

Mövcə gəldi gözüm yaşı,
Alışdı bağrımın başı,
Səs götürüb dağı-daşı
Bu Məcnunun nəvasından.

Getdi gözümün qarası,
Getməz sərimdən havası,
Elə bil tərlan balası
Cüda düşüb yuvasından.

Kəsildi könlümün zarı,
Tükəndi səbrü qərarı,
Bir yol öldür qurtar barı,
Bu hicranın bəlasından.

Gəldi Nəbati divanə,
Kənar durun, qaçın yanə,
Baxmaz o, xanü sultanə,
Həzər qılın xətasından.

* * *

Nə xoşlayıb xanım bilməm,
Xərab Kürdəşdi, Kürdəşdi,
Gəl Üştibnə təfərrüc qıl,
Cənnət bağı Rəşti, Rəşti.

Qoymayaydım qızıl kanda,
Çəkəydim olsa hər xanda,
Bina qılaydım İranda
Dini-Zərdüşti, Zərdüşt.

Talayaydım o Bağdadı,
Qalmıyaydı heçcə zadı,
Alaydım qəsri-Şəddadı,
Dolanaydım həşti, həşti.

Alaydım bir mülki-Rumi,
Əkəydim yerində qumi.
Qalmıyaydı onda bumi,
Olaydılar dəşti, dəşti.

Nəbati, bu cismi-mürdə
Aram tapdı bircə xırda.
Saqi, çox olmuş əfsürdə,
Dur mey gətir kəşti, kəşti.

* * *

Sənə qurban, gətir saqi,
Bircə piyalə, piyalə.
“Qallu bəli”dəndir qismət
Mənə nəvalə, nəvalə.

Gəl, Allaha təvəkkül et,
Ərənlərə təvəssül et,
Hafizə bir təfə’ül et,
Gör nə gəlir falə, falə.

Meyxanələr abad olsun,
Sakinləri dilşad olsun,
Məscid görüm bərbad olsun!
Saldı məni qalə, qalə.

Gəl qoy başə sən bu tacı,
Alginən eldən xəracı,
Yad elə şahi-me’racı,
Vilayəti, alə, alə.

Nəbati, qəmdən bükülmə,
Bərgi-xəzan tək tökülmə.
Dəi sellər tək sökülmə,
Çəkmə dəxi nalə, nalə.

* * *

Abad olsun görüm, yarəb,
Künci-meyxanə, meyxanə!
Kim, yetişdi onda dərdim
Yaxşı dərmanə, dərmanə.

Şükr olsun, iyzədi-mənnan
Eylədi dərdimə dərman,
Qərq eylədi piri-muğan,
Məni ehsanə, ehsanə.

Durma, saqi, aman hey-hey!
Dur gətir ver cami-mey, mey,
Genə işim düşdü ey, ey,
Şahi-mərdanə, mərdanə!

Atı Düldül, qulu Qənbər,
Zövci-Zəhra, babi-şəbbər,
Gözəl adı verib zivər
Çərxi-gərdanə, gərdanə.

Nəbati, nə çəng olmusan?
Yoxsa məsti-bəng olmusan?
Niyə genə dəng olmusan?
Dur ey, divanə, divanə!

* * *

İşim, peşəm od yandırmaq,
Qərib atəşpərəst oldum!
İçdim südü, çəkdim bəngi,
Əcaib şiri-məst oldum!

Qoy əldən cami-şərabı,
At getsin çəngü rübabı,
Tez ol, çək şişə kababı,
Mən ki, məsti-ələst oldum.

Keçdim tamami-aləmdən,
Süleyman ilə Xətamdən,
Guya deyildim Adəmdən,
Bir hübab idim, pəst oldum.

Mərhəba kəmana, şəstə, bir tirə,
Doqquz fələkləri tikdim bir-birə,
Rüstəmi-dəstanı etdim bir-birə,
Gör necə qəribə zəbərdəst oldum.

Şikar istər ikən, damə düşdüm mən,
Bir siyahməst olub camə düşdüm mən,
Nəbati, sübh ikən şamə düşdüm mən,
Bir əf'i ilana paybəst oldum.

* * *

Genə gəldi bahar fəsli,
Bülbül gəldi dadə, dadə.
Əhməri güllər açıldı,
Saqi, gətir badə, badə!

Genə səbz oldu çəmənlər,
Güldən bəzəndi gülşənlər,
Çıxmış seyrə gülbədənlər
Hamı üzü sadə, sadə.

Vəh, vəh güldür bu, ya lalə,
Gül üzünə qonub jalə,
Saqi, dur, ver bir piyalə
Dəli Fərhadə, Fərhadə.

Yar yolunda verdim başı,
Yastıq etdim qara daşı,
Döndü, billah, gözüm yaşı
Şətti-Bağdadə, Bağdadə.

Dəli könül, qəm zamanı,
Çox etmə ahü fəğanı,
Çağır Şahi-lafətanı,
Yetsin fəryadə, fəryadə.

Saqi, dur, ver bircə sağər,
Dindən döndüm, oldum kafər,
Tapammadım, qaldı gövhər,
Qə’ri-dəryadə, dəryadə.

Nəbati, dur hər səhərgah,
Oxu həmdü qülhüvvəllah,
Qalmadı əlhəmdü lillah,
Arzın dünyadə, dünyadə.

* * *

Aman, ağa, sənə qurban,
Məni salma nəzərdən sən!
Səndən savay kimsənəm yox,
Məni qovma bu dərdən sən!

Mən getmərəm kuhi-Turə,
Meyl etmərəm narü nurə,
Gətir məni sən bir şurə,
Kəm deyilsən şəcərdən sən.

Pəridə olmaz bu təl’ət,
Mələkdə olmaz bu surət,
Edə bilməm günə nisbət,
Münəvvərsən qəmərdən sən.

Dərdimi etmə ziyadə,
Məni gətirmə fəryadə,
Bir rəhm elə bu Fərhadə,
Gəl bu kuhi-kəmərdən sən.

Lə’li-ləbin nuşixəndi,
Mən neylərəm balı, qəndi,
Öldürdü bu dərdməndi,
Çox şirinsən şəkərdən sən.

Güldə hanı bu təravət?
Gündə hanı bu səbahət?
Dürdə yoxdur bu lətafət,
Müzəyyənsən gühərdən sən.

Qəm eyləmə, Xançobani,
Tapıldı dərdin dərmanı,
Yad elə şahi-Mərdanı,
Bir Əli çək cigərdən sən.,

# Qoşmalar

Susuyubdur genə kimin qanına,
Xumar-xumar baxar hara gözlərin?
Nola bir də dolanaydım başına,
Qurbanı olaydım qara gözlərin!

Müqəvvəs qaşların etginən kaman,
Çəkginən müjgandan tiri-cansitan,
Bu xəstə canımı qılginən nişan,
Qoy etsin köksümü para gözlərin.

Sənubər qamətin, ey sərvi-rəftar,
Şümşadü ər'əri etdi şərmsar,
Nə yalqız etmisən məni xarü zar,
Çoxları gətirib zara gözlərin.

Arizin dövründə zülfi-müşginab,
Qoymaz şəfəq salsın qürsi-afitab,
Hökm qıl götürsün sayəsin səhab,
Bu dərdə eyləsin çara gözlərin.

Üzün şə'şəəsi, ey şəm'i-Çəkil,
Xurşidi-xavəri etdi münfəil.
Belə ki, eşq odu oldu müştəil,
Çəkdirə həqq məni dara gözlərin.

Xədəngi-xunrizin, ey şirin mənzər,
Xosrovu təxtindən etdi dərbədər.
Həlqə edib əldə zülfi müənbər,
Nə sehr oxur genə mara gözlərin?

Təzə gültək açılısan səhərdən,
Müzəyyən olusan lə'lü gühərdən,
Yaxşı saldın Nəbatini nəzərdən,
Əcəb mail olmuş xara gözlərin!

* * *

Saqi, nə yatmısan, dur ayağə, dur,
Qoyma qəza qalsın həngami-tərəb.
Xurşidi-xavəri bürci-Hutdən
Seyr üçün Həməli etdi müntəxəb.

Hər gün öz yarını çəkib ağuşa,
Bülbüllər məst olub gəlib xüruşa,
Yatma, yatma, ayıl, sən də gəl huşa,
Götür piyaləni, doldur ləbaləb.

Dolandır başına cami-gülgunu,
Sədayə çulqaşdır dəştü hamunu.
Gətir yada Fərhad ilə Məcnunu,
Nalə çək, degilən əl'əfvüllaləb.

Durma ki, dünyanın yox e'tibarı,
Qənimət bilginən beş gün baharı.
Özünə həmdəm qıl bir gül'üzarı,
Bir çəmən küncündə hər ruz ta şəb.

Meydani-eşq içrə səyirtdim atı,
Müsəxxər eylədim Rumü Heratı.
Möhtərəm oğluyam, adım Nəbati,
Zatımız haşimi, əslimiz ərəb.

* * *

Səba, məndən söylə o gül'üzarə,
Bülbül gülüstanə gəlsin, gəlməsin?
Bu hicran düşkünü, illər xəstəsi
Qapına dərmanə gəlsin, gəlməsin?

Mən qurbanı olum ənbər tellərin,
Qönçə dodaqların, püstə dillərin,
O lalə rüxsarın, mişkin xalların
Oduna pərvanə gəlsin, gəlməsin?

Gözüm çox həsrətdir xumar gözünə,
Günəş camalına, şəkər sözünə,
Utanıram, necə deyim üzünə,
Dərdin xəstə canə gəlsin, gəlməsin?

Dolaşdır boynuma şümşad qolunu,
Qucaqlayıb qucum incə belini,
Lə'li-ləbin əmim, sorum dilini,
İstər ölü canə gəlsin, gəlməsin?

Nəbati istəməz sənsiz dünyanı,
İzzəti, hörməti, şövkəti, şanı,
Bir zada qalmayıb daha gümanı,
Bu baş o meydanə gəlsin, gəlməsin?

* * *

Şeyda bülbül, fəğan etmə, qəm yemə,
Bu gün, sabah gül açılır, yaz olur.
Əziz saxla, qənimət bil vücudun,
Vəfası yox gülün, ömrü az olur.

Deginən Fərhada, ey möhnətpişə,
Şirindən incimə, çal daşa tişə.
Aşiq mə'şuq arasında həmişə
İşvə olur, qəmzə olur, naz olur.

Gedər, candan çıxar daği-həsrətin,
Artar gündən-günə şanü şövkətin,
Sübhi-vəslə yetər şami-firqətin,
Diləyin, mətləbin hamı saz olur.

Xədəmələr durar sağü solunda,
Cəvahir bazubənd iki qodunda,
Fəvvarələr işlər daim gölunda,
Yaşıl başlı ördək olur, qaz olur.

Nəbati, sevmişəm bir dilsitanı,
Bir sözü gülşəkər, qönçə dəhanı,
Daha faş eyləmə sirri-nihanı,
Aşiqin könlündə yüz min raz olur.

* * *

Allah, Allah, bu dilbəri-simbər
Hansı bəxtəvərin cananəsidir?
Dağıtdı başımdan əqlü huşumu,
Bu necə dəryanın dürdanəsidir?

Hər kim görsə camalını aşikar,
İxtiyarı gedib olur biqərar,
Görəsənmi, yarəb, hansı dilfikar,
Bu şəm'i-rüxsarın pərvanəsidir?

Özü şirin, sözü şəhdü şəkərriz,
İşvəsi dilrüba, qəmzəsi xunriz,
Yanağı bərgi-gül, zülfü dilaviz,
Dəhanı mirvari xəzinəsidir.

Xəcil etmiş üzü şəmsi-xavəri,
Hilal edib qaşı bədri-ənvəri,
Nə yalqız eyləmiş məni-sərsəri,
Çoxlar Məcnun kimi divanəsidir.

Yolum düşsə xərabati-xərabə,
Deyərəm ərzimi cami-şərabə.
Nəbatiyə neylər bu bir qürabə,
Yeddi dərya onun peymanəsidir.

* * *

Genə gözüm düşdü bir məhcəmalə,
Ağ üzündə qara müşkin xalı var.
Həlqə-həlqə olub zülfi-müşkini,
Lovhəşəllah, əcəb qəddi-dalı var!

Yanaqları lalə, gözlər badami,
Bağrımı qan etdi lə'li-gülfami,
Nə oldular, yarəb, Xosrovi-nami,
Xosrovü Şirinin min məqalı var.

De gəlsin saqiyə, qursun büsatı,
Mürəttəb eyləsin bəzmi-nişatı,
Tez olun, yandırın şəm'i-simatı,
Döşəyin məclisə hər nə qalı var.

Səfheyi-rüxsarı bədri-münəvvər,
Döşənib üstünə zülfi-müənbər,
Dişlərin mirvari, dəhanı şəkkər,
Ləblərinin əcəb dadlı balı var.

Gəzəsən aləmi cümlə sərtapa,
Tapılmaz bir belə sərvi-dilara.
Dəyməz bir muyinə, həqq bilir, haşa,
Hər nə bu dünyanın mülkü, malı var.

Yəhərləyin görüm əsbi-gülguni,
Bivəfa görürəm çərxi-gərduni,
Bir dəxi seyr edim tərfi-hamuni,
Divanə könlümün yüz məlalı var.

Mən dedim bəs Xançobani cavandı,
Bir igid oğlandı, bəbri-jəyandı,
Demə ki, qocalıb, qəddi kəmandı,
İndi gördüm saqqalının çalı var.

* * *

Genə mövcə gəlib dəryayi-çeşmim,
Bir-birə toxunub ümmanə döndü.
Zövrəqi-cismimi verdi qərqabə,
Təlatüm eyləyib tufanə döndü.

Ümidim çox idi yetəm dildarə,
Deyəm ərzi-halım o nazlı yarə,
Əcəl fərmanından dönmək nə çarə,
Yetmədim, ümidim hirmanə döndü.

Nə faidə keçən günü saymaqdan,
Ölüm yeydir yarsız diri qalmaqdan,
Nə iş bitər bica külüng çalmaqdan,
Mey tükəndi dəxi, peymanə döndü.

Heç igid düşməsin yarından cüda,
Mənim tək qalmasın zarü binəva.
Bəs ki, gecə-gündüz dedim: ya xuda,
Ciyərim od tutub büryanə döndü.

Nəbati, nalə qıl, getdi dildarın,
Sovuldu güllərin, soldu gülzarın,
Nə durmusan, nədir bu intizarın,
Dur köç eylə, vəslin hicranə döndü?!

* * *

Genə Leyli, Leyli çıxmış seyranə,
Aşiqin axtarır dilində Məcnun.
Yanında bir neçə işvəli qızlar,
Gəzir çöldən-çölə, hamun bəhamun.

Hər zaman oturur bir bulaq üstə,
Qabağında şərab, məzəsi püstə,
Gül tək əldə tutub, göz dikib dosta,
Günüzlü badədən sağəri-məşhun.

Dərər, dəstə bağlar yaxşı gülləri,
Dodaq altdan gülər şirin dilləri,
Əfşan eylər hərdəm üzə telləri,
Heyran-heyran baxar didəsi pürxun.

Gahi rəqsə gəlib oynar məstanə,
Gahi cuşə gəlib olur divanə,
Gahi bülbül kimi gəlir əfğanə,
Ağlar, ağlar, oxur əbyati-mövzun.

Nəbati, əbsəm ol, sığın mövlayə,
Qul olub əbəsə düşmə səhrayə,
Qəvvas tək qutə vur bir bu dəryayə,
Cəhd qıl tapasan bir dürri-məknun.

* * *

Səba, bu ərzimi yetir səyyadə,
Söylə, bağışlasın xudayə məni.
Taqətim kəsilib künci-qəfəsdə,
Mürəxxəs eyləsin bir ayə məni.

Əgərçi bilirəm çoxdur günahım,
Dəxi ondan özgə yoxdur pənahım,
Deginən: ümidim vardır ki, şahım
Əfv etsin ayeyi-vəfayə məni.

Gecələr sübhədək işim nalədir,
Ağlamaqdan gözüm qan piyalədir,
Canım bütün qara dağlı lalədir,
Yetirsin Zəmzəmi-səfayə məni.

Məlamət çəkməkdən yetişdim canə,
Əridi ürəyim, döndü al qanə,
Səba, ərzim budur şahi-cahanə,
Dəxi çox salmasın sədayə məni.

Nəbati, Məcnun tək gahi ağladın,
Uşaqlar yığıb dəstə bağladın,
Gahi qələndər tək özün dağladın,
Axır ki, gətirdin hərayə məni.

* * *

Sevdiyim, gözlərin aldı canımı,
Yağı qəmzələrin qanımı tökər,
Düşsə hər kim, dəxi çıxmaz torundan,
Görüm bu zülfdür ya ki, müşki-tər?

Başına örtübdür tirmeyi-abi,
Qaşları başlayıb nazü itabi,
Aman, saqi, gətir ol meyi-nabi,
Bu cəlladın qılıncından əlhəzər!

Xəcil etdi üzün güli-əhməri,
Oda yaxdı zülfün müşkü ənbəri,
Şərməndə eylədi lə'lü gövhəri,
Görüm bu qönçədir, ya tüng-şəkkər?

Bu necə nərgizdir, bu necə gözdür?
Bu necə lalədir, bu necə üzdür?
Bu necə şəkərdir, bu necə sözdür?
Nə belə lə'l olur, nə belə gövhər.

Nəbati, gül gəldi, açıldı lalə,
Çəkginən bülbül tək gülşəndə nalə,
Sənə qurban, saqi, dur, ver piyalə,
Salginən canıma meydən bir şərər.

* * *

Bülbül kimi gül üzünə müştaqəm,
Tuti quşu dilli sənəm, ey sənəm,
Al-əlvan yanaqlı, nərgiz baxışlı,
Bənəfşə tək iyli, sənəm, ey sənəm.

Hər kim görsə səni olur divanə,
Düşər Məcnun kimi dağa məstanə,
Qurbanı olduğum yetişdi canə,
Qara həbəş xallı, sənəm, ey sənəm.

Ləbi qönçə, dişi dürri-müsəffa,
Məməsi şəmamə, buxağı alma,
Dəhanı gülşəkər, zülfü dilara,
Cibi, qoynu hilli, sənəm, ey sənəm.

Qəmzən oxu od vurubdur canıma,
Cəllad gözün susuyubdur qanıma,
Başına döndüyüm, gəl bir yanıma,
Sərxoş, incə belli sənəm, ey sənəm.

Nəbatinin yetir baği-vüsalə,
Nahaq qan eyləmə, batma vəbalə,
Eşqin məni döndəribdir hilalə,
Adı, sanı bəlli, sənəm, ey sənəm!

* * *

Genə bahar oldu, açıldı güllər,
Bülbül naləsindən tutulur qulaq.
Gül gülə sarmaşıb, çiçək çiçəyə,
Lalə cami-Cəmdən gətirib soraq.

Səbzü xürrəm olub dəştü kuhsar,
Dəm vurar cənnətdən tərfi-cuybar,
Əyaq götür, saqi, durma intizar,
Məni bir cam ilə eylə tərdəmağ.

Aləmdə xeyri şər nə olsa hadis,
Hökmi-yəzdan olur o əmrə bais.
Demə, zahid, meyə "ümmülxəbais"
Sən anlayammasan, yeri hay ulağ!

Cəfayə üz qoydu çərxi-bivəfa!
Dərdi-hicrə məni etdi mübtəla,
Doğru söz, müxtəsər, mən bəxti-qəra
Bir dəm yarə yetib tapmadım fərağ.

Demə Nəbatinin yoxdu dəvamı,
Cövrümə tab etməz, çəkməz cəfamı,
Şahid olsun aləm cümlə, təmamı,
Nə qədər istərsən çək sinəmə dağ!

* * *

Səba, bu məhcuru bir şad eylə sən,
Yetir bu peyğamı canana məndən:
Niyə bu məcnunu etmiş fəramuş,
Nədən ötrü olub bigana məndən?

Yetişcək yanına o sərvinazın,
Başına bir dolan o şahbazın,
Ondan sonra söylə razü niyazın,
Yalvara-yalvara o xanə məndən.

Öp əllərin, ondan düş ayağına,
Pərvanə tək fırlan solu-sağına,
Bülbül kimi sarmaş gül budağına,
Ərz qıl icz ilə sultanə məndən.

Dərdi-hicrin tökdü bərgü barımı,
Xəzanə döndərdi növbaharımı,
Ondan söyləginən hali-zarımı,
O qaşı yay, gözü məstanə məndən.

Qulaq ver, eyləsə hər nə dürəfşan,
O püstə dil-dodaq, o şəkkər dəhan,
Gətir Nəbatiyə ondan bir nişan,
Dürüst yetişginən fərmanə məndən.

* * *

Genə İsgəndər tək düşdüm zülmatə,
Qabağımı kəsib yuz min bəhrü bər.
İgidliyin, mürüvvətin çağıdır,
Yetiş fəryadıma, ey Xizri-rəhbər!

Tülu' etməz nədən "şəmsi-vəzzüha"?!
Fənayə baş çəksin "leylətüddüca",
Yoxsa yatıb məgər nəsimi-səba,
Məşamıma yetməz nəfxeyi-səhər?

Üzümə bir su səp, ey əşgi-gülgun,
Qoyma yatsın qafil biçarə Məcnun,
İtirmiş Fərhadın kuhi-Bisütun,
Şirin-Şirin səslər, tapmaz bir əsər.

Yara qurban deyən dili lal etdim,
Möhr edib ağzımı, tərki-qal etdim,
Əlif tək qəddimi bükdüm, dal etdim,
İndi görək bu kəmanı kim əyər?

Nəbati, minginən Rəxşi-hümməti,
Seyr elə sərbəsər dəşti-vəhdəti,
Qoyma çıxsın əldən vəqti-fürsəti,
Heyifsən, dünyadan getmə bixəbər!

* * *

Məni Məcnun edən yari-pərivəş,
Taqətim kəsildi, yetişdim canə.
Bir yol öldür məni, çevir başına,
Bircə rəhmin gəlsin bu natəvanə.

Qurban olum sənin gül yanağına,
Ala gözlərinə, dil-dodağına,
İstərəm dolanım solu-sağına,
Necə kim, dolanır şəm'ə pərvanə.

Kim oldu mənim tək bəxti vajgun,
Gözü qanlı yaşlı, halı digərgun?
Hanı, nə oldular Fərhadü Məcnun,
Gələydilər fəryadımdan əmanə?

Mən öləndə məni qoymun məzarə,
Odun yığın, vurun ona şərarə,
Məni atın, siz çəkilin kənarə,
Qoyun şö'lələnsin, çəksin zəbanə.

Aşiq olan xovf eləməz bəladən,
İncimaz yar edən cövrü cəfadən,
Nəbati, əl çəkə kimdir vəfadən?
Qoymuşam başımı mən bu meydanə!

* * *

Gün yetdi zəvalə, döndü axşamə,
Yandı pərvanənin çırağı genə.
Deginən saqiyə düşsün dövranə,
Gərdişə gətirsin əyağı genə.

Nə müddətdir xəbərim yox o qızdan,
Neçə ildir ayaq çəkibdir bizdən,
Bu saətdə onu istərəm sizdən,
Görün harda gəlir sorağı genə.

Cəlladi-cansitan susuyub qanə,
Xədəngi-zərnişan qoyub kəmanə,
Əlində cami-mey gəldi məstanə,
Qanımı tökməyə o yağı genə.

Məni görcək üzə tutdun niqabı,
Bəhanə eylədin şərmü hicabı.
Səndə yoxdur məgər vəfa kitabı,
Gözümdən açmısan bulağı genə.

Demədim, sirrini demə əğyarə,
Səni məndən cüda qılar, nə çarə,
İndi ki, hicr odu çəkdi şərarə,
Qoyma sən gülşənə o zağı genə.

Eşqindən əridim, döndüm hilalə,
Günüm başa gəldi, yetdim zəvalə,
Bir nəzər qıl, gör düşmüşəm nə halə.
Haçana din gəzim bu dağı genə!

Nəbati, nalədən əsər olmadı,
Gördüyün işıqdan şərər olmadı,
Bu şəcərdən sənə səmər olmadı,
Dur, bir də gəzginən bu bağı genə.

# *Təcnislər*

Mənim bəxtim kimi taqü rəvaqın
Fələk, görüm, dönsün o üz bu üzə!
Günəş çıxar məgər səmti-məğribdən,
Əgər bir yol dəysin o üz bu üzə?

Hər günüm hicrindən dönüb bir ayə,
Gecə-gündüz zikr elərəm bir ayə,
Səni Tari, üzün göstər bir ayə,
Heç görüm oxşarmı o üz bu üzə?

Kövkəbi-taleyin oldu sünbülə,
Yaxşı müqabil et günü sünbülə,
Qoyma dəstələnsin sünbül sünbülə,
Bir döndər xərməni o üz bu üzə.

Adəm yeyən barı danə bilmənəm,
Görmüşəm xalını dana bilmənəm,
Dilbər, səndən özgə da nə bilmənəm,
Əbəs məni atma o üz bu üzə.

Nəbati, qəmliyəm, mey tök əyağə,
Pillə tək quruldum düşdüm ayağə,
Bundan artıq məni salma ayağə,
Sail kimi durum o üz bu üzə.

* * *

Başına döndüyüm, bu necə haldır,
Dinməmiş deyirsən: ay nədir, nədir?
Başım çıxmaz mənim sənin dilindən,
Buyurginən görüm ay nədir, nədir?

Qurban olum üzündəki həyayə,
Qəmzə oxun mindirginən hey yayə,
Nə baxırsan maral kimi hey ayə?
Cəmalın yanında ay nədir, nədir?

Gözüm qan kasası, ürəyim şişə,
Məni kabab kimi çəkmisən şişə,
Rəqibi görüm ki, dam kimi şişə!
İllər illər çəkə, ay nədir, nədir.

Nə baxırsan o sultanə, bu xanə?
Çox adamlar gəldi getdi bu xanə.
Genə bu gün işıqlanıb bu xanə,
Bilmirəm görünən aynədir nədir?

Həmd olsun Allaha, getdi a çillə!
Nəbati, az qaldı güllər açilə,
Bu müşkülüm, yarəb, kimdən açilə?
Yar dəstində tutan aynədir nədir?

* * *

O tərlan baxışın qurbanı canım,
Boy çəkib gözlərin gözlər, nə gözlər!
Amaci-sinəmi novki-müjganın
Qoyub nişanəyə gözlər, nə gözlər!

Nə qələtdir düşüb üz arasına,
Onu bilmək olmaz üz, arasına,
Əgər qəvvas isən, üz arasına,
Bir gör axır ondan gözlər, nə gözlər!

Təcəllasan, buyur Sina dağına,
Əgər görsən məni, Sinada, qına,
Qoyma rəqib baxsın sinə dağına,
Yamandır gözləri, gözlər, nə gözlər!

Yeni aydı, amma nə sövdası var,
Nöqsanına bax, gör nə sov dası var,
Heç bilmənəm başda nə sevdası var,
Ağlar, ağlar, deyər gözlər, nə gözlər!

Nəbati kül oldu, yandı Sinada,
Bu alovdan bir od düşsün sana da,
Deyəmməzəm, necə deyim sına da,
De görüm görmüsən gözlər, nə gözlər?

Əhvəl olma, bir nöqtədir hər ucu,
Bir dövrdə dolanırlar hər üçü,
Nəbatinin sultanıdır hər üçü,
Bu idi mən deyən gözlər, nə gözlər!

* * *

Sənin tək şəhbazi-sərvqamətə,
Bir cürə tərlanın ayağı gərək,
Gəmişən saatda kəbkü turacə,
Qaynağının dəmi, ayağı gərək.

Əyninə geyəsən gündə minalı,
Beli bağlı xəncər, dəstə minalı,
Qurulsun məclisin çəngü mənalı,
Əlində saqinin əyağı gərək.

Qabağınca neçə yedək çəkilə,
Səni görcək xanzadələr çəkilə,
İrişə şöhrətin Çinü Çəkilə,
Deyələr şahlığa ayağı gərək.

Səhər axşam təblü nayın buqlana,
Çəkilə düşmənin, dara bağlana,
Plov qazanların üstə buğlana,
Yaxşı bollu əti a yağı gərək.

Səba, bu ərzəni ələ salma ya,
Mənim salamımı yetir Səlmaya,
Niyə gərək məni yada salmaya,
Onun Nəbati tək ayağı gərək.

* * *

Könlüm gülzarında, qış mövsimində,
Açılıb təzə gül, di dər, ay Pəri!
Həsrət öldüm, heyif görmədim üzün,
Qaldı qiyamətə didar, ay Pəri!

Çəkin getsin, mən minmənəm yad ata,
Sevə bilməz özgə oğlun yad ata,
Bu yorğun maralı qoyma yad ata,
Özün xədəngină didər, ay Pəri!

Keçə bilməm, bu dəryalar dərindir,
Ölənədək yerim sənin dərindir,
Dur ağacdan almaları dər endir,
Bir-bir otaqlara didər, ay Pəri!

Xoş yaraşıb bazubəndlər bu qara,
Sona tellim, sənə düşməz bu qara,
Bundan artıq dözmək olmaz bu qara,
İnsafa gəl, dur aç didar, ay Pəri!

Ömrüm başa gəldi uzun gecələr,
Bu yatmamaq vallah, məni gic elər.
Niyə bilməm Gəzgəz ünü gec elər?!
Dur gəl ki, vaxt oldu di dar, ay Pəri!

Həsrət toxmun mən də əkdim dəminə,
Səni Allah, atdan düşmə, de minə.
Bir düşəsən Nəbatinin dəminə,
Səni tərlan kimi didər, ay Pəri!

* * *

Eşqi başa vurub söz deyən aşiq,
Gəl, görüm görmüsən bu göz kimi göz?
And olsun Allaha, həyyü layəzal
Xəlq edəməz bir də bu göz kimi göz.

Niyə zülfün genə üzdən yan durmuş,
Məni oxlamağa Gəzgəz yan durmuş,
Çox fəqiri fələk yaxıb yandırmış,
Heç kafir görməsin bu köz kimi köz.

Bu müşkilin heç görünməz asanı,
Dağ-düyünün yoxdur dəxi a, sanı,
Görüm Allah hifz eyləsin a səni,
Bədnəzər düşməyib bu göz kimi göz.

Yaxşı olur evdə südünən sağın,
Heykəlsiz olmasın sol ilə sağın,
O köpəkdən, gözüm, həzər et, saqın!
Şirin olmaz çeşmə bu göz kimi göz.

Bilməm fələk məni kimə cur etdi,
Aşığım durmamış qapdı, çur etdi.
Gözüm yaşı Nəbatini çürütdü,
Dilim yandı, dedim "bu göz kimi köz".

* * *

Qurbanı olduğum oxun düz yayə,
Bu xəstə canımı gözə, dər, gözə.
Yaxşı gözlə, göz ürkütmə gözündən,
Dürüst nişanəni gözə, dər, gözə.

Genə işıq salıb ay nə dəstinə!
Bəxtəvər üz sürtüb ayna dəstinə,
İndi ki almısan iynə dəstinə,
Bu şan-şan bağrımı gözə, dər, gözə!

Sən bilməsən rəqib necə dağ elər,
Məcnun tək seyr etdim neçə dağlər,
Fələk məni səndən nə cüda qılar,
Məgər göz olmuşdum gözədir gözə.

Necə qıydın o tel darağa gedə?
Belə gözlərimdən dür axa gedə.
Qoyma cəbinindən tər axa gedə,
Deyillər ziyandır gözə tər gözə.

Heç kim Nəbati tək kam allanmadı,
Eşq kitabından kamallanmadı,
Dalına dar gəldi komalanmadı.
Görüm mıx sancılsın gözə, dar gözə!

* * *

Məcnunlar adını çəkən təhrirə,
Nola sərdəftərə o, yaza məni.
Deyirər bu idi zikri Məhmudun:
"Durun, qurban edin Ayaza məni".

Genə sağ qalmışam, belə yarə, mən?!
Kəlbin tək kuyunda yatam yerə mən,
Gizlin sirrim gedim deyim yarə mən,
Bir ağac götürə, ay əzə məni.

Xoş nəğmədir nəğmələrdə Busəli
Gül cəmalın gördüm min yol busəli,
Ovçu tək istərəm yolun busalı,
Gələ birdən keçə, ay aza məni.

Saçı sünbül, üzü gül-gül, göz ala,
Göz istəməz gözlərindən göz ala,
Bu şan-şan bağrımı gül-gül köz elə,
Qənaət vergilən o yaza məni.

Nəbati tək dəryalərə üzəsən,
Siyah zülfün əfşan eylə üzə sən,
Qəmər tək buluddan bir çıx üzə sən,
Çox da verməginən ayaza məni.

* * *

Ala gözlüm, bu dərd məni öldürər,
Sanma bu azardan ayılan məni.
O zaman ki, əcəl gülüm soldurar,
Qəbrim üstə oxu, ay ölən, məni.

Müjgan oxun çək bir-bir at sinəyə,
Mə'şuq gərək aşiqini sınayə.
Deməginən dəxi gəlmə Sinayə,
Edə bilməz səndən ayrı "Lən" məni.

Heç görükmür şəfa üzü bu tərdə,
Yox, əzizim, çarə yəqin bu dərdə,
Qoyun, barı, can tapşırım bu dərdə,
İndi ki, bilmisiz ay ölən məni.

Eşq bu xərabı tutdu tabına,
Məni saldın zülfün piçü tabına,
Qurban olum ürəyinin tabına,
Bir yada salmasan ay ilən məni.

Zülfün bürci-əqrəb, bənzər yüz ayə,
Belə gün var bərabərdir yüz ayə,
Nəbati, çarə yox desən yüz ayə,
Sancacaq bilmirəm ay ilan məni.

# *Farsca şeirlər*

Pərü bali-bəstə darəm,
Hələ ləng, ləng, ləngəm.
Təni zarü xəstə darəm,
Hələ ləng, ləng, ləngəm.

Nə mərizü, nə təbibəm,
Hələ ləng, ləng, ləngəm.
Nə həbibü, nə rəqibəm,
Hələ ləng, ləng, ləngəm.

Nə gəlu, nə nay darəm,
Nə xirəd, nə ray darəm,
Nə beseyr pay darəm,
Hələ ləng, ləng, ləngəm.

Nə sərəm, nə huş darəm,
Nə kərəm, nə guş darəm,
Nə bərəm, nə duş darəm,
Hələ ləng, ləng, ləngəm.

Nə zibəlğəməm, nə sövda,
Nə zixunəmü, nə səfra,
Və nə əzmənəm, nə əzma,
Hələ ləng, ləng, ləngəm.

Nə mükəddərəm, nə şadəm,
Nə zixakəmü, nə badəm,
Nə nihan, nə aşikarəm,
Hələ ləng, ləng, ləngəm.

Nə zibadə sərxoşam mən,
Nə ziğəm müşəvvəşəm mən,
Nə ziabü atəşəm mən,
Hələ ləng, ləng, ləngəm.

Nə çü qonçə dər şüküftəm,
Nə qəməş bə dil nühüftəm,
Nə nəəm, nə laşünüftəm,
Hələ ləng, ləng, ləngəm.

Nə şərabiyəm, nə bəngi,
Nə müğənniyəm, nə çəngi,
Nə xəyaliyəm, nə rəngi,
Hələ ləng, ləng, ləngəm.

Nə rəfiqi-bustanəm,
Səgi-kuyi-dilsitanəm,
Nə qərini-gülsitanəm,
Hələ ləng, ləng, ləngəm.

Nə sitarəyəm, nə mahəm,
Nə miyani-in dü rahəm,
Nə gəda, nə padişahəm,
Hələ ləng, ləng, ləngəm.

Nə zəmin, nə asimanəm,
Nə diyari-laməkanəm,
Nə əzinü, nə əzanəm,
Hələ ləng, ləng, ləngəm.

Nə pəri, nə cin, nə insan,
Nə fülanəmü, nə behman,
Nə mələk, nə hurü qilman,
Hələ ləng, ləng, ləngəm.

Nə zikanü mə’dənəm mən,
Nə “mən”əm, nə “mən mən”əm mən,
Nə zigəncü məxzənəm mən,
Hələ ləng, ləng, ləngəm.

Nə cəvanəmü, nə pirəm,
Nə səğirü, nə kəbirəm,
Nə kəmanəmü, nə tirəm,
Hələ ləng, ləng, ləngəm.

Nə zilə'li-bibəhayəm,
Nə zidürri-bisəfayəm,
Nə nəva, nə binəvayəm,
Hələ ləng, ləng, ləngəm.

Nə hüluliyəm, nə dəhri,
Nə riyaziyəm, nə cəfri,
Nə kənariyəm, nə bəhri,
Hələ ləng, ləng, ləngəm.

Nə bexud müqəyyədəm mən,
Nə zixud mücərrədəm mən,
Nə Əli, nə Əhmədəm mən,
Hələ ləng, ləng, ləngəm.

Nə müridəmu, nə ustad,
Və nə bəndəəm, nə azad.
Və nə Vamiqəm, nə Fərhad,
Hələ ləng, ləng, ləngəm.

Nə mehəm, nə əzməhənəm,
Nə kehəm, nə əzkəhanəm,
Nə şahəm, nə əzşəhənəm,
Hələ ləng, ləng, ləngəm.

Nə münəcciməm, nə kahin,
Nə bəzarean gəvahin,
Və nə sahiri-mədahin,
Hələ ləng, ləng, ləngəm.

Nə əzizəmü, nə xarəm,
Və nə nurəmü, nə narəm,
Nə xəzanü, nə bəharəm,
Hələ ləng, ləng, ləngəm.

Nə Təhəmtənəm, nə Zaləm,
Nə tülu', nə zəvaləm,
Nə Bəşirü, nə Bilaləm,
Hələ ləng, ləng, ləngəm.

Nə siyəh, nə rövşənəm mən,
Nə zibağü gülşənəm mən,
Nə zireh, nə covşənəm mən,
Hələ ləng, ləng, ləngəm.

Nə İraqiyəm, nə Rumi,
Nə qəribəmü, nə bumi,
Nə Səhariyəm, nə Novmi,
Hələ ləng, ləng, ləngəm.

Nə zikafəmü, nə əznun,
Nə əzin dü hərf birun,
Nə Nəbatiyəm, nə Məcnun,
Hələ ləng, ləng, ləngəm.

Nə Nəbatiyəm, nə bəngi,
Nə məcusü, nə firəngi,
Nə musalehəm, nə cəngi,
Hələ ləng, ləng, ləngəm.

* * *

Zişərabi-şövq məstəm,
Hələ şuxü şəng, şəngəm.
Səri-xari-ğəm şikəstəm,
Hələ şuxü şəng, şəngəm.

Nə becami-badə rağib,
Nə beruyi-sadə talib,
Mənəm in xəyali-Saib,
Hələ şuxü şəng, şəngəm.

Nə bəsər səri-səyahət,
Nə bekəs rəhi-rəfaqət,
Mənü mənzili-qənaət,
Hələ şuxü şəng, şəngəm.

Nə bevəhdətəm qərari,
Nə bekəsrətəm mədari,
Nə bexidmət ixtiyari,
Hələ şuxü şəng, şəngəm.

Nə məra bekəs nigahi,
Nə məra ümidgahi,
Mənəm in nəməd-külahi,
Hələ şuxü şəng, şəngəm.

Nə müvəhhidəm, nə vahid,
Nə müəbbidəm, nə abid,
Nə brəhmənəm, nə zahid,
Hələ şuxü şəng, şəngəm.

Nə bexəndə çün güləm mən,
Nə benəğmə bülbüləm mən,
Nə bezülf sünbüləm mən,
Hələ şuxü şəng, şəngəm.

Nə məra bədayətü kiş,
Nə məra qəmi-kəmü biş,
Nə qələndərəm, nə dərviş,
Hələ şuxü şəng, şəngəm.

Nə çü gül bahar darəm,
Nə xəbər ziyar darəm,
Nə zimey xumar darəm,
Hələ şuxü şəng, şəngəm.

Nə beməhfiləm çirağí,
Nə beməclisəm əyağí,
Mənü guşeyi-fərağí,
Hələ şuxü şəng, şəngəm.

Nə nüquşi-batiləm mən,
Nə zinütfə hasiləm mən,
Nə zixiş qafiləm mən.
Hələ şuxü şəng, şəngəm.

Nə Nəbatiyəm təxəllüs,
Zinəsəb məkon təfəhhüs,
Begüzəştəm əztəşəxxüs,
Hələ şuxü şəng, şəngəm.

# Təkbeytlər

Bu çöl olmuşda mənim başıma çox iş gəldi,
Yetməmiş yayə, xəbər gətdilə ki, qış gəldi.

* * *

Səzadır gər şikayət eyləyim bu çərxi-kəcrövdən,
Çıxartdı küyi-dilbərdən, məni zəncirə tuş etdi.

* * *

Gərdun cəfayə rağib, bari kəs iltifatın,
Ta olmasa məhəbbət, xoş gəlməz ixtilatın.

* * *

Atəş kənarı, kürsi qıçı, dilbərin üzü,
Tari bilir ki, qış gününün laləzarıdır.

* * *

Elə addım götür ata biləsən,
Elə loqma götür, uda biləsən.

# Rübailər

Saqi, işimiz naləvü əfqan oldu,
Zülfün kimi halımız pərişan oldu,
Qoydun yerə camı, bizdən üz döndərdin,
Bir busə dedik ver bizə sən, qan oldu.

Gəldi genə fəsli-növbahar, ey saqi,
Bəs harda qalıb o gül'üzar, ey saqi,
Meyxanəyə get, gətir onu məstanə,
Vermə mənə munca iztirar, ey saqi.

Səd şükr ki, qış getdi bahar oldu genə,
Səhra üzü cümlə laləzar oldu genə,
Ver badə içək, cuş qılaq, ey saqi,
Bülbül nə deyir ki, eşqə car oldu genə.

Dur gəl, ey eşq, könül mülkünü bərbad qılaq,
Əqli yəğmayə verək, şəhri-nov abad qılaq,
Gəlginən söz bir edək, qeyri aradan götürək,
Canı canana verək, dəhrdə bir ad qılaq.

Ey badi səba, güzar qıl Təbrizə,
Aləmdə qalıb ümidimiz bir sizə,
Ol sərvqədin kuyinə düşsə güzərin,
Bu naməni ver o zülfi ənbərbizə.

Saqi, gözüm, ol ruhi-rəvanı mənə ver,
Gəl gərdişə, ol rahəti-canı mənə ver,
Qəm dəf'i üçün şəhabi-saqibdir mey,
Qurbanınam, ol tiri-kamanı mənə ver.

Saqi, gətir ol cami-zərəfşanı görək,
Sal gərdişə bir o rahi-reyhanı görək,
İsgəndərə söylə getməsin Zülmatə,
Göstər ona bir o abi-heyvanı görək.

Saqi, mənə bir piyalə şərab gətir,
Yandı cigərim, bir tikə kəbab gətir,
Atəşkədəni qoyma qala əfsürdə,
Dur çıx eşiyə, bir neçə xuttab gətir.

Mən ruzi-əzəldə sevmişəm bir şahi,
Allah deyər, ona əliallahi,
Hər kim ona Allah desə, kafirdir,
Şəkkaldır ol Nəbati tək, vallahi.

Saqi, gətir ol şərabi-müşkinbuyi,
Tök sağərə, ta müəttər etsin kuyi,
Məqsudü murad cami-meydən budu kim,
Sərməst olaq məgər çəkək bir “hu”yi.

Sübh oldu, gətir şərabi-nab, ey saqi,
Etdi məni qəm yaxşı kəbab, ey saqi,
Məstanə götür cami-Cəmi, ver badə,
Saz olmuş əcəb çəngü rübab, ey saqi.

Divanə könül, bəsdi fəğan eyləmə çox,
Razi-dilimi xəlqə əyan eyləmə çox,
Xamuş otur, feyzi-əzəl tap, özünü
Əbnayi-zəmanə həmzəban eyləmə çox.

Meyxanədə mey əcəb bəha tapdı genə,
Hər rindü gəda bu gün nəva tapdı genə,
Aineyi-dil ki, zəngi-qəm tutmuş idi,
Bir cam ilə gör necə səfa tapdı genə!

Etdin bu gecə əcəb səvab, ey saqi,
Verdin genə rindanə cavab, ey saqi,
Ver badə ki, axirət günü eyləməsin,
Allah səni əhli-əzab, ey saqi.

Saqi, nə imiş bu qəmi-dünyayi-dəni?
Dur, badə gətir, məst elə bu bərhəməni!
Fövt eyləmə fürsəti, götür cami görək,
Hər hadisədən saxlasın Allah səni.

Saqi, genə əyyam gülüstan oldu,
Gül təxtə çıxıb, çəməndə sultan oldu,
Hər rindü gəda deyir mənəm şahi-cahan,
Hər qübbərə bir bülbüli-xoşxan oldu.

Saqi, dolanım başına bu cun sənə qurban,
"Yek badə bevayım xani sultun sənə qurban".
Gah türkiyü, gahi ərəbi, gah farsi,
Gah tati, bu "neyçün azu vamun" sənə qurban.

Saqi, gətir ol şərabi-bitəşvişi,
Ol nəş'ə ilə məgər sovaq bu qışi,
Ver faş bu Ərdəbildir, xam olma,
"Xoş şəhrdir, öz vəkilidir hər kişi".

Ey mürğ, bu danə tərkini qıldın, qıl,
Məstanə bu lanə tərkini qıldın, qıl,
Ənqa kimi tut Qafi-qənaətdə məqam,
Bu xəlqi-zəmanə tərkini qıldın, qıl.

Saqi, dur əl at o badeyi-gülrəngə,
Bir cam yetir bu mürği-xoşahəngə,
Ta tərfi-gülüstanə açım bir pərü bal,
Bu künci-qəfəs məni gətirdi təngə.

Saqi, bu Nəbati niyə dəng oldu genə?
Netdin ona, böylə şiri-cəng oldu genə?
Bu badəni gör ki, pərri-tavus kimi,
Bu qətreyi-dil hezar rəng oldu genə.

Saqi, bu qədər xəyaldən hasil nə?
Bu rəncü qəmü məlaldən hasil nə?
Dur badə gətir gərdişə, bir cam yerit,
Bu bihüdə qiylü qaldən hasil nə?

Saqi belə kim, aradə dövran eylər,
Çox aşiqi-biçarəni bican eylər.
Bir cam ilə gər şad edə bu miskini,
Allah bilir ki, yaxşı ehsan eylər.

Ey cani-həzin, bu nalədən bir əl çək,
Qoy bəngi yerə, piyalədən bir əl çək,
Sındır qələmi, dəvatın ağzın möhr et,
Bu hamı yalan məqaldən bir əl çək.

Saqi, bu gecə bəzmi gülüstan etdin,
Bir dövr elədin ki, dövri heyran etdin,
Allah səni hifz eləsin bəd gözdən,
Daim ki, mənim dərdimə dərman etdin.

Ey xacə, cəlal tərkini qıldın, qıl,
Bu malü mənal tərkini qıldın, qıl,
Çün axır olub cəlal bir xabü xəyal,
Bu xabü xəyal tərkini qıldın, qıl.

Ey şeyx, süal tərkini qıldın, qıl,
Bu köhnə çuval tərkini qıldın, qıl,
Getmə dəxi qapulərə, "ha-hu" etmə,
Bu bangi-şəğal tərkini qıldın, qıl.

Ey dust, şərab tərkini qıldın, qıl,
Bu cəngü rübab tərkini qıldın, qıl,
Çün rəncü məlal imiş meyin əncamı,
Bu rəncü əzab tərkini qıldın, qıl.

İyd olsa, cahan xürrəmmü xəndan olacaq,
Hər qətreyi-mey şişədə bir can olacaq,
Bəh, bəh, genə dürdnuşlər bəzmində,
Saqi, yıxılıb, piyalə qəltan olacaq.

Saqi, mənə bir soraq ol Keydən ver,
Ya bircə xəbər o Hatəmi-Teydən ver,
Sevdayi-cününə səmmi-qatildir mey;
Qurban sənə, bir piyalə ol meydən ver.

Meyxanələri həmişə abad istə,
Sən əhlin onun sərv tək azad istə,
Məscidlərə getmə, vaizin tərkin qıl,
Nə ric'ətə ver qulaq, nə miad istə.

Lal etdi genə bir gül bu bülbüli-şeydanı,
Küsdürdü genə məndən yüz qönçeyi-xəndanı,
Bir turş, iki şirin – çox yaxşı müfərrəhdir,
Bu xud ki, müsavidir, molla, biri bəs hanı?

Əsrari-dilim xalqa nümayan oldu,
Hər dilbərə istədim baxım qan oldu.
Bu dəhri-dənidə bəs ki, möhnət çəkdim,
Qəddim bükülüb, misali-çövkan oldu.

Ta mürği-dil aşüfteyi-ol mu oldu,
Qümri kimi kar-barı "ku-ku" oldu,
Bəs ki, gecə-gündüz dedi "hey-hey", "hu-hu",
Yahu kimi məcmu, bədəni "hu" oldu.

Saqi, ətəşi-kəbabə ab eylər əlac,
Mədquqə yəqin şərabi-nab eylər əlac,
Ayineyi-dil zəngi-küdurət tutsa,
Qıl təcrübə kim, qəndü gülab eylər əlac.

Sübh olcaq açıldı könlümüz güllər tək,
Tökdü üzə yar zülfü sünbüllər tək,
Yahu kimi biz də başladıq ya "hu-hu",
Həm nalə çəkib çəməndə bülbüllər tək.

Saqi, mənə bir cam o meydən ver, ver,
Bir türfə xəbər o bəzmi-Keydən ver, ver,
Mütrüb, dur əyağə, rəqs qıl məstanə,
Dadi-dilimi nəvayi-neydən ver, ver.

Saqi, qədəhi əz on meyi-dirinə,
Bir cam də ver bu kafəri-bidinə.
Fövt eyləmə eyşü işrəti fəsli-bahar,
Bir ğülğülə sal bu günbədi-renginə.

Zahid, bu namaz tərkini qıldın, qıl,
Bu rəsmi-məcaz tərkini qıldın, qıl,
Təhtül-hənəki uzatma dəxi, bəsdir,
Bu işvəvü naz tərkini qıldın, qıl.

# Məsnəvi

Ey dilbəri mahmənzəri-mən,
Ey eşqi-to cövr dər səri-mən.
Öldürmə məni ki, binəvayəm,
Bir aşiqi-zari mübtəlayəm,
Yarəb, nə olur tərəhhüm etsən,
Görcək məni bir təkəllüm etsən?
Qoyma məni intizar gündə,
Etmə məni xar, zar gündə.
Qurbanın olum, gəl aşikarə,
Salma məni böylə ah-zarə.
Görməm çü səni, qərar qalmaz,
Görcək səni, ixtiyar qalmaz.
Çox da məni dilfikar qılma,
Böylə məni xarü zar qılma.
Hər bülbülə bir gül oldu həmdəm,
Ondan bu cahanə gəldi adəm.
Ey hur-liqavü mah-peykər,
Yandırma məni fəraqə yeksər.
Rəhm eylə məni yetir vüsalə,
Bu xəstəni qoyma böylə qalə.
Ey qönçədəhanü ənbərin-mu,
Vey lalə-üzarü atəşin xu,
Ey daş ürəkli, bağrı qarə,
Gör böylə baxarmı yar yarə?!
O mehrü məhəbbətin nə oldu?
O lütfü şəfəqqətin nə oldu?
Aya, nə günah eylədim mən?
Mə’lum elə bir ki, neylədim mən?
Ey afəti-canü cismü canım,
Vey rahəti-cani-natəvanım,
Razı deyiləm behiştə sənsiz,
Qılmanü qüsurü hurə sənsiz.

# Müxəmməslər

Gəldi bahar, fəsli-tamaşa əcəb-əcəb!
Etdi cahanı gör necə ziba əcəb-əcəb!
Xürrəm olubdu daməni səhra əcəb-əcəb!
Qümri edibdi sərvdə məva, əcəb-əcəb!
Məsti-tərəbdi bülbüli-şeyda əcəb-əcəb!

Susən gəlib nəzakətə, nərgiz olub xumar,
Sünbül töktibdü gərdənə xoş zülfi-müşkbar,
Saqi, nə durmusan ələ al cami-zərnigar,
Səhravü baği badi-səba etdi laləzar,
Xəndan olubdu vəh, güli-həmra əcəb-əcəb!

Mütrüb, gəti çəğanəni, ver çəngə guşimal,
Gərm eylə bəzmi sən də, ay oğlan, qavalı çal,
Güllər çəməndə başdan ayağə geyinmiş al,
Qoymaz könüldə saqiyi-dövran bu gün məlal,
Gəldi arayə saqiyü səhba əcəb-əcəb!

Vəh-vəh, olubdu baği-İrəm dəştü kuhisar
Şaxi-gül üstə qönçə olub şahi-tacidar.

* * *

Yek kolahi-nəmədü xerqeyi-pəşmi-doməni,
Pişe mən beh zi dosəd gövhəri-dürri-Ədəni.
Lifi-xurma kəmərü rəxtü qəba yek kəfəni
Nola aləm görə bu vəz’də bir kərrə məni
Bir dua eylə səni saxlasın Allah qəni.

Ali et hümmətini, seyr elə bu dünyani,
Nə gözəldir deyələr xəlq sənə seyrani,
Kimdi bu çərxi-kühən sən olasan dərbani?
Bibina olduğu mə’lum, hanı bünyani?
Ol mücərrəd ki, məgər qurtarasan bu bədəni.

Artmamış qalü məqalın, çək özün bir yanə,
Xeyri yoxdur bu cahanın, geri dur mərdanə,
Cami-təcridi götür, başına çək məstanə,
İntəha kim, deyələr seyyid olub divanə,
Nədi fikrin, məgər etmiş biri məhkum səni?

Bülbülə vurmuş əgər gül neçə zəxmi-kari,
Kim görübdür ki, edə qeyr gülə izhari?
Bəsdi, xamuş otur, ver özünə dildari,
Görücək hər kimi faş etmə ona əsrari,
Özünə məhrəm elə sərvü güli-yasəməni.

Çün bahar oldu çəmən tapdı həyati-tazə,
Nə tağafüldü, dur, ey bülbüli-biəndazə!
Bal açıb tərfi-gülüstanə, götür əndazə,
Gör Nəbati necə şur ilə gəlib avazə,
Məhv edib vəcdü sima’ ilə tamam əncüməni.

# *Müləmmə*

Ey xösrövi-məhruyan,
Gəl bircə gülüstanə,
Ta mehri-rüxət pərtöv,
Salsın gülü reyhanə.

On nərkisi-caduyət,
Saldı məni səhrayə,
Əbruyi-kəmandarət,
Etdi məni divanə.

Saqi, zi kərəm cami,
Lütf eylə məni-zarə,
Dər dövri-sərət gərdəm,
Bir dövr elə məstanə.

Bərxizü xuraman kün,
Ol qaməti-dilcuyət.
İn aşiqi-Məcnunra
Bircə dolu peymanə.

Bügzər bəsəri-Leyli,
Bu dinü bu məzhəbdən,
Xaki-rahi-rindan şo,
Ol xadimi-meyxanə.

Duş əz qəmi-dil yek dəm
Bir dağə güzar etdim,
Oftad rəhəm nagəh
Bir türfə biyabanə.

Qurbani-sərət, saqi,
Bax bir məni-məxmurə,
Billahi, qümil əccil,
Döndü ürəyim qanə.

Xali-həbəşirəngət
Etdi günümü qarə,
On lə’li-şəkərpaşət
Bir rəhmə gəlir ya nə?

Ey bülbüli-qəmdidə,
Gəldi yenə fəsli-gül,
Bərxizü bezən çəh-çəh,
Gəl şur ilə əfğanə.

Şirini-şəkər ləb key
Dışqarı çıxar evdən.
Ta ğülğülə əndazəd
Bu günbədi-gərdunə.

Dər rixtəni-xunəm
Tə’cil eləmə çox da,
Nahəqküşi, xunrizi
Layiqdimi sultanə?

Ey kafəri-səngindil,
Bir pərdə götür üzdən.
Ta tə’nə zənəd hüsnət
Xurşidi-dirəxşanə.

Rəftən zi səri-kuyət
Bir əmrdi çox müşkül.
Haşa ki, coda əz şəm,
Hərgiz ola pərvanə.

Əz tari-xəmi-zülfət
Sal boynuma zənciri,
Dər guşeyi-əbruyət
Saldı məni zindanə.

On sağəri-zərrinra
Saqi mənə versin bir.
Tainki zənəm payi
Bu mülki-Süleymanə.

Məstanə biyavər mey,
Sərgərm elə üşşaqi,
Yek dəm bekün ehsani
Bu cəm'i pərişanə.

Bərxiz Nəbatira,
Bir cam ilə qıl sərməst,
Ongah tamaşa kün
Bu mürği-xoşəlhanə.

# Müstəzadlar

Ey sünbüli-tərdən üzünə pərdə tutanım,
Ey qönçə dəhanım.
Pərvanə kimi başına qoy bircə dolanım,
Ey ruhi-rəvanım.
Etdin bu qədər cövrü cəfa bu neçə ildə,
Heç bircə dedim uf?
İndi dəxi, billah, üzülüb tabü təvanım,
Qalmıb dəxi canım!
Yandırma məni atəşi hicranə, yazıqsan,
Ahım səni odlar!
Sənsiz gecələr ərşə çıxıb ahü fəğanım,
Ey qaşı kamanım.
Görgəc məni bir tünd keçib, bir geri baxsan,
Ollam genə məcnun.
Vəhşi kimi kuhi oluram, budu gümanım,
Artar genə şanım.
Bilsəm ki, yəqin verməmisən kami-rəqibi,
Durram, itin ollam,
Amma görürəm vermisən, artıq nə inanım?
Qanım ki, inanım.
Əhdim bu idi dərdi-dilim eylədim izhar
Hər vəqt səni görsəm.
Çünki səni gördüm, qurudu, qalmadı qanım,
Lal oldu zəbanım.
Fikrim budu kim, eyləyəsən bir oxa qurban
Bu aşiqi-zari.
Yerdən yerə çırpım özümü, xakə bulanım,
Al qanə boyanım.
Tökdün pərü balimi mənim, indi qovursan,
İnsafına qurban.
Qoy künci-qəfəsdə məni bir rahət uzanım,
Öz halıma yanım.

Rindani-xərabatə nə lazım edəm izhar,
Mən dərdimi, yarəb!
Mə'lumdur onlarə bütün sudü ziyanım,
Hər razi-nihanım.
Dərdi deмək asandır, əgər olsa Ərəstu,
Loqmanü Fəlatun.
İndi ki, olar yox, bir utan, kəsmə amanım,
Ey əşki-rəvanım.
Loqmanü Fəlatunü Ərəstu edə bilməz
Bu dərdə müdava
Azdırdı məni bu qələmi-mişkfişanım,
Döndərdi inanım.
Etsə edəcək sərvəri-küll sahibi-Düldül,
Oldum genə bülbül.
Gəldikcə nəfəs mədh eləsəm, vardı bəyanım,
Açıqdı lisanım.
Qurtar məni bu möhnətü qəm, dərdü ələmdən,
Ey miri-hidayət!
Bir guşeyi-çeşm et mənə, ey şahi-cəhanım,
Ey ərşüməkanım,
Sərf etdi rəhi-eşqə təmam ömrü Nəbati
Bu dari-fənadə.
Bir yol demədi, ey canı daş, heyfdi canım,
Gəl-gəl bir usanım!

* * *

Leyla təki yüz işvə ilə, ey büti-mövzun,
Etdin məni Məcnun.
Şeyda olubam eyləmişəm mənzili hamun.
Ey gözləri məftun.
Təbbali-qəza döydü mənim adıma axir
Bu təbli-cünunu.
Səhrayə salıb etdi məni kuhdə məskun,
Bu gərdişi-gərdun.
Gəl bir nəzər et halimə, ey afəti-canım,
Yandım, nə deyim, ah!
Çox da məni – biçarəni gəl etmə digərgun,
Qoyma belə məhzun.
Mə'şuq qılar cövrü cəfa aşiqə həqqa,
Adətdir əzəldən.
Amma nə deyim, görməmişəm mən belə qanun,
Yox mən kimi məğbun.
İzhar elədim dərdi-dilim cümlə təbibə,
Dəm vurdu ölümdən.
Fəryadıma yet sən özün, ey qadiri-biçun,
"Bissad və binnun!"
Dur, şəhri-fəna seyrinə get, tərki-vücud et,
Ey aşiqi-müştaq.
Tə'sir eləməz marə, bəli, ayətü əfsun,
Ta olmasa məkfun.
Eşq əhlinin əhvalına yet, eşqə düşəndən
Biganə nə bilsin.
Həddad bilir kim, necədir gərmiyi-kanun,
Pərvaneyi-məscun.
Bu atəşi-cansuzu elə sərdü səlamət,
Mən acizə, yarəb.
Səbrim kəsilibdir, görürəm bəxtimi varun,
Çün taleyi-Qarun.
Dörd canibidən nəfsü həva mərkəzi-ruhu
Qılmışdı əhatə.
Təsxir edəcək mülki-dili ləşkəri-Fir'on,
Ku Musiyü Harun?

Ənqa kimi bəs dövr elədim çərxə müqabil,
Yetdim bu məqamə.
Haşa ki, əgər bir də olam aqilə məqrun,
Mən saniyi-Məcnun.
Ol qaibü məstur, gözüm, cümlə nəzərdən,
Ol Xizr Nəbi tək.
Ta hasil olub eyni-yəqin, kəşf ola məzmun,
Həm "kaf" ilə həm "nun".
Ol dəm ki, sataşdı gözüm ol daneyi-xalə,
Huş uçdu sərimdən.
Saldın bu şərab içrə məgər sən necə əfyun,
Oldum belə dilxun?!
Çoxdandı qəbul eyləmişəm guşeyi-izlət,
Məqsudimə yetmən.
Bu meykədədə yoxdu məgər badeyi-gülgun,
Bir sağəri-məşhun?!
Yox nəş'eyi-sərşar cahan içrə, Nəbati,
Əfsanə danışma!
Get xirqəni çək başına manəndi-Fəlatun
Kim, yox belə mə'cun!

* * *

Ta oldu sənin mehri-rüxün sünbülə mülhəq,
Ey mahi-mütəbbəq!
Sandım ki, günəş əbrə girib, oldu mübərrəq,
Can oldu mühərrəq.
Mah üzrə düşən nöqteyi-xalın nə bəladır,
Ey gözləri cadu!
Heyrətdədi bu məs'ələdə cümlə müdəqqiq,
Acizdilə mütləq.
Bu dairədə nöqteyi-pərkar qalıb mat,
Şətrəncdə çun şah.
Girdabi-bəla içrə sınıb ləngəri-zövrəq,
Hərdəm deyər "həq-həq".
Bir acizü dərvişə əgər mürşidi-eşqin
Rüxsət verə, billah,
İsbat edərəm böylə ki, hamı deyə səddəq,
Həm ərşi-müəlləq.
Faş eyləmənəm mən dəxi əsrari-nihanı,
Yox, yox, qələt etdim.
Get, get, qanını heç yerə tökdürmə bənahəq,
Ey cahilü əhməq!
"Bismillah"ı dərk eyləməmiş "həmd"ə yüyürmə,
Ey zahidi-gümrah.
Sərkərdəsiz aya görünüb bağlana sancaq,
Ləşkər tapa rövnəq?
Dəyməz iki dinarə sənin sövmü səlatın,
Sallanma behiştə.
Qəflətdən oyan, aç gözün, ol tazə müsəbbəq,
Manəndi-Fərəzdəq.
Keyfiyyəti-meyxanəni məsciddə kim anlar,
Gəl, ol sözə vaqif.
Aldatdı səni ciyfeyi-dünyayi-müzərrəq,
Vur başına cün bəq.
Hümmət elə, aç sinəmi, qıl nitqimi guya,
Ey piri-xərabət.
Bu leyli-düca içrə məni qoyma müğərrəq.
Ey sübhi-müfəlləq.
Bu ərseyi-xunxardə dəm vurma, Nəbati,
Ol sakitü samit.
Guya sənə kəşf olmayıb əsrari-"ənəlhəq",
Sən bilmədin əlhəq.

* * *

Ey qaşı kəman, kipriyi ox, zülfü çəlipa,
Ey gözləri şəhla,
Billahi edər lə'li-ləbin mürdəni ehya,
Manəndi-Məsiha.
Çək pərdəyə rüx, gün kimi göstərmə cəmalın
Hər bisərü payə.
Rəhm eylə məni-acizə, ey sərvi-dilara,
Ey dilbəri-ziba.
Gəl mehrü vəfa üstə, unut cövrü cəfanı,
Allahı sevərsən.
Qurbanın olum, aşiqi gözdən belə salma,
Təqsirimə qalma.
Sən'an kimi təsbihü ridanı oda saldım,
Tərsa dedin, oldum.
İndi deyəsən dur oda gir, məndə nə yara,
Mövquf bər iyma…
Yarəb, kimə izhar eləyim razi-nihanım,
Od tutdum alışdım?!
Fikrim bu idi şəm'ə qılam razi-dil ifşa,
Qəlbim dedi haşa.
Ömrümdə əgər bir gecə mehmanım olaydın,
Ey şəm'i-diləfruz,
Məl'un idim etsəydim əgər qeyrə təmaşa,
Bir özgə təmənna.
"Əlminnəti-lillah" oxudum "elmi-lədünni"
Ustadi-əzəldən.
Feyzi-nəzəri etdi məni qabili-əsma,
Çün Xizri-müəlla.
Ver hüsnünə ziynət, geyin istəbrəqü sündüs,
Ey nuri-mühərrəq.
Turi-nəzərimdə elə bir ləhzə təcəlla,
Ta məhv ola Musa,
Əfsus ki, aləmdə deyil dağ çapan oğlan
Fərhadi-hünərmənd,
Tə'lim verəydim ona mən dərsi-"səme'na"
Ta ayeyi-övfa.

Məcnun idi eşq əhlinin ustadı, həqiqət,
Pirimdən eşitdim.
Əfv eylə günahın sən onun, bari-xudaya,
Üsləhu bi-Leyla.
Hərçənd qaradağlıyam, yoxdu kəmalım,
Müşküldü kəlamım,
Hər fərddə məsturdu bir dürri-müsəffa,
Yüz lö'lövü lala.
Yandı ciyərim, bəsdi fəğan etmə, Nəbati,
Bir ləhzə tut aram.
Səhrayi-cünun içrə ol azadədil, amma
Tut daməni-mövla.

* * *

Ey qönçədəhan, simbədən, dilbəri-tənnaz,
Ey sərvi-sərəfraz!
Öldüm dəxi, qurbanın olum, rəhm elə bir az,
Bəsdir bu qədər naz.
Yandım, külə döndüm, yanasan sən də mənim tək,
Ey duxtəri-tərsa!
O nakəs ilə olma dəxi həmdəmü həmraz,
Vallah belə olmaz.
Adəm kimi çoxdandı olub virdi-zəbanım,
"Yarəbb zələmna".
Amma ki, nə hasil o cəfapişə inanmaz,
Bir dəm mənə baxmaz…
Sən böylə bilirdin ki, özün aşiq olubsan,
Kül başına olsun!
Dur, püflə ocağı, bu odun yaşdır, alışmaz,
Özbaşına yanmaz,
Min dağı əgər bir nəfəsə canıma qoysa,
Bir "uf" demərəm mən.
Amma onu gör, bircə məni yadına salmaz,
Bir busəyə qıymaz.
Qaldı dəxi çün məhşərə bu həsrəti-didar,
Ey yari-vəfadar,
Bari, hər iki ildə soruş halımı az-maz,
Ya bircə kağız yaz.
Tuti kimi fəryad elərəm xəstəvü rəncur,
Bu künci-qəfəsdə.
Bir püstə ilə kimsə məni yadına salmaz,
Bir könlümü almaz,
Ey bülbüli-biçarə, fəğan etmə dəmadəm,
Səbr eylə, tut aram.
Daim ki, qış olmaz, həmişə belə qalmaz,
Əlbəttə, gələr yaz.
Azdırma məni, seyri-gülüstana aparma,
Ey həmdəmi-cani.
Yüz fəsli-bahar olsa, mənim könlüm açılmaz,
Bu kefdən ayılmaz.

Yarım genə məndən küsübən acıq edibdir,
Ox, ox, aman Allah!
Bilməm nə qılım, çarə nədir, bir üzün açmaz,
Bir kəlmə danışmaz!
Könlüm evini ləşkəri-qəm eylədi viran,
Saqi, sənə qurban!
Dur, ver ki, bu sısqa bir-iki cam ilə doymaz,
Ta düşməsə qanmaz.
Sal ğülğülə bu günbədi-əflakə, xüruş et,
Ey dəfzəni-çapuk.
Mütrüb, dəxi sən şədd elə bir nəğmeyi-şahnaz,
Ey mürği-xoşavaz!
Hər nə deyəcəksən, deginən, canıma xoşdur,
Ey zahidi-bədkiş!
Dəryayə daş at, ya qaya sal, zərrəcə daşmaz,
Hərgiz ki, bulaşmaz.
Baxma ki, belə acizü miskindi Nəbati,
Ey hey, həzər ondan!
Mövla bili yoxdur özü tək rindü nəzərbaz,
Əyyari-çəpəndaz.

* * *

Saqi, tut əlim kim, yetəsən ömri-kəmalə,
Ver bircə piyalə.
Düşdüm genə qəvvas kimi bəhri-xəyalə,
Girdabi-məlalə.
Könlüm quşu pərvazə gəlib, dövrə çıxıbdır,
Qalxıbdı həvayə.
Aya görəsən harda şikar eyləyə, qalə,
Ya kim tora salə?
Dövr eylə, qanad çal, nəzər et, eylə tamaşa,
Ya bəççeyi-ənqa!
Şayəd nəzərin uğraya bir türfə qəzalə,
Bir hur misalə.
Getdi, dəxi fəryad eləmə, huylama, gəlməz,
Vəhşidi bu şahbaz.
Düşdü görəsən hansı dağa, uçdu nə dalə,
Ya qondu nə lalə?
Bilməm nə qılım, çarə nədir, qalmışam aciz,
Müşkül işə düşdüm.
Huşum dağılıb, əql məəttəldi bu halə,
Düşdüm əcəb alə.
Çox cövr eləmə, tökmə gözün yaşını hər dəm,
Ey mürği-səhərxiz,
Dur ki, düyün açıldı, bərat oldu həvalə,
Gəldi vecə nalə.
Tökdü çiçəyin, verdi səmər nəxli-ümidin,
Səbz oldu muradın.
Əqd etdi mələklər səni ol qürsi-hilalə,
Möhr oldu qəbalə.
Bu ne'məti-üzma sənə gər olsa müyəssər,
Ey aşiqi-məcnun!
Əhd eylə, qonaq eylə məni bir kasa balə,
Ya bircə piyalə.
Saqi, mənə bir cam də ver, dövrü tamam et,
Dur, qılma təəllül.
Sübh oldu, gül üzrə saçılıb qətreyi-jalə,
Gəlməkdədi lalə.

Divanə könül, qəm yemə bundan belə bir də,
Həmd eylə xudayə.
Əlminnəti-lillah ki, rəqib oldu izalə,
Cüft oldu şəğalə.
Yatma, dur oyan, aç gözünü, etmə şəkərxab,
Ey bülbüli-sərməst.
Torpağə döşən, ərzini qıl badi-şimalə,
Ol müşk-xisalə.
Sinəmdə genə şö'lə çəkib nari-məhəbbət,
İstər məni yaxsın.
Həsrətdi yanıq təşnə kimi abi-zülalə,
Maildi vüsalə.
Yarəb, görəsən lövhə yazıb katibi-qüdrət,
Kim, vəslə yetəm mən?
Əlbəttə ki, qadirdi xuda külli-fəalə,
Hər əmri-məhalə.
Əl çəkmə, Nəbati, nə qədər var isə canın,
Mövla ətəyindən,
Sal aləmi gözdən, yapış ol bəhri-cəlalə,
Təyy oldu məqalə.

* * *

Etdi məni qəm tapdağı bir gözləri xummar,
Bir dilbəri-əyyar.
Saqi, mənə ver lütf ilə bir sağəri-sərşar,
Qəmdən məni qurtar.
Yox qayəti təqrir eləsəm mim gecə-gündüz
Şərhi-qəmi eşqi.
Payanə yetişməz, nə qılım dərdi-dil izhar,
Min gizli sözüm var.
Etmün məni Məcnunə bərabər, sizi tari,
Ey əhli-xərabat!
Gördü neçə yol yarını ol aşiqi-cərrar,
Ol sakini-kühsar.
Allah bilir, mən kimi bir aşiqi-məhrum
Dünyadə tapılmaz.
Şahiddi bu əhvalə iki dideyi-xunbar,
Həm ahi-şərərbar.
Həmdəm dilərəm çarə əcəldən qəmi-hicrə
Gəlməz ki, nə hasil.
Qaldım belə bir dərd ilə bimunisü qəmxar,
Biyarü mədədkar.
Ey eşqə düşən aşiqi-biçarə, yəqin bil
Kim, dadə yetən yox!
Mən eyləmədim, doğrusu, Allahıma iqrar
Xoşdur mənə zünnar.
Məsdud olub çar tərəfdən mənə, yaran.
Əbvabi-fütuhat.
Guya kəsilibdir mənə bir məhrəmi-əsrar
Bir yari-vəfadar.
Əfsunü füsunun əsəri olmadı hərgiz
Ol türfə nigarə.
Asan işimi virdü dua eylədi dişvar,
Qaldım belə naçar.
Nə əqldə kam oldu müyəssər, nə cünunda,
Ey arifi-salik.
Sən məndən eşit, bir gülə ol talibi-didar,
Əyləş belə bikar.

Faş etməginən sirrini hər cahili-xamə,
Ol aşiqi-kamil.
Sən olmaginən mən kimi hicranə giriftar.
Məhcurü diləfkar.
Hicran demiş oldum, qələm od tutdu alışdı
Ahım şərərindən.
Bir xəncəri-xunriz gətir, bağrımı bir yar,
Bir gör ki, nələr var!
Zəhr eylədilər bu iki gün dirliyi, billah,
Mən acizi-zarə!
Gör etdi məni cövr ilə bu çərxi-sitəmkar,
Candan necə bizar!
Çox etmə şikayət sitəmi-çərxdən, ey dil,
Xoş şivə deyil bu.
İstərsən əcər görməyəsən tə'neyi-əğyar,
Ah eyləmə zinhar!
Ol səng-dilin başinə çox dönmə, Nəbati,
Vallah ki, yanarsan!
Tök qanlı sirişkin, deginən sidq ilə təkrar
Ya Heydəri-kərrar!

* * *

Ey qaməti şümşad, boyu sərvi-sənubər,
Ey şuxi-sitəmgər!
Aya görəsən var bu cahan içrə sərasər,
Bir gül sənə bənzər?
Görcək səni mən, ey üzü gül, türrəsi sünbül,
Əl hamıdan üzdüm.
Gər hurü pəri ruyi-zəmini tuta yeksər,
Könlüm səni istər.
Ol dəm ki, sənin mehri-rüxün etdi təcəlla,
Eşq oldu hüveyda.
Əvvəl mən idim can edən ol atəşə məcmər,
Məndən sora Azər.
Səndən yetişib Xizr-Nəbi sirri-nihanə,
Oldu mənə sabit.
Billah, sən idin nazili-ayati-peyəmbər,
Cibrilə müsəvvər.
Almış əlinə məş'əli-xurşidi Məsiha,
Gərdişdədi daim.
Hər dəm çağırır sidq ilə, ya saqiyi-kövsər,
Ya xaceyi-Qənbər.
Musa kim idi göstərə xəlqə yədi-beyza,
Ey şahidi-ğeybi?
"Hu-hu" deginən zahirü batində müqərrər,
Ey rindi-qələndər.
Qorxum budur amma ki, əgər saqiyi-gülrəng,
Dövr etsə müsəlsəl,
Ariflərin əhvalın edən aləmə əzhər,
Ol badeyi-əhmər.
Mənsur-sifət şamü səba zikri-"ənəlhəq"
Olmuş mənə adət.
Mə'lum ki, yazmaz qələmi-xaliqi-əkbər
Bir əmri mükərrər.
Qaçmaq gərək ahəstə bu meydani-bəladən,
Bir künci-nihanə.
Bu ərsədə baş qoydu bəsa mərdi-dilavər,
Çox sahibi-əfsər.
Gör eşqi ki, ğəvvasi-bühar oldu Nəbati,
Bifənni-səbahət.
Dəryaləri seyr eylədi bir ləhzədə yeksər,
Bihadiyü rəhbər.

* * *

Saqi, nə durubsan, elə bir rəqsi-hesabi,
Ver badeyi-nabi.
Azad elə bir cam ilə bu məstü xərabi,
Pak eylə hesabi.
Yaran, nə qılım ğəm günü bir qeyr əlacım,
Yox badədən özgə.
Bu qanı içib yad edərəm qönçə türabi,
Ol ətrü gülabi.
Od tutdu təmami bədənim yandı sərasər
Bu nari-fəraqə.
Mən neyləmişəm kim, çəkirəm munca əzabi,
Bu cövrü itabi?
Saqi, hələ bədməstlik etmək belə dəmdə
Hərgiz deyil insaf.
Yıxdın evimi, bir də at ol tiri-şəhabi,
Ol bərqi-ləhabi.
Ey mütrübi-xoşxan, elə bir rəqsi-müxalif,
Canım sənə qurban.
Tök zülfünü, əfşan elə ol çətri-qübabi,
Ver kakilə tabi.
Hər vəqt ki, düşər yadimə ol nərgisi-məxmur,
Ey lalə üzarım.
Ləbriz edərəm qan ilə bu çeşmi-pürabi,
Bu mənzili-xabi.
Ey vadiyi-vəhdətdə qalan aşiqi-məhcur,
Sərkəştəvü rəncur,
Meyxanədə get rəhn elə Qur’anü kitabi,
Qaldır bu hicabi.
Qoyma məni, müşküldü, qallam zarü pərişan,
Ey məzhəri-bari.
Göstər mənə öz nurin ilə rahi-səvabi,
Fəth eylə bu babi.
Məndən sora billəm ki, qalır başına dağlar,
“Məcnun” deyər, ağlar!
Ax, yadimə saldın genə əyyami-şəbabi,
Çək-çək bu tənabi!

Bu mülki-Qəradağdə bir aşiqi-üryan
Həmvarə gərəkdir.
Nə bəngi ola, nə ola yaquti-müzabi,
Nə cami-şərabi.
Hər aşiqi gördüm, elədim dərdimi izhar,
Əhvalimə yandı.
Bir ah çəkib, çaldı yerə çəngü rübabi,
Verdi bu cavabi:
Hərçənd ki, bimari-qəmi-eşqə dəva yox,
Bir söz deyim əmma,
Yeydir bu mərizə genə behdanə lüabi
Ya şərbəti-abi.
Təftiş edə bir kimsə ki, bu aşiqi-üryan
Sakindi nə yerdə.
Gəl Üştibinə, tıx üzümü, nari, doşabi,
At taxçıya qabi!
Bəsdir bu qədər ağlama, biçarə Nəbati,
Dildardən ayrı.
Zikr eylə dəmadəm genə bu ərşcənabi
Bir Xizr-niqabi.
Qəm dəf'inə, saqi, mənə bir cami-ləbaləb
Qıl lütfü inayət.
Xunab yedirmə mənə, çək şişə kəbabi,
Ver cami-şərabi.
Ol guşeyi-çeşmində olan xali-siyahın
Düşməndi bu canə.
Qoysan yeyərəm mən bu dəm ol nəhs ğürabi,
Çox çoxdu səvabi.

# Bəhri-təvil

Mənbəyi-çeşmeyi-hər kəlmə ki, cari ola bir nitq-bəyan ya ki, lisandan adıdır o bizim Allahi-əzimin ki, onun mərhəməti, lütfü üzündən yaranıb növ'i-bəşər, əqlü hünər, qüvvətü idrak, üzündə iki göz, həm iki qaş, üz necə üz, misli-qəmər, qaməti bir sərv, beli tük kimi bir incə kəmər, baş kasası əql, bəsirət yeri, huş mərkəzi, onda eşidib duymağa bir cüt də qulaq, sonra dodaq, ləb necə ləb, lə'li-Bədəxşan, xəti də ənbəri-reyhan, çəkilibdir iki səf kipriyi bir güclü qoşuntək gözün ətrafını hifz etməyə, bir püstə kimi qönçeyi-xəndan bir ağız ki, nə deyim vəsfini, gövhər kimi dişlər düzülüb hər biri bir lə'l ilə mərcan, hələ o gərdənə bir bax, ola bilməz ona tay, heç də sürahi, nə də mina, o boyu, qaməti rə'na, tökülüb çiyninə geysuləri zəncir kimi, sünbül kimi, bəh-bəh, belə bir ətr, təravət və nəzakətlə qəra rəngi o yəlda gecəsindən də gözəldir, deyək əhsən elə bir xaliqə ki, xəlq eləyibdir onu, həm də nə görürsən bu cahanda tək onu sən'ətinin, qüdrətinin hasilidir, bir bu qədər lö'lövü yaquti-Yəmən, lə'li-Bədəxşan, bütün çöl və biyaban və ümman yetirib bəsləyə hər gövhəri-rəxşan, hamısı, lö'lövü şəhvar onundur, nəzər et hikmətə, əsrarə, yeri, məskəni yoxdursa da, əmrilə dönür çərxi-fələk, nur saçır ay və günəş, göydəki hər bürcü qəmər, gah iti, gah yavaş, gah soyuq, gah da ki isti, gecə-gündüz dolanır, gah sönür, gah da yanır, xəlq edəni bircə o Allah ki, elə Allah xəlq etdi iki aləmi, dünyanı, nə var, cinni-bəşər Adəmü Həvvanı və ya Rühüləmin Cəbraili, bir də Mikaili, o Musa ilə İsanı kərəm etdi Məsihaya, nəfəs verdi diriltsin, ölünü, digərinə verdi təcəlla ki, onun nuru ilə dərk olaq mö'cüzi-Sə'ban. Uca günbədi-ə'lavü səmavatü hicabatü məqamatü kəramət və lahut və nasut ki, burda hamısı oldula məbhut, gələnlər hamısı cinnü pəri, adəmü insan, bütün gəbrü müsəlman, bütün hurüyü qılman qələtdir, nə deyim, kaş olaydı mənə bir məhrəmi-əsrar, açaydım ona öz sirrimi, ancaq ki, bu sirri birinə söyləməyib saxlaya pünhan, ikimiz əldə qədəh, qarşıda bir sağəri-səhba, eləyib eyş ilə işrət, necə işrət ki, edib rəqs biləydik belədir aləmi-fani, nə edim söyləmək olmur, bu kimi sirri nə cür şərh eləyim, ya ki edim mən ona

min şükr, əta sayəsi hər yerdə düşür başlara, sən qüdrətə bax ki, qara torpaqda necə ne'məti əlvan gətirib zahirə, çaylar və ağaclar və bulaqlar necə dağlar, necə bağlar, necə ləzzətli və dadlı və şirin meyvə və meyvə! Nə deyim mən necə sünbül, necə güllər, nə çəmənlər, bu çəməndə necə qümri, necə bülbül, necə cəh-cəh, necə səslər ki, olur hər eşidən məst, gəlir naləvü əfğanə ya da valeh olub tərk edir əhvalı, gedir eşq çəmənzarinə seyr etməyə bir başqa cahanı, gəl onu durma, könül, cahil olub tərk eləmə, sən belə bir baği-gülüstanə nəzər sal, negə gör şaxədə quşlar oturub oldu qəzəlxan, belə halət, belə bir yaz bizim aləmdədi, heç yerdə tapılmaz, çalışıb badeyi-reyhani yerə qoyma bu şərt ilə ki, bir yari-müvafiq tapıb öz halinə, birlikdə çəkil guşəyə, güllər arasında keçir öz ömrünü azadə, məbada yaramaz şəxs ilə yoldaş olasan ki, içə o badəni axirdə qıra daşla sənin camini, bil ha! Nə edim, sən məni əfv et ki, çıxıb riştəsi əldən sözümün keçdi hüdudi, elə ki, gülşənə gəldin, gözünü aç, ayıq ol, eylə nəzər, gör ki, necə hər ağacın yarpağı gəlmiş dilə, söylər özünün sirrini sübhün yelinə bəlkə tərəhhüm edə bir an, apara ərz edə dildarinə, icz ilə deyə, ey büti-xunxar, cəfakarü dilazar, xəzanlar bizi incitdi, fəqət vəslin ümidilə gəlib görməyə bir qorxulu vadidə durub müntəzirlik hər birimiz. Bəlkə də qismət ola didar, bizə rəhm elə, ey kaş, nə olsun ki, gərək bir dəfə bir an səni, bircə soruş halımızı, dərdimizi, lütf ilə dərman elə, tainki yetişdi bura söz qadiri-yektani bacardıqda bir az mədh elədik, növbə çatıb indi böyük oğlu o Adəm babanın hansı ki, xilqəttək onun xatirinə xəlq olunub tapdı bu cür rövnəqü ziynət. O, nəsəbdə hamıdan ali onun şə'ni, cəlali, kərəmi tə'rifə sığmaz, nə deyim mən ki, necə elmü hünər dəftərinin mətlə'i olmuş onun o pak adı, olmazdı bu aləm o əgər aləmə qoymazdı qədəm, bil və yəqin et nə cəmadat, nə nəbatat, nə bu ərşü səmavat, nə firdövs, nə cənnət, nə cəhənnəm, nə xərabat, nə münacat, nə də lövhü qələmü kürsiyü əflakü kəvakib, bu ay-ulduz, gecə-gündüz, nə bu günlər, nə bu aylar, nə bu illər, nə payızlar, nə də yazlar – hamısı təkcə onun xatirinə xəlq olunub gəldi vücudə, o gözəl mehri-nübüvvət, bütün ümmət, hamıya etdi səxavət, odur, otəkcə əgər gəlsə qiyamət, hamıya rəhm eləyib, qurtara min dərdü əzabdan, adıdır Əhmədi-Məhmud Əbulqasim, o xeyrül-bəşərü Seyyidi-gövneyn Məhəmməddir, Əlinin əmisi oğlu, Əli hansı Əli, Heydəri-Səfdər, o Əlidir ki, dayanmış qapısında ona Qənbər də qul oldu, nə deyim mən hələ Səlman Əbülmö'cinü Miqdadü Əbuzər baş əyər, hörmət edər

Türkü Əcəm şahi-Xətavü Xütənü hind ilə Çin hakimi bunlarla bərabər, bilirik bir də o Qeysər və Buxara, bütün aləm bü Nəbati eləyir vəsf sənintək bir… ey məhiənvər, necə tə’rif qılım, yoxdu şəbihin bu lətafət, bu şərafət, bu cahan üzrə pəri-hurilər olmaz, nə deyim, qalmışam aciz bu vəcahət, bu məlahətdə Züleyxa nədi, Leyla nədi, Əzra nədi, Səlma nədi, billəh ki, üzün tək ola bilməz güli-həmra, habelə yoxdu qədin tək çəməni-dəhrdə bir sərvi-dilaravü nə şümşadü nə ər’ər, nə sənubər, hanı zülfün kimi sünbül, üzünü kim gülə oxşatdı xəta etdi, qələtdir, hanı bu rəngdə gül bəs nə deyim eylə ləbi mül, arizi gün ya məhi-taban dilim yox, deyə bilməm ləbinə lə’li-Bədəxşan, dişinə gövhəri-rəxşan, nə əcəb vəqtdə, nə saətdə səni xəlq eləyib qadiri-mənnan, hanı çeşmi-xumarın kimi bir nərgizi-şəhla, nə olur, ey büti-tənnaz, xoşavaz ki, gəhgah bu biçareyi-dilxəstəyə bir rəhm edəsən, yoxsa məgər bilməmisən kim, sənə mən aşiqəm, ey yari-cəfakar, dilazar, sitəm-pişəvü birəhmü mürüvvət, nə xoşundur ki, çəkim mən belə zillət, səni Tari, dəxi əl çək bu cəfadən ki, gümanım budu bu vəz’də gər görsə məni rəhm eləyə gəbrü nəsara, belə gəldi belə getdi, belə baxdı, necə baxdı ki, göz axdı, canımı odlara yaxdı, yeri get, dəng eləmə, bir elə göz ta ki, deyim mən belə gəldi, belə baxdı, nə bilim kim deyəcəklər ki, bu əfsanədi kim, ol belə gəldi , belə getdi, o nə Məcnundu, nə Leylavü nə məxfidi, nə peydavü nə Vamiqdi, nə Əzra, nə Nəbatidi, nə Hafiz o, müdəbbirdi ki, tədbir elədi, etdi məni aşiqi şeyda.

# LÜĞƏT

## B

**Badiyeyi-tih** – sərgərdanlıq səhrası
**Badiyəpeyma** – çöldə gəzən
**Baği-cinan** – cənnət bağı
**Bak** – qorxu
**Bang** – səs
**Barigəh** – imarət, saray
**Baz** – qartal
**Befəzli-xuda** – Allahın mərhəməti
**Bəççeyi-Ənqa** – Ənqa quşunun balası; vüqarlı, təmkinli
**Bədgu** – çuğul
**Bədkiş** – əyri yollu, pis adam
**Bəhəmdillah** – Allaha şükür
**Bər** – quru – çöl
**Bəraya** – aşkar
**Bərəhman** – şər qüvvə
**"Bərgi-nəxli-imən"** – Əmin-amanlıq ağacının kölgəsi – yarpağı (cənnətdəki Tuba ağacına işarədir)
**Bərk** – yarpaq
**Bərra** – təmiz, aydın
**Bihəmta** – misilsiz
**Bikiş** – yolsuz, məqsədsiz
**Bipərva** – qorxusuz, qorxmaz
**Buteyi-hicr** – ayrılıq butəsi – qızıl, gümüş və s. əritmək üçün gildən qayrılmış kiçik qab
**Büxl** – paxıllıq
**Bülənd-pəst** – alçaq-uca
**Büti-hərraf** – danışan büt

## C

**Canfəza** – ruh dincəldən; gözəl
**Cəli** – aşkar
**Cəlilülnəhmə** – əzəmətli
**Cö'di-müşk** – qara zülf
**Cuybar** – arx kənarı
**Cüqd-bum** – bayquş
**Cür'ə** – bir qurtum, bir içim (su, şərab və s.)

## Ç

**Çahi-məzəllət** – bədbəxtlik quşu
**Çəlipa** – qarışıq, dağınıq

## D

**Dağidar** – dağlanmış, qəmli, qüssəli
**Deyr** – təriqətçilərin məskəni
**Dəbiri-nüktədan** – arif, çox bilən mirzə
**Dəd** – vəhşi heyvan
**Dəmdəmə** – meydan, sahə
**Dənglər** – dəng olmuşlar
**Dəriğ** – heyif
**Dilazürdə** – ürəyi incimiş
**Dirəxşan** – nurlu, parlaq
**Düca** – qaranlıq
**Düxtəri-rəz** – üzümün qızı (şərab)
**Dürdnuş** – şərab xıltı içən
**Dürdnuşi-Hafizəm** – Hafizin təriqətinə tabeyəm
**Dürri-nab** – təmiz, parlaq gövhər

## Ə

**Əbrani** – tayfa adı
**Əbrə** – xüsusi kəmər, qurşaq
**Əbülhəsən** – Əhsənin atası Əli

**Əbyat** – beytlər
**Ə'da** – düşmən
**Əfsər** – tac
**Əfsürdə** – solğun
**Əfyun** – tiryək
**Ələlitlaq** – necə istərsə, küll ixtiyar
**Əlhafiz** – qoru, saxla
**Əlhan** – ahəng, səs
**Əlvərəq** – varaq-varaq oxumaq (ələk-vələk eləmək)
**Ənduh** – qəm-qüssə
**Ənəəmləh** – mən ən duzlu (mənalı) danışanam
**Ənəməllah** – yəni Allah qismət eləsin, ruzu eləsin
**Ənhar** – çaylar
**Ə'raf** – guya cənnətlə cəhənnəm arasında yer
**Ərsə** – meydan
**Ərşi-kibriya** – üca göylər
**Ərus** – gəlin
**Əvami-sirf** – tam sadə, biliksiz, avam
**Əzin** – bundan
**Əzmi-rəmim** – çürümüş sümük (Quranda ayəyə işarədir)

### F

**Fər'i-ləb** – dodağın fəri, yəni söz
**Fərzanə** – mərd, igid, əsil-nəsilli
**Filfil** – istiot
**Fülad** – polad

### G

**Gavi-fələk** – fələyin öküzü (bürc)
**Geysu** – zülf, saç
**Gəbr** – kafir
**Gərm** – isti
**Giransəng** – ağırbaşlı, təmkinli
**Gülfam** – gül rəngli
**Günbədi-gərdan** – dolanan günbəz, fələk
**Güstər** – yayan, göstərən

### H

**Haşəlillah** – Allah şahiddir, Allaha and olsun
**Həlqeyi-rindan** – rindlər məclisi
**Həmduş** – həmçiyin, yoldaş
**Həmra** – qırmızı
**Hirman** – ümidsiz
**Hovla** – səslə, çağır
**Hövdəc** – kəcavə
**Hümayun** – mübarək
**Hüveyda** – aşkar

### X

**Xəsməfkən** – düşmənyıxan
**Xətmi-rüsül** – sonuncu peyğəmbər; Məhəmməd
**Xəttaf** – həmdəm
**Xəzra** – yaşıl
**Xidivi-bəhrü bər** – dənizin və səhranın şahı
**Xoşgüvar** – dadlı, ləzzətlə içilən
**Xübz** – çörək
**Xürd** – kiçik, xırda

### İ

**İxfa** – gizli, xəlvət
**İqlim** – ölkə
**İlqa** – çatmaq, görmək

**İqrar** – ilqar, peyman
**İsmi-ə’zəm** – ən böyük ad, Tanrı
**İzəd** – Tanrı

### K

**Kahilə** – tənbəl
**Kamkar** – arzusuna çatan
**Kəctab** – pəltək
**Kəsrət** – çoxluq
**Kuhsar** – dağlıq
**Kureyi-həddad** – dəmirçi kürəsi
**Küfri-zülf** – saçın qaralığı
**Künci-vəhdət** – vədət bucağı
**Küştə** – ölmüş

### Q

**Qabili-zilli-hüma** – Hüma quşunun kölgəsinin layiqi
**Qadiri-mənnan** – Tanrı
**Qaimə** – dayaq, söykək
**Qədəhxar** – badə içən
**Qələndərməşrəb** – qələndər təriqətli, qələndər xasiyyət
**Qəllaş** – əliaçıq, səxavətli
**Qərra** – ucasəsli, açıq-aydın danışan
**Qəta** – əsla, heç də
**Qəzənfərhəmlə** – şirhəmləli
**Qibleyi-külli-üməm** – bütün millətlərin qibləsi
**Qul ənküntüm** – “de onlardan...” (Quran ayəsi)
**Qul hüvəllah** – “de ki, o, Tanrıdır” (Quranda “Qül hüvəllah” surəsinə işarədir)
**Qumra** – nurlu
**Qutə** – üzmək, suya baş vurmaq

### L

**La** – yox
**Lafəta illa’** – bir rəvayətdə deyilir: “Lafəta illa Əli, la seyf illa Zülfiqar”, yəni Əlidən başqa igid, Zülfiqardan başqa qılınc yoxdur
**Latü mənat** – büt adı
**Layə’qil** – ağılsız
**Ləbriz** – dolu
**Ləhn** – ahəng, səs, avaz
**Lə’lfam** – ləl rəngli, qırmızı
**Ləmü ləmma** – olmazlıq
**Ləmyəlüdü ləmyuləd** – Quranda ayə. Yəni doğulmayıb, doğmayıb
**Ləngər** – dayaq
**Lənglər** – çolaqlar, naqislər
**Ləntərani** – məni görə bilməzsən (rəvayətə görə Musa peyğəmbər Tur dağında Allaha deyir ki, görün mənim gözümə. Cavab gəlir ki, məni görə bilməzsən).
**Lovda** – boş, mənasız
**Lövhəşəllah** – Allah bilir

### M

**Mahəsəl** – xülasə
**Mari-zəxmi** – yaralı ilan
**Mehrəfsər** – günəştaclı
**Məcanin** – məcnunlar
**Mə’cari-həmra** – qırmızı baş örtüyü
**Məcmər** – manqal
**Mə’cun** – bir neçə maddədən düzəldilmiş qüvvətli dərman
**Məcus alusu** – atəşpərəst
**Məğbun** – zərər çəkmiş, aldanmış
**Məğfər** – dəbilqə

**Məhzər** – mətləb, məqsəd
**Məxmur** – xumar
**Məknun** – qiymətli
**Məqdur** – mümkün
**Məntər** – məclis, sıra, cərgə
**Məşum** – nifrətlənmiş
**Mətbu** – bəyənilmiş
**Məzhəri-nuri-hüda** – düz yol nurunun nişanı
**Mən' edəsən** – mane olasan
**Mə'va** – məskən
**Misaq** – əhdinə vəfa edən
**Muğ** – atəşpərəst
**Musakəf** – Musa əlli, əli qüdrətli adam
**Mücəlla** – parlamış
**Müədda** – ədalı, qəmzəli
**Mühərriq** – yandıran, od vuran
**Müin** – kömək
**Mül** – şərab
**Münəqqəş** – naxışlanmış
**Münfəil** – bir işdən əl çəkmək; tərk etmək
**Münqad** – nəqd
**Mürəssə** – bəzəkli
**Mürğzar** – gülzar, bağ, gülşən
**Müsəlsəl** – dalğalı, pərişan
**Müsərrif** – sərraf, hər şeyi görən, ayıran, bilən
**Müşə'şa** – şöləl期ənən

## N

**Nabud** – yox
**Naf** – göbək
**Naməbər** – məktub aparan
**Napədid** – gözdən itən, yox olan
**Nədamət** – peşmançılaq
**Nəmət** – üslub, yol
**Nəng** – utanmaq
**Nəngi-əbayə** – ata-ananı xəcalət edən, utandıran
**Nərrad** – nərd oynayan

## Ö

**Övdat** – mıxlar
**Övrad** – virdlər, dualar

## R

**Rayici-dövran** – dövranın məşhuru
**Rəbbiyələ'la** – uca Tanrı
**Rə'd** – göy gurultusu
**Rəfia** – uca
**Rəxt-pəxt** – pal-paltar
**Rəhnüma** – yol göstərən
**Rəhvar** – yol gedən
**Rəzm** – dava
**Rəzzaq** – ruzu verən
**Rud** – çay
**Ruzə** – oruc
**Rübi-məskun** – dünya

## S

**Sahibbərat** – barat sahibi, ixtiyar sahibi
**Salik** – yol gedən, müsafir, yolçü
**Seyhə** – atın kişnəməsi, səsi
**Seyt** – səs
**Səbaseyr** – yelsürətli
**Səbhə** – təsbeh
**Sədri-afaq** – ölkələr hakimi
**Səxreyi-səma** – möhkəmlik keçilməzlik
**Səlli əla** – ona salavat göndərirəm

**Səmasa** – uca, qüdrətli
**Sərraq** – soraq verən, qasid
**Siminsaq** – gümüşbiləkli
**Sureyi-İmran** – Quranda surə
**Suzən** – iynə (Azərbaycan sözü "süzən"dən)

T

**Təbah** – püç, heç
**Təbərra** – təmizlik
**Təbi-sərşar** – qüvvətli, axıcı təb
**Təəhhüd** – əhd bağlamaq
**Təfrid** – fərdləşmiş, təklənmiş
**Təğafül** – qəflət, xəbərsizlik
**Tə'neyi-ixvani-həsud** – paxıl qardaşların tənəsi (Yusiflə qardaşlarının əfsanəsinə işarədir)
**Tərəbxanə** – şadlıq evi
**Təvəhhüm** – qorxu
**Təvəlla** – dostluq
**Təyyarü pərgar** – hazır
**Tiği-düsər** – ikibaşlı qılınc; İmam Əlinin qılıncı – Zülfiqar nəzərdə tutulur
**Tövf** – ətraf
**Tövsən** – cilov, noxta
**Tumar** – yumrulanmış, lülələnmiş kağız
**Tuşə** – əldə edilən, qazanc

V

**Varun** – üzüqoylu
**Vəsi'** – geniş

Y

**Yahu** – göyərçin
**Yari-məhasa** – yaxın dostlar
**Yekkə** – tək
**Yeksər** – birbaşa
**Yədi-beyza** – işıqlı əl (guya Musa peyğəmbərin əli işıqlı imiş)
**Yəzdan** – Allah (yaradan)

Z

**Zadi-rah** – yol tədarükü
**Zəfərcəd** – daş-qaş növü
**Zərbəti-xəsmanə** – düşməncəsinə zərbə
**Zərkeş** – qızıl suyuna çəkilmiş kağız
**Zəviyəl-məsnəd** – təxt sahibi
**Zəyyaf** – qonaq edən
**Zib** – yaraşıq
**Zibi-səri-dar** – dar ağacının zinəti (Mənsur Həllaca işarədir)
**Zikr** – dua
**Zişt** – çirkin
**Zöhd** – hiylə
**Züha** – işıq

**MÜNDƏRİCAT**

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .4

**QƏZƏLLƏR**

Səhər meyxanə ətrafın gəzirdim məstü bipərva . . . . . . . . . . . . . . . .13
Nə olmuş, bilmirəm yarəb, hanı bir bülbüli-şeyda . . . . . . . . . . . . . .14
Düşdüm genə meyxanədə xoşhənglər içrə . . . . . . . . . . . . . . . . . . . .15
Olu yarəb ki, düşə daməni-canan əlimə . . . . . . . . . . . . . . . . . . . . . .16
Billəm ki, edər axir ol nərkisi-məstanə . . . . . . . . . . . . . . . . . . . . . .18
Ğülğülə saldım genə nöhfələki-əxzərə . . . . . . . . . . . . . . . . . . . . . . .19
Əgər qoysan baxam mən bir nəzər ol çeşmi-şəhlayə . . . . . . . . . . . .20
Gətir, saqi, meyi-gülgun, bu bəzmi bir bahar eylə . . . . . . . . . . . . . .21
Sərməst yıxıldım genə meyxanələr içrə . . . . . . . . . . . . . . . . . . . . . .22
Düşə bir də nəzərim mehri-rüxi-canană . . . . . . . . . . . . . . . . . . . . . .23
Xədəngi-tiri-müjganın əsər qılmış dilü canə . . . . . . . . . . . . . . . . . .24
Saqiya, dur dolanım başına, gəl dövranə . . . . . . . . . . . . . . . . . . . . .26
Baxma şümşada, gözüm, sərvi-xuraman gəz-gəz . . . . . . . . . . . . . .27
Eşq camından içən kimsənə huşyar olmaz . . . . . . . . . . . . . . . . . . . .28
Nədən ol büti-pərivəş dəxi bir bu yanə gəlməz . . . . . . . . . . . . . . . .29
Olmadı mümkün edim halımı cananə ərz . . . . . . . . . . . . . . . . . . . . .31
Nisbət sənə, ey şux, Züleyxa ola bilməz . . . . . . . . . . . . . . . . . . . . .32
Səcdeyi-həqq oldu çün zümreyi-insanə fərz . . . . . . . . . . . . . . . . . .33
Ol zaman mən edərəm zövq ilə bu candan həzz . . . . . . . . . . . . . . .34
Dərdi-dilim eylərəm dərgəhi-sultanə ərz . . . . . . . . . . . . . . . . . . . . .35
Tutdum genə xoş həngilə meyxanəni, meyxanəni . . . . . . . . . . . . . .36
Çox dolandım kim, görüm ol çeşmi-cadulər kimi . . . . . . . . . . . . . .37
Ah ki, gördüm genə bir büti-məhpeykəri . . . . . . . . . . . . . . . . . . . . .38
Böylə cəllad olmaz ol məstanə cadulər kimi . . . . . . . . . . . . . . . . . .39
Oldu könlüm genə bir zülfi-çəlipa dəlisi . . . . . . . . . . . . . . . . . . . . .40
Aman-aman məni bir zülfi-yar yandırdı! . . . . . . . . . . . . . . . . . . . . .41
Gəldi bir şux genə yanıma göyçək-göyçək . . . . . . . . . . . . . . . . . . . .42
Ey gözüm, yatma dəxi, gəl dəxi bidar ol-ol . . . . . . . . . . . . . . . . . . .43
Düşəli eşqə xarü zar oldum . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .44
Görəsən mən niyə, yarəb, belə nalan oldum? . . . . . . . . . . . . . . . . . .45
Məstü sərxoş bir büti-hərrafı gözlər gözlərim . . . . . . . . . . . . . . . . .46

Yol busub, bir dilbəri-əyyarı gözlər gözlərim . . . . . . . . . . . . . . . . .48
Bir könül kim, ola daim rüxi-canan ilə cəm . . . . . . . . . . . . . . . . . . . .50
Nə müddətdir məni-biçarə, yarəb, yarsız qaldım . . . . . . . . . . . . . . .52
Bəs ki, bu üzdəniraqlar ilə yoldaş oldum . . . . . . . . . . . . . . . . . . . . . .53
Dikmişəm göz rahə, bir cəlladı gözlər gözlərim . . . . . . . . . . . . . . . .54
O günəş-arizə heyran olanı zar olubam . . . . . . . . . . . . . . . . . . . . . . .55
Canə od vurdum özüm, pərvanələrdən küsmüşəm . . . . . . . . . . . . . .56
Kimdir o silsileyi-eşqə giriftar olsun . . . . . . . . . . . . . . . . . . . . . . . . .57
Sənsən genə bu Turi-dili nuri-nar edən . . . . . . . . . . . . . . . . . . . . . . .58
Genə aşufteyi-bir nərgisi-şəhlayəm mən . . . . . . . . . . . . . . . . . . . . . .59
Ey qələndər, məni öldürdü bu əfyun, əfyun . . . . . . . . . . . . . . . . . . . .60
Cumdum genə qəvvas tək dəryayə mən, dəryayə mən . . . . . . . . . .62
Ta ki, oldum aşina ol rindi-sufi-rəngə mən . . . . . . . . . . . . . . . . . . . .63
Görüm, ey şux, səni xürrəmü xəndan olasan . . . . . . . . . . . . . . . . . .64
Möhrüm əlimdə var şəhi-sahib-bəratdən . . . . . . . . . . . . . . . . . . . . . .65
Sinəmi çak qılan çaki-giribanındır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .66
Mənim bu natəvan könlüm genə fəsli-bahar istər . . . . . . . . . . . . . .67
Mənim bu təb’i-məcnunim genə bəzmi-şərab istər . . . . . . . . . . . . .68
Meydə nə lütf, ey pəri, nəş’ə odur ki, səndə var . . . . . . . . . . . . . . .69
Eylə məstəm bilməzəm kim, mey nədir, mina nədir! . . . . . . . . . . .71
Nə şahü nə gədayəm, nə yesir, başımda halət var . . . . . . . . . . . . . .72
Bilsəm əgər xoş gəlir ol güli-xəndanə rəqs . . . . . . . . . . . . . . . . . . .73
Ta ki, bünyad eylərəm rüxsari-canandan hədis . . . . . . . . . . . . . . . .74
Mənə dilbər o könül mülkünə sultanım bəs . . . . . . . . . . . . . . . . . . .76
Vəh, nə göyçək yazılıb səfheyi-rüxsarə bu xət! . . . . . . . . . . . . . . . .77
Şükr, xuda ki, etdi yar şad fikar könlümü . . . . . . . . . . . . . . . . . . . . .78
Ey bivəfa, gətirmə çox əfğanə könlümü . . . . . . . . . . . . . . . . . . . . . .80
Sənsiz, ey gül, könlümün bir dəm qərarı yoxdu, yox! . . . . . . . . . . .82
Məstəbeyi-eşqdə badeyi-minayə bax! . . . . . . . . . . . . . . . . . . . . . . . .83
Ey könül, etmə şurü qovğa hiç . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .85
Ah, bilməm ki, neçün bizdən genə yar incimiş . . . . . . . . . . . . . . . . .86
“Səqahüm rəbbühüm cami” məni sərməsti-yar etmiş . . . . . . . . . . .87


**QƏSİDƏLƏR**


Bircə bax gör açılıb o güli-həmra, həmra . . . . . . . . . . . . . . . . . . . . .88
Müjdə, ey dil ki, səni görməyə canan gəldi . . . . . . . . . . . . . . . . . . .95

Aşiqi-divanə, bir zümzümə bünyad qıl .......................97
Şəhrbəndi-dildə bir sultanı gözlər gözlərim ...................99
Əyləşib bir xosrovi-afaqı gözlər gözlərim ...................103
Səfheyi-aləmdə bir dürri-nihandır Üştibin ....................105
Ey gözüm, gəl gözə bax, nərgizi-şəhla nəçidir! ...............107
Tərfi-gülşəndə genə bir güli-həmra görünür ..................110
Mənim aləmdə sultanım Əlidir .............................116
Genə şuridə könlüm aşiqi-bir gül’üzar olmuş ..................118
Guşeyi-vəhdət nə əcəb ca imiş .............................121

**ÇARPALAR**

Get dolanginən, xamsən hənuz ............................126
Ey firiştəxu, dur əyağə gəl ...............................129
Dərdi-hicrdən hali-zarımı .................................130
Gəlmə, gəlmə, get yaxşı-yaxşı sən ..........................131
Böylə bivəfa olma, ey pəri ...............................133
Heyf bilmədim kim, bu bülbülü ............................134

**GƏRAYLILAR**

Maşaallah, qadir Allah ...................................136
Genə fələklər ünüşdü ....................................138
Nə xoşlayıb xanım bilməm ................................139
Sənə qurban, gətir, saqi ..................................140
Abad olsun görüm, yarəb .................................141
İşim, peşəm od yandırmaq .................................142
Genə gəldi bahar fəsli ....................................143
Aman, ağa, sənə qurban ..................................144

**QOŞMALAR**

Susuyubdur genə kimin qanına .............................145
Saqi, nə yatmısan, dur ayağə, dur ..........................146
Səba, məndən söylə o gül’üzarə ............................147
Şeyda bülbül fəğan etmə, qəm yemə .........................148
Allah, Allah, bu dilbəri-simbər .............................149
Genə gözüm düşdü bir mahcəmalə ..........................150

Genə mövcə gəlib dəryayi-çeşmim . . . . . . . . . . . . . . . . . . . . . . .151
Genə leyli, leyli çıxmış seyranə . . . . . . . . . . . . . . . . . . . . . . . .152
Səba, bu ərzimi yetir səyyadə . . . . . . . . . . . . . . . . . . . . . . . . . .153
Sevdiyim, gözlərin aldı canımı . . . . . . . . . . . . . . . . . . . . . . . . .154
Bülbül kimi gül üzünə müştaqəm . . . . . . . . . . . . . . . . . . . . . . .155
Genə bahar oldu, açıldı güllər . . . . . . . . . . . . . . . . . . . . . . . . . .156
Səba, bu məhcuru bir şad eylə sən . . . . . . . . . . . . . . . . . . . . . .157
Genə İsgəndər tək düşdüm zülmatə . . . . . . . . . . . . . . . . . . . . . .158
Məni Məcnun edən yari-pərivəş . . . . . . . . . . . . . . . . . . . . . . . . .159
Gün yetdi zəvalə, döndü axşamə . . . . . . . . . . . . . . . . . . . . . . . .160

**TƏCNİSLƏR**

Mənim bəxtim kimi taqü rəvaqın . . . . . . . . . . . . . . . . . . . . . . . .161
Başına döndüyüm, bu necə haldır . . . . . . . . . . . . . . . . . . . . . . . .162
O tərlan baxışın qurbanı canım . . . . . . . . . . . . . . . . . . . . . . . . .163
Sənin tək şahbazi-sərvqamətə . . . . . . . . . . . . . . . . . . . . . . . . . .164
Könlüm gülzarında, qış mövsimində . . . . . . . . . . . . . . . . . . . . . .165
Eşqi başa vurub söz deyən aşiq . . . . . . . . . . . . . . . . . . . . . . . . .166
Qurbanı olduğum oxun düz yayə . . . . . . . . . . . . . . . . . . . . . . . . .167
Məcnunlar adını çəkən təhrirə . . . . . . . . . . . . . . . . . . . . . . . . . .168
Ala gözlüm, bu dərd məni öldürər . . . . . . . . . . . . . . . . . . . . . . .169

**FARSCA ŞEİRLƏR**

Pərü bali-bəstə darəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .170
Zişərabi-şövq məstəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .174

Təkbeytlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .176
Rübailər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .177
Məsnəvi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .182
Müxəmməslər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .183
Müləmmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .185
Müstəzadlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .188
Bəhri-təvil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .204

Lüğət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .207

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəvan Mürsəlov* |
| Korrektor: | *Pərvanə Məmmədova* |

Yığılmağa verilmişdir 18.05.2004. Çapa imzalanmışdır 29.12.2004.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 13,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 226.

Kitab “Şərq-Qərb” mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.